REDAKSİYA HEYƏTİ

Baş redaktor: **prof.Y.Ş.Kərimov**

| | |
|---|---|
| **Aydın Əhmədov** | *Azərbaycan Respublikası Təhsil Nazirliyinin kənd rayonları üzrə ümumi təhsil şöbəsinin müdiri* |
| **Faiq Şahbazlı** | *Azərbaycan Respublikası Təhsil Nazirliyinin dərslik və nəşriyyat şöbəsinin müdiri* |
| **Arif Muradov** | *Azərbaycan Respublikası Təhsil Muzeyinin direktor müavini* |
| **Nərminə Alnağıyeva** | *Azərbaycan Respublikası Təhsil Nazirliyinin məktəbəqədər təhsil sektorunun müdiri* |
| **Asəf Zamanov** | *Bakı Pedaqoji Kadrların İxtisasartırma və Yenidənhazırlanma İnstitutunun direktoru, fizika-riyaziyyat elmləri doktoru, professor* |
| **Nurlana Əliyeva** | *Azərbaycan Dövlət Pedaqoji Kollecinin direktoru, filologiya elmləri doktoru,professor* |
| **Vaqif Əmiraslanov** | *Bakı Sosial-Pedaqoji Kollecinin direktoru, tarix üzrə fəlsəfə doktoru* |
| **Vidadi Xəlilov** | *Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutunun məktəbəqədər və ibtidai təhsil şöbəsinin müdiri, pedaqoji elmlər doktoru,professor* |
| **Ramiz Əliyev** | *Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutunun psixologiya və yaş fiziologiyası şöbəsinin müdiri, psixologiya elmləri doktoru, professor* |
| **Mircəfər Həsənov** | *Azərbaycan Müəllimlər İnstitutunun ibtidai təhsilin metodikası kafedrasının müdiri, pedaqogika üzrə fəlsəfə doktoru, professor* |
| **Azadxan Adıgözəlov** | *Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi, pedaqoji elmlər doktoru, professor* |
| **Həqiqət Hacıyeva** | *Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi, biologiya üzrə fəlsəfə doktoru, dosent* |
| **Zemfira Əsədova** | *Nizami rayonu, 175 nömrəli körpələr evi-uşaq bağçasının müdiri* |
| **Esmira Ağayeva** | *İ. Əfəndiyev adına Elitar Gimnaziyanın ibtidai siniflər üzrə direktor müavini* |
| **Bibixanım İbadova** | *Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutunun ibtidai təhsil kurikulumu şöbəsinin müdiri, pedaqogika üzrə fəlsəfə doktoru* |
| **Könül Həsənova** | *Nəsimi rayonu, 111 nömrəli körpələr evi-uşaq bağçasının tərbiyəçisi* |
| **Xalidə Talıbova** (məsul katib) | *Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutunun aparıcı elmi işçisi, pedaqogika üzrə fəlsəfə doktoru* |


---

Yığılmağa verilmiş 11.05.2013. Çapa imzalanmış 11.06.2013.
Kağız formatı 70x100 1/16. Şərti çap vərəqi 6,5.
Sifariş№ 09. Tiraj 1000. Qiyməti 2 manat 50 qəpik.
Redaksiyanın ünvanı: AZ 1010. Bakı, Zərifə Əliyeva küçəsi, 40.
Tel. 493-84-41, mob. (050) 370-60-11.

---

«RS Poliqraf» MMC-nin mətbəəsində hazır diapozitivlərdən çap olunmuşdur.
Ünvan: Bakı, A.Məmmədov , 113.

## BU NÖMRƏDƏ

«Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı»nın təsdiq edilməsi haqqında

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ... 4

Kərimov Y. Ş. Ümummilli lider Heydər Əliyev müəllim və alimlər haqqında ... 5
Ümummilli lider Heydər Əliyevin hikmətli sözləri ... 9

*YENİ TEXNOLOGİYALAR*

Bəşirov V., Ağasıqızı K. İbtidai siniflərdə yeni təlim strategiyalarından istifadə üzrə iş təcrübəsi ... 10
Əliyeva R. Riyaziyyat dərslərində müasir təlim texnologiyalarından istifadə ... 14
Məmmədov T. Məsələ həllinin interaktiv metodlar və İKT vasitəsilə təliminə dair ... 20

*MƏKTƏBƏQƏDƏR TƏHSİL*

Cəfərova L. Respublikamızda beşyaşlıların məktəb təliminə hazırlanmaları üzrə işin vəziyyəti və yaxşılaşdırılması istiqamətləri ... 27
Sadıqova T., Rəhimova S. Məktəbəqədər yaşlı uşaqların ailələrinin öyrənilməsi metodları ... 31
Cəmilzadə S. Məktəbəqədər yaşlı uşaqların fiziki tərbiyəsində hərəkətli oyunların rolu ... 35
Qocayeva G. Uşaqların tərbiyəsində uşaq bağçası və ailənin əlbir işi ... 39
Rəhimova S. Məkətəbəhazırlıq qrupunda «Vətənimin göz dağı–Şuşa» mövzusunda məşğələnin icmalı ... 43
Ağayeva B. Uşaqların məktəbə müsabiqə yolu ilə (testlərlə) qəbulu probleminin tədqiqi ... 47

*FƏNLƏRİN TƏDRİSİ VƏ QABAQCIL TƏCRÜBƏ*

Allahverdiyeva R. II sinifdə Azərbaycan dilindən «günəş və bulud» mövzusunda açıq dərsin icmalı ... 51
Əsədova İ. Azsaylı xalqların təhsil hüququ haqqında ... 54
Qazıyeva N. İbtidai siniflərdə lüğət üzrə işin səmərəliliyinin təmin edilməsi haqqında ... 54
İslamova N. Dərsliklərdə dil qaydalarının verilməsi məsələlərinə dair ... 60
Qocayeva Q. İnşaların yazılma qaydaları ... 63
Razizadə S. İbtidai siniflərdə şagird nailiyyətlərinin qiymətləndirilməsi ... 67
BinnətovaŞ. Riyaziyyatın tədrisi prosesində fənlərarası əlaqəni reallaşdırmağın didaktik xüsusiyyətləri ... 71
Məmmədbəyov N. Rəsm tədrisinə verilən tələblər ... 75

*PSİXOLOGİYA VƏ DEFEKTOLOGİYA*

Muradov A. İstedad milli sərvətdir,ona qayğı gərəkdir ... 79
Kərimova E. Psixoloji faktor təhsilin keyfiyyətinə təsir edən mühüm amil kimi ... 88
Aminzadə M. Mədəniyyətin «Mən» sferasına təsiri ... 92

*TƏRBİYƏ MƏSƏLƏLƏRİ*

Paşayeva S. Uşaqların vətəndaşlıq ruhunda tərbiyə olunması şəxsiyyətin formalaşmasında əsas istiqamətlərdən biri kimi ... 98

*SİZİN KİTAB RƏFİNİZ*

Məmmədova K. I sinifdə musiqi dərslərinin planlaşdırılmasına dair faydalı kitab ... 102
məzhəkələr ... 102

## «Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı»nın təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respulikası Konstitusiyasının 109-cu maddəsinin 3-cü bəndini rəhbər tutaraq, qloballaşma şəraitində Azərbaycan dilinin imkanlarından dövrün tələblərinə uyğun istifadəni və ölkədə dilçiliyin inkişafını təmin etmək məqsədi ilə **qərara alıram:**

1.«Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı» təsdiq edilsin (əlavə olunur).

2.Bu sərəncamın 1-ci hissəsi ilə təsdiq edilən Dövlət Proqramının həyata keçirilməsinə nəzarət və tədbirlərin icrası zamanı müvafiq təşkilatlarla işlərin əlaqələndirilməsi Azərbaycan Respublikasının Nazirlər Kabinetinə həvalə edilsin.

3.Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1.Bu sərəncamın 1-ci hissəsi ilə təsdiq edilən Dövlət Proqramının icrasının gedişi barədə ildə bir dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat təqdim etsin.

3.2.Bu sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 9 aprel 2013-cü il

## ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEV MÜƏLLİM VƏ ALİMLƏR HAQQINDA

**prof. Y. Ş. Kərimov**

Heydər Əliyev fenomeni bizim üçün ibrət dərsidir. "Təhsil millətin gələcəyidir" deyən milli liderimiz onun hər bir sahəsini qiymətləndirmiş və inkişaf etdirilməsi qayğısına qalmışdır. Gələcəyimiz olan təhsilin müəllimin simasında inkişafı ulu öndərin diqqətini cəlb etmişdir.

H. Əliyev müəllimin şərəfli əməyini yüksək qiymətləndirərək demişdir: "Müəllim adı dünyada ən yüksək addır. Mən şəxsən müəllimdən yüksək ad tanımıram". O, öz fikrini belə əsaslandırmışdır: "Müəllim vəzifəsi ona görə şərəflidir ki, o, cəmiyyət üçün ən dəyərli, bilikli, zəkalı, tərbiyəli, vətənpərvər vətəndaşlar hazırlayır".

Daha sonra o qeyd edirdi ki, müəllimin bir məqsədi, bir amalı olmalıdır: ölkəmizi çiçəklənən, inkişaf edən, firavan, qüdrətli dövlətə çevirməyə, özünü vətən uğrunda fəda etməyə hazır olan sağlam əqidəli, milli ruhlu nəsil yetişdirə bilsin.

Müəllimlik peşəsini belə yüksək qiymətləndirən Heydər Əliyev onların qarşısında ciddi vəzifələr qoymuşdur. O göstərmişdir ki, gənc nəsildə tərbiyə emək istədiyi xüsusiyyətlərə birinci növbədə müəllimin özü malik olmalıdır. Müəllim daim özünü təkmilləşdirməli, öz üzərində işləməlidir. Öz üzərində işləməyən müəllim yaxşı müəllim ola bilməz.

Təhsilimizin hər bir sahəsi ilə maraqlanan H.Əliyev 1978-ci ildə pedaqoji ali məktəblərin qarşısında duran vəzifələrdən danışarkən ali təhsili olmayan müəllimlərin ixtisasını artırmaq üçün yaradılmış qiyabi şöbələrin əhəmiyyətini də qeyd etmişdir. O göstərmişdir ki, respublikanın məktəblərində işləyən müəllimlərin bir qismi orta pedaqoji təhsillidir. Belə müəllimlərin sayı 34 minə qədərdir. Onların üçdə biri qiyabi təhsil alır. Bu imkandan istifadə etməyənlərə müraciətlə bildirir ki, xalq maarifi orqanları ali təhsili olmayan müəllimləri qiyabi təhsilə cəlb etməlidirlər: "Müəllim" sözü o qədər güclü, müəllim adı o qədər yüksək, sözün əsl mənasında, o qədər müqəddəsdir ki, müəllimlər gərək bu çətinliklərə dözsünlər, gənc nəslin təlim-tərbiyəsi ilə məşğul olsunlar".

Ulu öndər müəllimin dilinə və nitqinə böyük əhəmiyyət vermişdir. O göstərmişdir ki, müəllim ümumi məlumatla yanaşı dərs demək, öyrətmək, tərbiyə etmək üçün həm də dil qabiliyyətinə, gözəl natiqlik məharətinə malik olmalıdır. Müəllimlik işində, öyrətməkdə nitq inkişafı xüsusi əhəmiyyət kəsb edir. Müəllim öz dilini yaşatmalı, inkişaf etdirməlidir. Dilimizin gözəl, cazibədar əziz olduğunu qeyd edən H.Əliyev onu mükəmməl öyrənməyi məsləhət görürdü.

1998-ci ildə Azərbaycan müəllimlərinin XI qurultayındakı nitqində demişdir: "Azərbaycan müəlliminin bir məqsədi, bir amalı olmalıdır:

Azərbaycanımızı çiçəklənən, inkişaf edən, firavan, qudrətli bir dövlətə çevirməyə qadir, müstəqillik ideyalarına sadiq, özünü vətənin azadlığı naminə fəda etməyə hər an hazır olan, yeni təfəkkür tərzini qavrayaraq müasir tələblərə cavab verən, sağlam əqidəli, milli ruhlu nəsil yetişdirmək".

Heydər Əliyevin təhsilin inkişafına dair sərəncamları, fərmanları, çıxışları müəllimlərin öz işlərini daha ilhamla, yaradıcılıqla davam etdirmələrinə stimul yaratmışdır. O demişdir: "Müəllim öyrətməlidir, bilik verməlidir, tərbiyə verməlidir. Müəllim çalışmalıdır ki, uşaq nəinki bilik alsın, həm də cəmiyyətdə bütün əxlaq normalarını, prinsiplərini mənimsəsin və onlara riayət etsin, öz həyatını yüksək əxlaqi dəyərlər əsasında qursun".

Bu vəzifələr 1999-cu ildə qəbul olunmuş təhsil haqqında proqramda da ciddi şəkildə əks olunmuşdur. Proqramda müəllim kadrlarının hazırlığını, fəaliyyət göstərənlərin ixtisaslarının artırılmasını təşkil etmək, əlavə pedaqoji təhsil sistemini genişləndirmək, yenidən hazırlanma ehtiyacının təmin olunması məsləhət görülür.

Məhz Heydər Əliyevin 1998-ci il martın 30-u tarixli sərəncamı ilə yaradılmış Dövlət Komissiyası tərəfindən "Azərbaycan Respublikasının təhsil sahəsində islahat Proqramı" hazırlanmışdır. Proqram Azərbaycan Respublikası Prezidentinin 1999-cu il, iyunun 15-də verdiyi 168 nömrəli sərəncamı ilə təsdiq edilmişdir.

Qanunda təhsilin müxtəlif sahələri, o cümlədən, kadr məsələləri əhatə olunur, yeni tələblərə cavab verən və yüksək pedaqoji təfəkkürə malik müəllim kadrlarının hazırlanması, pedaqoji kadrların attestasiya sisteminin yaradılması, onların əməyinin obyektiv qiymətləndirilməsi, əmək haqqının ödənilməsinə diferensial yanaşılması və s. məsələlər diqqət mərkəzinə qoyulmuşdur.

Proqramda təhsil sisteminin müxtəlif tipli müəssisə və təşkilatları üçün rəhbər kadrların hazırlanmasını təşkil etmək qeyd olunur, "Yeni tədris planı və proqramları əsasında yüksək pedaqoji, metodiki ustalıq vərdişlərinə, ümumi, yaş psixologiyası, yaş fiziologiyası üzrə dərin biliklərə malik olan pedaqoji kadrlar hazırlamaq"vəzifəsi qoyulur.

Müəllimin cəmiyyətdə oynadığı rol mühüm əhəmiyyətə malikdir. "Həyatını müəllimliyə, xalqına, millətinə həsr edən insanlar həqiqətən fədakar və eyni zamanda, qəhrəmanlıq göstərən insanlardır. Müəllimlik peşəsi asan peşə deyil. Bəziləri hesab edirlər ki, hər adam müəllim ola bilər. Bəzən olur ki, müəllimliyə layiq olmayan adamlar da müəllimlik edirlər".

Ulu öndər pedaqoji kadrların, xüsusilə rəhbər pedaqoji kadrların seçilməsi, yerləşdirilməsi və tərbiyə edilməsi nöqsanlarının aradan qaldırıldığını bildirir. Təşkilatçılıq qabiliyyəti, təcrübəsi, mənəvi siması ilə fərqlənməyən adamların məktəb rəhbəri, təhsil şöbəsinin müdiri vəzifəsinə çəkilməsi, tez-tez dəyişdirilməsi halları onu narahat edirdi.

Heydər Əliyevin fikrinə görə, müəllim xalqımızın bu gün keçirdiyi praktik vəzifələri yaxşı başa düşməli, yeni və qabaqcıl nə varsa, hamısını fəal müdafiə etməli, ətalətə, meşşanlığa, vaxtı keçmiş mərasimlərə qarşı barışmaz mübarizə aparmalıdır.

Müəllimlə əlaqədər bir cəhət də H.Əliyevin nəzərindən qaçmayıb. O, ölkəmizdə insanların hörmət mənasında bir-birinə "müəllim" deyə müraciət etməsini, həm də peşəsindən asılı olmayaraq bütün hörmətli adamlara belə müraciət formasını alqışlayır.

O bildirir ki, müəllimini həmişə böyük hörmət və ehtiramla xatırlayıb, onu görəndə həmişə özünü yığışdırıb, həm qorxub, həm də hörmətini saxlayıb. Onun hər sözünü qanun kimi qəbul edib .

Müəllimi yüksək qiymətləndirən ümummilli lider demişdir: "Bizim hər birimiz elmi dərəcəmizdən, biliyimizdən, təhsil səviyyəmizdən, tutduğumuz vəzifədən asılı olmayaraq nailiyyətlərimizə görə birinci növbədə məktəbə, müəllimə borcluyuq".

Müəllim kimi yüksək şərəfli adı daha yüksək səviyyəyə qaldırmaq məsləhət görülür. Hər bir vicdanlı, qədirbilən adam müəllimini qəlbində saxlayır, hörmətlə yad edir. Hər birimizin öz müəllimi vardır. Ömrümüz boyu onun xatirəsini hörmətlə, minnətdarlıqla qəlbimizdə yaşadırıq. Dahi H.Əliyev özünün orta məktəb müəllimi Lətif Hüseynzadəni həmişə yüksək qiymətləndirmiş, qəlbində yaşatmışdır. L.Hüseynzadənin müəllimlik, öyrətmək, gənc nəslə qaygı bacarığı, həlimliyi, xoşrəftarlılığı, qayğıkeşliyi mənim inkişafıma da təkan vermişdir. Azərbaycan Pedaqoji Elmlər İnstitutunun aspiranturasına qəbul olunanda şöbə müdiri Lətif Hüseynzadə idi.

H.Əliyev pedaqoji kollektivin fəaliyyətinə yüksək qiymət vermişdir. O, pedaqoji kollektivlər və xalq maarifi orqanlarında yüksək mənəvi iqlimin yaradılmasını vacib hesab edirdi, lakin təəssüflə qeyd edirdi ki, heç də onların hamısında belə iqlim yaradılmamışdır. Bəzi kollektivlərdə, maarif orqanlarında vəzifədən sui-istifadə, tamahkarlıq, rüşvətxorluq hallarına yol verilməklə peşə etikasının pozulmasına qarşı barışmaz mübarizə aparılmır. Müəllimin mənəvi-əxlaqi siması, ideya, inamı, baxışlarının sabitliyi, hərəkətlərinin ardıcıllığı, maraq dairəsinin genişliyi, səmimiliyi və vicdanlılığı məktəbdə qüdrətli tərbiyəvi amildir.

Məktəbin, müəllimin valideynlərlə əlaqəsi də ulu öndərin diqqətindən yayınmamışdır. Mükəmməl tərbiyə üçün o, məktəblə ailənin sıx birliyni, birgə səyini məsləhət görmüşdür. Uşağın evdə hansı şəraitdə böyüdüyünü bilmək müəllimin mühüm vəzifəsi hesab edilmişdir. O demişdir: "Məhz müəllim müəyyən mərhələdə tərbiyə sahəsində hansı vəzifəni yerinə yetirmək lazım gəldiyini müəyyənləşdirməli, valideynlərə kömək etməli, uşağın şəxsiyyətinin formalaşdırılmasına düzgün təsir göstərmək yollarını onlara öyrətməlidir".

Müəllimin xidmətinin ümumxalq, ümumdövlət əhəmiyyətini qiymətləndirən H.Əliyev 1978-ci ildə Azərbaycan müəllimlərinin IX qurultayındakı nitqində demişdir: "Ümumittifaq sosializm yarışında respublikamızın səkkiz il dalbadal qalib gəlməsində şanlı Azərbaycan müəllimlərinin əməyi və xidməti böyükdür".

Müəllimlərin rəhbər partiya orqanlarına – SSRİ Ali Sovetinə, Azərbaycan SSR Ali Sovetinə, yerli xalq deputatları sovetlərinə seçilmələri, SSRİ orden və medalları ilə təltif olunmaları, respublikamızın fəxri adlarını daşımaları da diqqətdən yayınmamışdır. H.Əliyevin göstərişi ilə 1978-ci ilin may ayında IX qurultayın keçirildiyi gün 140 nəfər maarif işçisinə "Azərbaycan SSR Əməkdar Müəllimi" fəxri adı, respublika Ali Soveti Rəyasət Heyətinin Fəxri Fərmanının verilməsi haqqında məlumat dərc olunmuşdur.

Bu gün dəbdə olan bir məsələ ulu öndərin diqqətini cəlb etmışdir. Bu, məktəbin qiymətini yalnız onun məzunlarının ali məktəbə qəbul olunmaları ilə vermək hallarının mövcudluğudur. H.Əliyev demişdir: "Çox uzun bir müddət ərzində məktəbin işinə yalnız bir göstəriciyə, əsas hesab edilən göstəriciyə görə qiymət verilirdi: məktəbin nə qədər məzunu tələbə olmuş, ali məktəb diplomu almışdır. Bu nöqteyi-nəzəri dəyişdirmək vaxtı gəlib çatmışdır. Bilikli, bacarıqlı, əməksevər adamlar yetişdirmək məktəbin ən birinci borcudur. Məzun əməyə hazırdırmı – bu gün məktəbin işinin, bütün xalq maarifi sisteminin səmərəliliyi bax, bu meyarla müəyyən edilir".

Ali təhsil, ali məktəb müəllimləri ulu öndəri daim düşündürmüş, ali təhsil ocaqlarının yubileylərində iştirak etmişdir. O, ali təhsil müəssisələrinin kadr hazırlığı sahəsindəki uğurlarını yüksək qiymətləndirmişdir."Ali məktəb işçilərinin vəzifəsi fəhlə sinfi ilə ayaqlaşmaqdan, kolxozçu kəndlilərlə ayaqlaşmaqdan, respublikanın bütün dinamik həyatı ilə ayaqlaşmaqdan ibarətdir. Bəlkə onu hətta ötüb keçmək lazımdır, çünki siz iqtisadiyyatımızı, elm və mədəniyyətimizi irəlilətməli olan kadrlar hazırlayırsınız. Siz kadrları nə qədər daha tez, üstün sürətlə, daha yüksək keyfiyyətlə hazırlasanız, həyatımızın bütün sahələrində müvəffəqiyyətlər bir o qədər çox olar".

Ümumilli lider ali məktəb müəllimlərinin qarşısında elmə dərindən yiyələnmək, onu inkişaf etdirmək vəzifəsini də qoymuşdur. Ali məktəblərimizdə 9 min nəfərlik elmi-pedaqoji kollektivin fəaliyyət göstərdiyini, 430-dan çox elmlər doktoru və professorun, 3500 nəfər elmlər namizədi, dosentin çalışdığını bildirən H.Əliyev onların biliyindən, təcrübəsindən daha çox istifadə olunmasını tələb edirdi. O demişdir: "...biz çalışmalıyıq ki, hər bir ali məktəb müəllimi öz sahəsində səriştəli olsun, geniş ümumi məlumata, yaxşı pedaqoji vərdişlərə, mühazirə oxumaq, dərs demək, öyrətmək, tərbiyə etmək üçün bütün başqa zəruri keyfiyyətlərə malik olsun".

H.Əliyev təəssüflə qeyd edir ki, elmlər doktoru və ya namizəd diplomu aldıqdan sonra bəziləri nəinki yeni əsərlər yazmır, həm də hər gün öz biliklərini artırmırlar.

Ali məktəblərə ən yüksək balla qəbul olunmuş gənclərlə görüşdə (2001-ci il, sentyabrın 3-də) demişdir: "Beləliklə,mən üzümü universitetlərə, müəllim-professor heyətinə, təhsil sahəsində işləyən bütün vətəndaşlarımıza tuturam ki, Azərbaycan xalqının gələcəyi, müstəqil Azərbaycanın gələcəyi gənclərin bu gün aldıqları təhsil və tərbiyədən asılıdır. Xüsusən, aparıcı qüvvə, hər bir ölkənin, hər bir millətin aparıcı qüvvəsi onun bilikli nümayəndələridir. Mən arzu edirəm ki, universitetlər professor-müəllim heyətinin işə münasibətini daha da yüksəltsinlər.

Ümummilli lider təhsillə, məktəblə məşğul olan alimləri – bizi də yaddan çıxarmamışdır. O, Azərbaycan müəllimlərinin IX qurultayındaki tarixi nitqində demişdir: "Pedaqogika elminin qarşısında duran vəzifələrin ölçüyəgəlməz dərəcədə artması Respublika Elmi-Tədqiqat Pedaqogika İnstitutunun işini xeyli yaxşılaşdırmağı tələb edir. Alimlərimiz müasir pedaqogika elminin aktual problemlərini dərindəm işləyib hazırlamalı, qabaqcıl təcrübəni ümumiləşdirməli və yaymalı, pedaqoji kollektivlərə, xüsusən, kənd məktəblərinin pedaqoji kollektivlərinə metodik yardımı gücləndirməlidirlər".

Bu ideya dahi öndəri daim düşündürmüş,1999-cu ildə təhsil islahatı haqqında fərmanda Azərbaycan Resublikası Təhsil Akademiyasının yaradılmasını lazım bilmişdir.

Dahi rəhbərin bu arzusunu ləyaqətlə yerinə yetirmək üçün biz qüvvəmizi əsirgəməməliyik.

## ÜMUMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN HİKMƏTLİ SÖZLƏRİ

Mən Azərbaycanın sadə vətəndaşıyam. Bu addan yüksək ad yoxdur, ancaq bundan da yüksək ad muəllimlikdir.

* * *

Gərək nəbzin Vətənin nəbzi ilə vursun

* * *

Vətənpərvərlik insanın daxilində duyğulardır. Əgər bunlar yoxdursa, o insan mənəviyyatsızdır.

* * *

Xalqın, vətənin taleyi hər bir insanın taleyinə çevrilməlidir.

# İBTİDAİ SİNİFLƏRDƏ YENİ TƏLİM STRATEGİYALARINDAN İSTİFADƏ ÜZRƏ İŞ TƏCRÜBƏSİ

**Vidadi Bəşirov,**
pedaqogika üzrə fəlsəfə doktoru,
ADU-nun dosenti,
**Kəmalə Ağasıqızı,**
Bakı şəhəri, 133 nömrəli orta
məktəbin müəllimi





**açar sözlər:** yeni pedaqoji texnologiyalar təlim strategiyaları, sinif müəllimi, iş təcrübəsi, təlim metodları, təhsil proqramı, çərçivə kurikulumu, metodik iş

**ключевые слова:** новые педагогические технологии, стратегия обучения, учитель, опыт работы, методы обучения, образовательная программа, методическая работа

**key words:** new pedagogical technologies, strategic of training, class teacher, experience of work methods of training, educational program, frame curriculum, methodical work

Azərbaycan Respublikasında ibtidai təhsilin pedaqogikası və metodikası üzrə çərçivə kurikulumunda haqlı olaraq göstərilir ki, şagirdlərin, tələbələrin təşəbbüskarlığını, yaradıcılığını məhdudlaşdıran ənənəvi təlim formalarından tədricən imtina etmək vaxtı çatmışdır. Adları çəkilən sənədlərdə məsləhət görülür ki, şagirdlərin yaradıcı fəaliyyətinə imkan verən, tədqiqatçılıq bacarıqlarını stimullaşdıran təlim formaları və metodlarına geniş yer verilsin, yeni pedaqoji texnologiyaları (o cümlədən, kompyuterdən istifadə, interaktiv təlim, interaktiv metod və priyomların tətbiqi zəminində) və müasir təlim yanaşmalarını əks etdirən dərs-ekskursiya, dərs-yarış, dərs-müzakirə, dərs-disput kimi qeyri-standart dərslərdən istifadəyə üstünlük verilməsi məsləhət görülür .

Sinif müəllimi olacaq pedaqoji təhsilli milli kadrlarımızın tələbə ikən bu təhsilləndirici vərdişlər ruhunda təlim-tərbiyə almaları pedaqoji prosesin məhvərinə gətirilməli, bütün metodik iş nümunələrində öz əksini tapmalıdır. Şagird-müəl-

lim, müəllim-şagird əlaqələri zəminində qazanılan bilik, bacarıq və vərdişlər, mənəvi keyfiyyətlər yeni, orijinal ideyalarla möhkəmləndirilməlidir.

Bunun üçün konkret iş metodları və formalarından istifadə yolu əsas götürülməklə, şagirdlərdə real düşüncə tərzi, müqayisəli əməliyyatlardan istifadə qabiliyyəti, mühakiməli nitq tərzi, ağıl və təfəkkür təhlilinə yol tapmaq səyləri işin məzmununa gətirilməlidir.

Bu məqsədlə "I-IV siniflər üzrə kurikulumlarda pedaqoji prosesin nəzərdə tutulmuş ardıcıllığını hər bir sinif müəllimi aydın dərk etməli, həm öz həmkarları, həm də aidiyyatı rəsmi orqanların tövsiyəsi əsasında təkmil iş qurmağa səy göstərərək bu cəhətləri nəzərə almaqla, öz işində həm metodik fəaliyyəti, həm də ona göstərilən metodik xidməti daha uğurla başa vura bilər."

Müəllimin dərs zamanı qarşılaşdığı müasir tələblərdən biri şagirdlərlə iş prosesində milli təhsil proqramı məsələlərinin qoyuluşu haqqında müfəssəl məlumatın olmasıdır.

Müəllim ilk növbədə təhsil proqramı (kurikulum) haqqında ümumi anlayışa malik olmalıdır. O, bilməlidir ki, **kurikulum** əcnəbi sözü olub, çoxmənalıdır. Bu məfhuma gah tədris proqramı, gah da təhsil proqramı kimi yanaşılması onun pedaqoji-metodik istilah olaraq müəyyənləşdirilməsi hələ də mücərrəd olaraq qalır. Yəni, müəllim konkret nəticələrə yiyələnmək üçün fəaliyyətinin bütün sahələrində uğurla çalışıb, mütləq bu məfhumun anlayış səviyyəsində dərk olunmasına cəhd etməlidir.

Mənbələrə üz tutarkən məlum olur ki, *kurikulum* sözü bəzən *marşrut, gedilən yol, müəyyənləşdirici məqsəd, planlaşdırılmış arzu, niyyət, fəaliyyət üçün başlıca şərt* mənasında qəbul edilir.

Kim haraya gedəcəksə, nə ilə gedəcəyini, necə gedəcəyini bütün incəliklərinə qədər müəyyənləşdirirsə, bu, həmin şəxs üçün kurikulum, məramnamə hesab edilir. Yaxud kimsə nəzərdə tutduğu işin icrası üçün müəyyən mərhələlər üzrə layihə müəyyənləşdirirsə, bu, onun üçün kurikulum olur. Bu problemin həllində müəllimin daha vacib keyfiyyətləri mənimsəməsi üçün qarşıya qoyulan vəzifələri yeni pedaqoji təfəkkür baxımından nəzərdən keçirməsi tələb olunur. Mülahizələrimizi müəllimin yeni təlim strategiyaları ilə bağlı didaktik tələblərin inkişafına yönəltməyi nəzərdə tutduğumuzdan, onun təşəkkül tarixinə diqqət yetirmək lazımdır. Müəllim bilməlidir ki, Azərbaycan 2003-cü ildən başlayaraq kurikulum islahatı prosesinə qoşulmuşdur. Ötən əsrin 90-cı illərinin sonlarında yeni pedaqoji təfəkkürün formalaşdırılması, təhsilin humanistləşdirilməsi və demokratikləşdirilməsi sahəsində müəyyən işlər görülməyə başlanmışdı. Böyük rezonans doğuran bu hərəkat təhsil işçiləri arasında geniş yayılaraq, təlim-tərbiyə prosesinin təşkilindən onun idarə olunmasınadək bütün sistemi əhatə edirdi.

Kurikulum islahatının geniş səfərbərlik nəticəsində reallaşdırılması sistemli müzakirələr və disputlar sayəsində sosial həyatın tərkib hissəsinə çevrildi .

İbtidai siniflərdə tətbiqini tapan "Addım-addım" proqramı fəal təlimin təşkili və səmərəliliyinin nümunəsi kimi əks-səda verdi. Bu axtarışlar interaktiv təlim

texnologiyalarının inkişafına təsir göstərdi. Kurikulum islahatı yenilikləri əhatə edərək, məzmunu daha da genişləndirdi.

Yeniləşən cəmiyyətin təhsil siyasətinin nəticəsi olaraq 2006-cı ildə Azərbaycan hökuməti tərəfindən "Azərbaycan Respublikasında ümumi təhsilin konsepsiyası (milli kurikulumu)" təsdiq olundu. Bu sənəddə yanaşma, məzmun, prinsip və struktur, ilk dəfə idi ki, mühüm strateji tələblər kimi ümumi təhsilin qarşısında qoyulurdu. Müəllim bilməli idi ki, bu proqramda ideal iş üslubuna çatmağın güclü vasitəsi olan milli və ümumbəşəri keyfiyyətləri, o cümlədən, Azərbaycanın reallıqlarını, pedaqoji-metodik fikir tarixi və təcrübəsini öyrənən, həm də digər ölkələrin faydalı pedaqoji-metodik ideyalar və təcrübəsinə əsaslanan strateji vəzifələr nəzərdə tutulur. Deməli, hazırlanmış təhsilləndirici külliyyatlar adi, seyrçi dekorativ bir sənəd deyil. Burada konkret məqsədlər, onlara uyğunlaşdırılmış məzmun dəyərləri, mahiyyəti əks etdirən nəticələr, pedaqoji prosesin müasir prinsipləri, şagird nailiyyətlərini qiymətləndirilmə mexanizmləri təsbit olunmuşdur. Bu halda müəllim ilkin olaraq fənn kurikulumlarının səciyyəvi cəhətlərinin müqayisəli təsvirini ayırd etməlidir. O, həmin məsələnin sxematik formasını öz həmkarları ilə təhlil edərək, konkret nəticəyə gəlməlidir.

Müəllim kurikulum diaqnostikası, meyar və texnologiyalar barədə, öyrənilən obyekt və ya proses haqqında əvvəlcədən bu informasiyanı almalıdır:

| **ənənəvi təhsil proqramı** | **müasir kurikulum** |
|---|---|
| bilikyönümlüdür | şəxsiyyətyönümlüdür |
| müəllimyönümlüdür | şagirdyönümlüdür |
| fənnyönümlüdür | nəticəyönümlüdür |
| təklifyönümlüdür | tələbyönümlüdür |

| | |
|---|---|
| Fəndaxili və fənlərarası əlaqə məqsədyönlü və stimullaşdırıcı xarakter daşıyır. | İnterativlik əsas prinsip kimi qəbul olunub. |
| Fənlər üzrə qiymət normaları müəyyən edilib. | Qiymətləndirmə standartları və mexanizmləri müəyyən edilib. |

İbtidai siniflərdə fənn kurikulumlarının əhatə dairəsini, novator ruhunu milli və ümumbəşəri dəyərlər əsasında zənginləşdirməyə rəvac verməli olan dərsliklərdən istifadə təcrübəsində ənənə və müasirlik prinsiplərini unutmaq olmaz. Yeni interaktiv yanaşmaları əsas gətirib, mütərəqqi ənənəvi təlim strategiyalarından, təhsilin məzmununu təkmilləşdirən dərsliklərdəki tədris materiallarından da yeni pedaqoji texnologiyalar əsasında istifadə olunmalıdır. Prof.Y.Ş.Kərimovun yazdığı kimi, "dərsliklərə elə metod və priyomlar gətirilməlidir ki, biliklərin qavranılmasını, yaradıcı qabiliyyətlərin inkişafını asanlaşdırsın, məntiqi təfəkkürün, bacarıq və vərdişlərin formalaşdırılmasını təmin etsin."

Təlimdə müəllimin yaradıcı əməyinin uğurlu nəticələrinin reallaşmasına imkan verən bəzi amillərin tətbiqi imkanlarını da nəzərə almağın üstünlükləri var. Yəni, təlimdə müəllimin uğur qazanmasına imkan verən bəzi amilləri yeni

strateji məqsəd və vəzifələr baxımından nəzərə almaq lazımdır. Bunları belə qruplaşdırmaq olar:

– mövzunun həyati əhəmiyyətinin şagirdlər tərəfindən başa düşülməsinin təmin edilməsi;

–dərs prosesində şagirdlərin fəallığa həvəsləndirilməsi təcrübəsi;

–dərsdə şagirdlərə öyrənməyi öyrətmək fəaliyyətinin həyata keçirilməsi;

–şagirdlərdə öyrənməyə həvəsləndirən motivlərin formalaşdırılması təcrübəsi;

–yeni interaktiv təlim metodlarından istifadə təcrübəsi.

Öyrənilən mətnin həyat və cəmiyyət, ümumxalq və ümumdövlət həmrəyliyi ilə əlaqəli tədrisini pedaqoji prosesdə şagirdlərin psixoloji inkişafında nəzərə alınmasına dair konkret bir nümunəyə nəzər salaq. Azərbaycan dili dərslərində tariximizə aid mövzularda Vətənə sevgi, düşmənə nifrət hissini formalaşdırmağın bariz nümunəsi kimi uşaqlarda milli və ümumbəşəri dəyərlərə bələdlik hissini, azərbaycançılığa, türkçülüyə, islam dəyərlərinə yüksək humanist məhəbbət təlqin edən mətnlərə rast gəlmək olar. Müəllim bütün fənlərin tədrisində təlim strategiyalarının həyati əhəmiyyətinin şagirdlər tərəfindən başa düşülməsində fənlərarası və fəndaxili inteqrasiyadan səmərəli istifadə imkanlarını əvvəlcə özü mənimsəməli, sonra isə şagirdlərini bu işə səfərbər etməlidir. Bu yeniliklərin mahiyyətin dəyərləndirərkən müəllim öz təhsil fəaliyyətinə yeni prizmadan, yeni didaktik tələblər baxımından yanaşmalıdır.Mexaniki əzbərləmə tərzindən imtina etməli, düşüncə müstəqilliyinə, təşəbbüskar yaradıcı əməyə, həyati bacarıqlara üstünlük verilməlidir.

Müəllim təlim prosesində ənənə və müasirliyin vəhdətini də nəzərə almalı, yeni mövzuların, bilik, bacarıq, vərdiş və mənəvi keyfiyyətləri peşəkarcasına, yüksək səviyyədə mənimsətmək üçün özü də axtarışda olmalı, tədrisə tənqidi nöqteyi-nəzərdən diqqət yetirməlidir.

Bu gün milli təhsil quruculuğu ideyalarını mütərəqqi səciyyə daşıyan dərsliklərdən kənar təsəvvür edə bilmərik. Uzun illərin pedaqoji təcrübəsindən keçən, gənc nəslin maariflənməsində istifadə edilən dərsliklərə, dərs vəsaitlərinə obyektiv təhlil əsasında yanaşılmalıdır. Hər şeyi ucdantutma yenilik hesab etmək düzgün deyil. Hamıya məlumdur ki, milli dərsliklərimiz sovet dövründə yazılmış dərsliklərdəki ana dilinə məhəbbət, humanizm, vətənə sevgi, düşmənə nifrət, mənəvi zənginlik, milli və ümumbəşəri siqlət, tərəqqiyə yardımçı olan təhsil strategiyaları bu gün milli kurikulumun tətbiqində mənəvi dəstək ola biləcək materiallardan xali deyil. Şəxsi münasibət, subyektiv yanaşma, təkəbbürlülük iddiası ilə, "müasirlik" adı altında çıxış edən müəlliflərə imkan verməyərək, ibtidai təhsilin pedaqogikası və metodikası elminin intişarına dərin nəzəri-konseptual ideyalar və təcrübi fəaliyyət yenilikləri gətirən müqtədir alimlərimizin, o cümlədən, professorlardan Yəhya Kərimovun, Nurəddin Kazımovun, Əjdər Ağayevin, Ağahüseyn Həsənovun, Seyidağa Həmidovun, Vidadi Xəlilovun, Akif Abbasovun, Ramiz Əliyevin, dosentlərdən Məcid İsmixanovun, Allahverdi Eminovun, Emiliya Kərimovanın, Akif Nəzərovun qabaqcıl elmi-pedaqoji, nəzəri-metodik və psixoloji-didaktik səciyyə daşıyan konseptual ideyalarından da faydalanıb, ibtidai siniflərdə təlim-tərbiyə prosesinin düzgün tənzimlənməsi üçün universal bilik mənbəyi kimi istifadə etməliyik.

**ədəbiyyat**

1.Ümumtəhsil məktəblərinin I-IV sinifləri üçün fənn kurikulumları. Bakı: "Təhsil", 2008

2.Kərimov Y.Ş. Seçilmiş əsərləri, VI cild. Dərslik problemi. Bakı: "Səda", 2011

3.Kazımov N.M. Tətbiqi pedaqogika. Bakı: "Çaşıoğlu", 2010

4."Kurikulum", 2009, №2

5.Fəal-interaktiv təlim texnologiyalarının (FİTT) Azərbaycanda tətbiqi ilə bağlı fəaliyyət istiqamətləri. "Azərbaycan müəllimi", 2005-ci il martın 4-ü

**Опыт работы с новыми стандартами обучения в начальных классах**

**резюме**

В статье рассматриваются методы работы, которые являются характерными для классного учителя. Также раскрываются примеры новых педагогических технологий, таких как использование компьютеров, интерактивные уроки, система требований, которая позволяет усвоить стратегии обучения при использовании интернета. Автор определяет, что так как первые шаги работы по национальному куррикулуму формируется для начальных классов учитель должен иметь информацию по обще- педагогической и методической сторонах этого вопроса.

**Exsperiense with new traninq standards at primary classe**

**summary**

The article deals with the working methods which is typical for a schoolmaster. Examples of new pedagogical technology as usage of computers, interactive lessons, system of requirements which allows learning teaching strategies while using internet is revealed. There is also emphasized that as first steps of work on national curriculum form for primary classes schoolmaster should have information on pedagogy and methodical sides of the question.

# RİYAZİYYAT DƏRSLƏRİNDƏ MÜASİR TƏLİM TEXNOLOGİYALARINDAN İSTİFADƏ

**Rəhilə Əliyeva,**

TPİ- nin böyük elmi işçisi



**açar sözlər**: ibtidai siniflər, təlim prosesi, innovasiya, təlim metodları, müasir yanaşma, fəaliyyət, inkişaf, bacarıq, idrak maraqlarının formalaşdırılması, təlimdə müasir texnalogiyalardan istifadə, şəxsiyyət

**ключевые слова:** начальные классы, процесс обучения, инновация, методы обучения, современный подход, деятельность, развитие, умение, формирование интересов разума, использование современных технологий обучения, личность

**key words:** primary school, learning, innovation, training methods, modern approach, activities, development, skill formation interests of reason, the use of modern teaching technologies, and personality

Kurikulumun nəzəri problemləri ilə bağlı irəli sürülən və müasir pedaqoji yanaşma kimi əsaslandırılan müəddalar Azərbaycan pedaqoji fikrində ən yeni təhsil innovasiyaları kimi dəyərləndirilir. Hazırda Azərbaycan öz təhsil sistemini dünyanın ən mütərəqqi ölkələrinin təhsil prinsiplərindən istifadə etməklə təkmilləşdirir, məzmun və struktur dəyişiklikləri aparır.

Son illərdə respublikamızda, bütün sahələrdə olduğu kimi, təhsil sahəsində də böyük islahat proqramı həyata keçirilir. Belə ki, cəmiyyətdə baş verən köklü dəyişikliklər getdikcə milli təhsil sisteminə də öz təsirini göstərir.

İslahatın əsas mahiyyətini təhsilin demokratikləşdirilməsi, humanistləşdirilməsi, humanitarlaşdırılması və s. prinsiplər, həmçinin milli zəminə, bəşəri dəyərlərə əsaslanan dünyəvi təhsil sisteminin yaradılması, təhsil alanın şəxsiyyət kimi formalaşdırılması üçün onun təlim-tərbiyə prosesinin bərabərhüquqlu subyektinə çevrilməsi məsələləri təşkil edir. Bunlara nail olmaq üçün ilk növbədə təhsilin maddi-texniki bazası yüksəldilməli, müasir texnologiyaların, innovasiyaların, yeni pedaqoji yanaşmaların təhsil sisteminə gətirilməsi təmin olunmalıdır.

Hazırda təhsildə yeni yanaşmaların tətbiqi təlim-tərbiyə prosesinin keyfiyyətinin yüksəldilməsi vasitəsi hesab olunur. Təhsilin bütün strukturları, o cümlədən, ümumtəhsil sistemi də belə yanaşmalardan kənarda qala bilməz. Respublikamız müstəqillik əldə etdikdən sonra bazar iqtisadiyyatına keçid insanların həyata hazırlanmalarına xüsusi yanaşma tələb edir. Bu baxımdan məktəblərin üzərinə daha ciddi vəzifələr düşür, o cümlədən rəqa-bətəqabil şəxsiyyətin formalaşdırılması məsələsi məhz məktəbin funksiyasına daxil edilməklə, xüsusi aktuallıq qazanır. Hazırda əsas vəzifə yeni təfəkkürlü, müasir tələblərə cavab verən bilik, bacarıq və vərdişlərə malik şəxsiyyətin formalaşdırılmasıdır, çünki insanın formalaşdırılması cəmiyyətin başlıca məqsədi olmalıdır.

Beləliklə, indiki dövrün tələbləri ilə uzlaşmayan ənənəvi təhsil sisteminin hazırda yeni keyfiyyət dəyişiklikləri aparılma prosesi gedir. Yeni pedaqoji texnologiyalar proqramların məzmununun mənimsədilməsi üçün ən vacib təlim strategiyalarıdır.

«Texnologiya» yunan mənşəli söz olub, sənətə sistemli yanaşma deməkdir. Burada yanaşma dedikdə, problemlərə və onların həllinə yönəlmiş, müəyyən prinsiplər əsasında idarə olunan yollar və vasitələr başa düşülür. Beləliklə, bunu yeni problemin həllinə uyğun münasib biliklər sisteminin tətbiqi nəticəsində xüsusi metodlardan istifadə edərək, tapşırığı yerinə yetirmək tərzi kimi də dərk etmək olar.

Texnologiyaların köməyi ilə həll olunan başlıca problem təlim prosesinin idarə olunmasıdır. Belə ki, bu zaman əsas diqqət öyrənən və öyrədən arasındakı münasibətlərin necə qurulmasına yönəldilməlidir. Ümumiyyətlə, istənilən texnologiyanın əsasında həm də bu prosesə nəzarət durur. Pedaqoqların bir qisminin fikrincə, təlimdə texnologiya öyrədən və öyrənən münasibətlərinin layihələşdirilməsi və eyni zamanda, yeni yolların axtarışıdır.

Ə.Paşayev və F.Rüstəmov qeyd etmişlər ki, «Praktiki mənada pedaqoji texnologiya dedikdə, həm də qarşıya qoyulmuş məqsədə uyğun olaraq bilik, bacarıq, vərdiş və münasibətləri formalaşdırmaq və onlara nəzarəti həyata keçirmək üçün əməliyyatlar komplekti başa düşülür».

Tədris prosesində yüksək nəticələr qazanmaq üçün texnologiyanın müxtəlif növ və vasitələrindən istifadə etmək olar. Belə ki, təhsilin səmərəliliyi və tədris prosesində pedaqoji texnologiyaların istifadəsindən çox asılıdır.

Pedaqoji texnologiya təlim prosesinə yeni baxışdır. Bu baxışa görə təlim prosesi, ənənəvi təlimdən fərqli olaraq, maksimum idarə olunan prosesdir. Bir sözlə, texnologiyaların köməyi ilə həll olunan başlıca problem təlim prosesinin idarə olunmasıdır. Ona görə də texnologiyanın vəzifəsi təlimedici sistemin bütün elementlərini öyrənmək və təlim prosesini layihələşdirməkdir.

Müxtəlif texnologiyaların əlaqələndirilməsi tədrisin səmərəliliyinin daha da artmasına müsbət təsir göstərir.

Müasir dövr yeni texnologiyaların tətbiqini mühüm bir zərurət kimi irəli sürür, çünki müasir təlimin inkişafı mükəmməl tədris texnologiyalarının tətbiqi ilə bilavasitə bağlıdır.

İbtidai siniflərdən başlayaraq, riyaziyyat fənninə marağın yaradılmasının ən əsas cəhətlərindən biri şagirdlərin bilikləri müstəqil əldə etmələri-

dir. Şagirdləri müstəqil işlətmədən biliyi zorla verməklə, praktik yolla tədris uğurlarına nail olmaq, onu tamamlanmış proses kimi qəbul etmək, qiymətləndirmək olmaz.

Riyazi biliklərin şagirdlər üçün həyati əhəmiyyət kəsb edən bacarıqlara çevrilməsi, təlimin inkişafetdirici xarakter daşıması, onun şagirdin intellektinə, idraki fəaliyyətinin artmasına kömək göstərməsi və s. riyaziyyat tədrisinin zəruri cəhətləridir.

Fəal təlim şagirdlərin fəal idrak fəaliyyətinə əsaslanır. Bu baxımdan riyaziyyat dərslərində interaktiv təlim metodlarının tətbiqi daha geniş imkanlara malikdir İnteraktiv təlim metodlarının müxtəlif növləri vardır ki, (klaster, dəyirmi masa, əqli hücum, rollu oyunlar, BİBÖ və s.) onlardan ibtidai siniflərin riyaziyyat dərslərində ən çox istifadə olunur. Bu metodlar sinif kontingentinin bütün üzvlərinin fəallaşmasını təmin edə bilir. Bunun üçün dərsdə ciddi demokratik mühit yaratmaq lazımdır. İnteraktiv təlim metodları müəllim-şagird arasında yeni münasibət forması (subyekt-subyekt) yaradır. Biliklərin müstəqil qazanılması prosesində müəllim bələdçi rolunu öz öhdəsinə götürür. Şagirdlərə hörmətlə yanaşma təbii olaraq onda inam hissini gücləndirir. Bu prosesdə onlar maksimum fəallaşır, düşünməyə, axtarışlar aparmağa vadar edilir, bir növ tədqiqatçıya çevrilirlər. Təfəkkür fəaliyyəti üçün yaradılan əlverişli mühitdə şagirdlərin idrak fəaliyyəti daha da qüvvətlənir. İnteraktiv təlim metodlarının tətbiqi, həm də şagirdlərin yaradıcılıq potensiallarını üzə çıxarır.

Riyaziyyat dərslərində şagirdlər yaradıcı fəaliyyət təcrübəsi qazanmaq üçün əlverişli mühitə düşürlər: onlar problemi görməyi və onu dərk etməyi; tapşırığa uyğun faktlar toplamağı; müşahidələr aparıb, problemi araşdırmağı fərziyyələr irəli sürməyi; alternativ təfəkkürə əsasən onların içərisindən ən müvafiq olanını seçməyi; onu əsaslandırmaqla düzgün nəticə çıxarmağı, mənimsənilmiş bilikləri müstəqil tətbiq etməyi tədricən öyrənə bilirlər. Göstərilən məqsədlərə nail olmağın həlledici yolu şagirdlərin müntəzəm surətdə problemli məsələlərin həllinə qoşulmalarıdır. Şagirdlərin çətinliklərlə qarşılaşdırılmaları, ziddiyyətlərin həllinə cəlb olunmaları onların ümumi inkişafına səbəb olur. Söhbət təlimdə şüurlu olaraq yaradılan, şagirdlərin həll edə billəcəkləri, onların yaş və bilik səviyyələrinə uyğun, gücləri çatan çətinliklərdən gedir. İnteraktiv təlim

dialoqa, qarşılıqlı əməkdaşlıq prosesində yaradıcı fəaliyyətə əsaslanır.

Deməli, müəllim əsas diqqəti yalnız sürətli və dəqiq hesablama üzərində deyil, həm də şagirdlərə araşdırma, axtarıcılıq, əsaslandırma, mühakimə yürütmə, dərindən düşünmə və s. bacarıqların aşılanmasına da yönəltməlidir. Hər bir yeni mövzu öyrənildikcə şagirdlər əvvəl öyrəndikləri riyazi qanun və qanunauyğunluqlar arasındakı əlaqələri görməyi, onları müəyyənləşdirməyi bacarmalıdırlar. Şagirdlər bu prosesdə riyazi materiallar arasındakı fasiləsizliyi dərk etməlidirlər.

Problemləri uğurla həll etmək üçün müəllim şagirdlərdə aşağıdakı cəhətləri inkişaf etdirməyə xüsusi səy göstərməlidir:

a) problemlərin həlli yollarının axtarılmasına və tapılmasına maraq oyatmaq;

b) müxtəlif yolların sınaqdan keçirilməsi üçün onlarda özünəinam yaratmaq;

c) iş düzgün aparılmadığı halda dözüm nümayiş etdirmək;

ç) problemləri dərhal həll etməyin mümkün olmadığını anlatmaq və s.

Riyaziyyat dərsləri üçün metod və texnologiyalar qarşıya qoyulmuş məqsəd və şəraitdən asılı olaraq seçilməlidir. Münasib metod və texnologiyaların seçilməsi müəyyən şərtlərlə bağlıdır:

a) fənnin xarakterinə uyğun olması;

b) dərsin qarşısına qoyulan məqsəd və vəzifələrə uyğunluğu;

c) şagirdlərin inkişaf səviyyəsi, yaş xüsusiyyətləri və bilik səviyyəsi ilə uyğunluq;

ç) müəllimin fərdi xüsusiyyətləri və konkret şəraitlə bağlılıq.

Riyaziyyat təlimi prosesində ən səmərəli yol bu və ya digər situasiya üçün əlverişli texnologiyanı düzgün seçib, müəyyənləşdirmək və onu tətbiq etməkdir.

İnteraktiv təlim texnologiyaları tədris və dərketmə fəaliyyətinin təşkilinin, onun idarə edilməsinin elə üsullarının məcmusudur ki, onlar üçün aşağıdakılar səciyyəvidir:

1. müəllim tərəfindən şüurlu surətdə dərk olunmalı problemli vəziyyətin yaradılması;

2. problemli vəziyyətin həll olunması prosesində şagirdlərin fəal tədqiqatçılıq mövqeyinin stimullaşdırılması;

3. şagirdlər üçün yeni olan əhəmiyyətli biliklərin müstəqil əldə olunması, açıqlanması, mənimsənilməsi və praktik tətbiqi üçün şəraitin yaradılması.

Riyaziyyat dərslərində belə yanaşma şagird yaddaşının yeni biliklərlə zənginləşdirilməsinə deyil, düşünmə qabiliyyətinin və müstəqil olaraq bilik əldə etmək, onu mənimsəmək bacarığının inkişaf etdirilməsinə əsaslanır.

Mövcud proqramlar aşağıdakı prinsiplərə əsaslanır:

• tələbyönümlülük;

• nəticəyönümlülük;

• şagirdyönümlülük;

• bütün şagirdlərə öz idrak potensialından istifadə etmək, şəxsi qabiliyyətlərini inkişaf etdirmək üçün əlverişli şəraitin yaradılması.

İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, bu prinsplərin yerinə yetirilməsinə yeni pedaqoji texnologiyalardan sistemli istifadə etməklə nail olmaq mümkündür.

Belə nəticə alınır ki, riyaziyyat dərslərində müasir metod və texnologiyaların tətbiqi təlim-tərbiyə prosesini xeyli intensivləşdirir, pedaqoji əməkdaşlığı gücləndirir, onu hər bir şagird üçün daha əhəmiyyətli və maraqlı fəaliyyət sahəsinə çevirir, şagirdin biliyini, bacarığını və dünyagörüşünü maksimum dərəcədə inkişaf etdirməyə şərait yaradır.

Müasir pedaqoji texnologiyalar şagirdlərdə intellektual inkişafla yanaşı onların ümumi inkişafına da təsir göstərir. Təlim-tərbiyə sisteminə tətbiq edilən texnologiya, innovasiyaların da məhz son məqsədi şagirdlərin intellektual və imumi inkişafına təkan verməkdir.

Dərsin bütün mərhələlərində təlimin inkişafetdirici xarakterinin nəzərə alınması, interaktiv təlim metodlarından istifadə, şagird axtarıcılığının səmərəli təşkili sahəsində müntəzəm və sistemli işin aparılması riyaziyyat təlimi keyfiyyətinin yüksəldilməsinə əsaslı zəmin yaradır.

Deməli, «Pedaqoji prosesdə texnologiya nəzərdə tutulmuş məqsədlərin yerinə yetirilməsini təmin etməyə imkan verən, elmi əsaslar üzərində qurulmuş, məkan və zaman səviyyəsində proqramlaşdırılmış pedaqoji prosesin bütün komponentlərinin birgə fəaliyyət sistemidir».

ədəbiyyat

1. A.Mehrabov, Ə.Abbasov, Z.Zeynalov, R.Həsənov. Pedaqoji texnologiyalar. Bakı: «Mütərcim», 2006

2. A.O.Mehrabov. Azərbaycan təhsilinin müasir problemləri. Bakı: «Mütərcim», 2007

3. F.B.Sadıqov. Pedaqogika. Bakı: «Adiloğlu», 2009

4. Ə.Paşayev, F.Rüstəmov. Pedaqogika. Bakı: «Nurlan», 2007

**Использование современных технологий обучения на уроках математики в начальных классах.**

**резюме**

В статье отмечается необходимость внедрения новых технологий в процессе обучения на современном этапе. Излагаются значительные возможностьи интерактивных методов обучения на уроках математики. Раскрываются характерные особенности данных методов.

**Use of modern teaching tecnologies at mathematics lessons of primary classes**

**summary**

The article deals with the significance of new technologies at present time. It shows that interactive teaching methods have large possibilities. At the same time specific peculiarities of interactive methods are shown in this article.

# MƏSƏLƏ HƏLLİNİN İNTERAKTİV METODLAR VƏ İKT VASİTƏSİLƏ TƏLİMİNƏ DAİR

**Tofiq Məmmədov,**
**Naxçıvan Müəllimlər İnstitutunun dosenti**



**açar sözlər: interaktiv metod,** informasiya-kommunikasiya texnologiyaları, kompyuter, məntiqi təfəkkür, alqoritmik təfəkkür, variyasiyalı təffəkür, cütlərlə iş, qruplarla iş

**ключевые слова:** интерактивный метод, информационно-коммуникационные технологии, компьютер, логичекое мышление, алгоритмическое мышление, вариационное мышление, фронтальная работа, работа в группах

**key words:** interactive method, information-communication technology, computers, locigal thinking, algorithmic thinking, variability thinking, front work, group work

İbtidai təhsildə riyaziyyat təliminin müvəffəqiyyəti şagirdlərin məsələ həlletmə bacarığı ilə müəyyən edilir. Məlumdur ki, ibtidai siniflərin riyaziyyat

proqramına uyğun olaraq, natural ədədlər hesabı və sıfır öyrədilərkən məqsədyönlü məsələlər sisteminə baxılır. Bu məsələlərin həlli kursun əsas anlayışlarının formalaşması ilə sıx əlaqələndirilir. Deməli, məsələlər nəzəri materialın praktik əhəmiyyətini açmaqda mühüm rol oynayır. Məsələlərdən istifadə şagirdlərdə dünyagörüşü formalaşdırılmasını təmin edir, «ədəd», «hesab məsələləri» və s. kimi mücərrəd anlayışların real həyatdan, təcrübədən götürüldüyünə onları inandırır. Şagirdlər məsələ həlli prosesində hadisələr arasındakı zəruri münasibətlərlə tanış olurlar, təlimlə həyat arasında əlaqə bərpa olunur.

Məsələ həlli şagirdlərin məntiqi təfəkkürünün inkişafına müsbət təsir göstərir, onlarda təhlil etmək, müqayisə aparmaq, ümumiləşdirmə və mücərrədləşdirmə qabiliyyətlərinin, bir sıra xüsusi bacarıqların formalaşmasına səbəb olur. Bu bacarıqlara aşağıdakıları aid etmək olar:

- məsələni oxumaq və məzmununu dərk etmək;
- məsələni şərti, axtarılana, məlum və məchula ayırmaq;
- verilənlər və axtarılanlar arasında əlaqə yaratmaq;
- məsələni həll etmək və cavabını yoxlamaq.

Bütün bu bacarıqlar müntəzəm, məqsədyönlü iş prosesində formalaşır və aşağıdakı mərhələlərdə həyata keçirilir:

1. hazırlıq işi;
2. məsələ mətninin izahı;
3. məsələnin həlli yolunun axtarılması və həll planının tərtibi;
4. həllin və cavabın yazılması;
5. həlldən sonra məsələ üzərində iş.

Məsələ həll etmək bacarığını formalaşdırmaq üçün aşağıdakı metodik priyomlardan istifadə edilir:

1) məsələ üzrə frontal söhbət;
2) məsələnin əyani interpretasiyası;
3) məsələlərin müqayisəsi;
4) artıq şərtli mətnli məsələlərə baxılması;
5) şagirdlərə məsələ tərtib etdirmək;
6) məsələnin müxtəlif metodlar və priyomlarla həlli;
7) məsələ həllinin yoxlanması;
8) məsələ üzərində diferensial iş aparmaq və s.

İbtidai siniflərdə məsələ həlli üzrə iş ayrı-ayrı məsələlər üzərində deyil, həlli verilənlərlə axtarılanlar arasındakı əlaqəyə əsaslanan məsələlər qrupu üzərində aparılır. Belə məsələlər konkret məzmunu və ədədi verilənləri ilə fərqlənir. Əsas məqsəd ondan ibarətdir ki, şagirdlər kəmiyyətlər arasındakı müxtəlif asılılıqları şüurlu sürətdə dərk etsinlər. Mürəkkəb (tip) məsələlərin hesab üsulu ilə həlli şagirdlərin riyazi təfəkkürünün formalaşması və inkişafında mühüm rol oynayır. Bir çox məsələlər həlli metodlarına görə bir-birinə

oxşardır. Onları elə ardıcıllıqla həll etmək lazımdır ki, sonrakı həll metoduna əsaslansın.

İbtidai siniflər üzrə məsələlər mahiyyət etibarilə aşağıdakı məzmun xətlərini əhatə edir:

- ədədlər və əməllər;
- cəbr və funksiyalar;
- həndəsə;
- ölçmələr;
- statistika və ehtimal

Bu məzmun xətləri mahiyyət etibarilə aşağıdakı cəhətləri əhatə edir:

1.iki ədədin cəminə və fərqinə görə məchulların tapılması;
2.iki ədədin cəminə və nisbətinə görə məchulların tapılması;
3.iki ədədin fərqinə görə məchulların tapılması;
4. iki ədədin fərqinə və nisbətinə görə məchulların tapılması;
5. sadə və mürəkkəb üçlük qaydası;
6. mütənasib bölməyə aid məsələ;
7. hissəsinə görə ədədin tapılmasına aid məsələ;
8. fərziyyə yolu ilə məchulları bərabərləşdirməklə həll olunan məsələlər;
9. metalların və ya mayelərin qarışığına aid məsələ;
10. ⍰dədi ortanın tapılmasına aid məsələ;
11. hərəkət problemlərinə aid məsələ;
12. yaş problemlərinə aid məsələ;
13. iş və hovuz problemlərinə aid məsələ;
14. statistika və ehtimala aid məsələ;
15. həndəsə məsələləri və s.

Göstərilən tip məsələlər xarakterinə, fərziyyə, hərəkət, statistika və ehtimala aid olduqlarına görə fərqləndirilir. Bu tip məsələlər şagirdlər tərəfindən bir qədər çətin dərk edilir. Bu çətinliyin aradan qaldırılması üçün interaktiv metod və İKT vasitələrindən istifadə edilməsi tövsiyə olunur.

YUNESKO XXI əsri «intellekt əsri», BMT isə «kompyuter əsri» adlandırmışdır. Nəzərdə tutulan mövzunu interaktiv metod və İKT vasitəsilə izah etmək üçün kompyuterin «Fiqurlar» proqramından və klaviaturanın müxtəlif funksiyalarından istifadə olunması məqsədəuyğundur. Bu proqramda düzbucaqlı, kvadrat, müxtəlif formalı xətlər , oxlar və sairdən hazır şəkildə məsələnin məzmununa uyğun istifadə etmək olur.

Şagirdlər üçün çətinlik törədən məsələlərdən bəzi nümunələr:

**fərziyyə məsələsi**

Bu tip məsələlərin həllində verilənlərin bərabərləşdirilməsindən istifadə olunur. Bel⍰ məsələlərin həllində hər hansı bir fərziyyənin irəli sürüldüyü mühakimə prosesi, bu fərziyyədən çıxan nəticələrin nəzərdən keçirilməsi və

nəticə etibarilə məsələ həlli metodunun müəyyən edilməsi mərhələləri mövcuddur.

**Məsələ.** Məftilin uzunluğu 24m-dir. Bu məftili biri o birindən 6m uzun olan iki hissəyə böldülər. Hər hissənin uzunluğu neçə metrdir?

Şagirdləri məsələnin şərti ilə tanış etdikdən sonra onun qısa yazılışı verilir və sxem elektron lövhədə (interaktiv lövhə) aşağıdakı formada çəkilir:




**Həlli. I metod:** 24m-dən 6m çıxsaq, alınan fərq kiçik hissənin uzunluğunun iki mislinə bərabər olacaqdır:

24m-6m=18m

18m iki hissəyə bölsək, kiçik hissənin uzunluğu alınar.

18m:2=9m

Bu, ikinci hissənin uzunluğudur, lakin şərtə görə, birinci hissə ikinci hissədən 6m uzundur. Ona görə də birinci hissənin uzunluğu 9m+6m=15m olacaqdır. Deməli, , I hissənin uzunluğu isə 15m, II hissənin uzunluğu isə 9m- dir.

**Yoxlama:** 9m+15m=24m.

Şağirdlərin belə həll metodunu möhkəm mənimsəmələri üçün bu tip məsələni müstəqil qurmağı onlara təklif etmək olar. Onlar çətinlik çəkərlərsə, müəllim məsələnin bəzi ədədlərini özü deyə bilər.

Nəzərdən keçirdiyimiz tipdə olan məsələləri müxtəlif yollarla həll etmək mümkündür, lakin iki ədədin cəminə və fərqinə görə məchulların tapılmasına dair məsələlərin bütün həlli metodlarından ən əlverişliləri aşağıdakılardır.

**II metod:** 1.Fərz edək ki, məftilin kiçik hissəsi böyük hissəsinə bərabərdir, onda bu iki hissənin uzunluğu nə qədər olar?

24m+6m=30m

2.Böyük hissənin uzunluğu nə qədərdir?

30m:2=15m

3.Kiçik hissənin uzunluğu nə qədərdir?

15m-9m=6m

**III metod.**1.Məftili yarı bölsə idilər, hər hissənin uzunluğu nə qədər olardı?

24m:2=12m

2.Artıq məftilin yarısı neçə metrdir?

6m:2=3m

3.Böyük hissənin uzunluğu neçə metrdir?

12m+3m=15m

4. Kiçik hissənin uzunluğu nə qədərdir?

12m-3m=9m

**IVmetod.** Yanlış fərziyyə qaydasının köməyi ilə məsələ həlli.

Məftilin kiçik hissəsinə ixtiyari qiymət verək. Tutaq ki, kiçik hissə 5m-dir. Onda böyük hissənin uzunluğu 11m, iki hissənin birlikdə uzunluğu isə məsələdə verilən 24m əvəzinə,16m olur. Göründüyü kimi, biz kiçik hissənin uzunluğunu düzgün götürməmişik. Səhvi düzəltmək lazımdır. Ona görə də, belə mühakimə yürüdürük: 5m və 11m uzunluğunda olan iki məftilin cəminin məsələnin şərtində verilən qiymətə bərabər olmasından ötrü bu iki hissənin hər birinə bərabər uzunluqda məftil əlavə etsək, onların fərqi dəyişməz. Ona görə 24m-dən 16m-i çıxırıq. Alınan fərqi (8m) yarıya bölərək, həllin başlanğıcında fərz etdiyimiz hissələrdən hər birinə 4m əlavə edirik. Beləliklə, kiçik hissənin uzunluğu 5m+4m=9m, böyük hissənin uzunluğu 11m+4m=15m olar.

**V metod.** Məsələnin cəbri üsulla həlli. Fərz edək ki, məftilin kiçik hissəsinin uzünluğu x m-dir. Onda məsələnin şərtinə görə, böyük hissənin uzunluğu x+6m olar. Bu iki hissənin uzunluqları cəmi, məsələnin şərtinə görə, 24m olduğundan x+x+6m=24m olar. Yəni 2x+6m=24m tənliyini alırıq. Məchul toplanan cəm ilə o biri toplananın fərqinə bərabərdir:

$$2x=24-6$$

$$2x=18$$

Məchul vuran hasilin vurulana bölünməsindən alınan qismətə bərabərdir:

$$x=18:2=9$$

Deməli, məftilin kiçik hissəsinin uzunluğu 9m, böyük hissəsinin uzunluğu 15m-dir. Nəzərə almaq lazımdır ki, bu tip məsələlər eyni məsələnin müxtəlif yollarla həllinin mümkünlüyünü şagirdlərə başa salmaqda müəllim üçün gözəl vasitədir. Bu, şagirdlərin məsələ həllinə marağını artırır. Onlara məsələnin sinifdə bir, evdə digər metodla həllini təklif etmək olar. Şagirdlər başqa metodla həll edə bilmədikdə müəllim həmin metodu başa salır və onun üçüncü metodla həlli haqqında da məlumat verir.

Bu qayda ilə şagirdləri eyni məsələnin müxtəlif metodlarla həlli ilə tanış etmək olar. Eyni məsələnin müxtəlif metodlarla həlli şagirdlərdə məsələ həllinə marağın yaranmasına səbəb olur.

### ehtimala aid məsələ

Ehtimala aid məsələ həllinə başlamazdan əvvəl şagirdlərə ehtimal haqqında məlumat vermək, təsadüf etdikləri hadisələrlə bağlı həyati misalları xatırlatmaq lazımdır. Şagirdlər təsadüfi hadisələrin baş verməsinin mümkünlüyünü və onun vahiddən kiçik ədədlə (düzgün kəsrlə) ifadə olunduğunu dərk etməlidirlər Ən böyük nəticə (ehtimal) 1-dir və hadisənin «mütləq» baş verəcəyini ifadə edir.

**Məsələ.** Sağdan iki oxun arasında qalan dairə hissəsinin ehtimalını müəyyən et. (IV sinif, səhifə 131, №2). Ehtimalı sözlə və ya kəsrlə yaz.



1) 2) 3) 4)

8-dən 2-dir. 2) Tam dairə ştrixləndikdə onun ehtimalı 8-dən 8-dir. 3) 8-dən 5-dir. 4) 8-dən 0-dır.

**hərəkətə aid məsələ**

Hərəkətə aid məsələlər, əsasən, üç növ olur:

1. qarşı-qarşıya hərəkətə aid məsələlər;
2. eyni istiqamətdə hərəkətə aid məsələlər;
3. əks istiqamətdə hərəkətə aid məsələlər.

Hərəkətə aid tipik bir məsələnin həllini elektron lövhədə göstərirəm.

**Məsələ.** İki şəhər arasındakı məsafə çay yolu ilə 160 km-dir. Bir gəmi bu məsafəni çayın axarı ilə 5 saata, çayın axarına qarşı isə 8 saata gedir. Çayın axma sürətini və gəminin sürətini tapın.

Həlli:

1.Gəminin çayın axını ilə sürəti nə qədərdir?

160 km:5saat = 32 km/saat

2.Gəmi çayın axınına qarşı sürəti nə qədərdir?

160 km:8saat = 20 km/saat

3.Bu sürətlərin fərqi nə qədərdir?

32 km/saat–20 km/ saat=12 km/saat

4.Çayın axma sürəti nə qədərdir?

12 km/saat:2 = 6 km/saat

5.Gəminin sürəti nə qədərdir?

32 km/saat–6 km/saat = 26 km/saat (və ya 20 km/saat+6 km/saat =26 km/saat)

Bu məsələnin həllində 4-cü sual çətindir. Şagirdlərə izah edilməlidir ki, 12 km/saata bərabər olan sürətlər fərqi çayın axınının ikiqat sürətidir, çünki gəminin çayın axını ilə hərəkətində axının sürəti gəminin sürətinə əlavə olunur, gəminin çay axınına qarşı hərəkətində isə axının sürəti gəminin sürətindən çıxılır. Gəminin hərəkət qrafiki sxemdəki kimidir.




Beləliklə, gəmi çayın axınına qarşı hərəkət edərkən su onu axının sürəti qədər geri apardığından axının sürəti gəminin sürətinə əlavə edilmir, azalır.

İKT-dən istifadə etməklə şagirdlərdə dərsə maraq yaratmaq mümkündür. İKT vasitələrinə yalnız təlim vasitəsi kimi deyil, biliyin mənimsənilməsi

yolunda istiqamət verən, bacarıq və vərdişlərin formalaşdırılması vasitəsi kimi baxmaq daha düzgün olar. Elektron resurslarının tədris prosesində tətbiqi həm təlimi əyaniləşdirir, həm də onlardan şagird nailiyyətlərinin qiymətləndirilməsində istifadə edilir. Eyni zamanda elektron resursların interaktivliyi şagirdlərin sərbəst işləmələrini təmin etməklə yanaşı, zəif oxuyan şagirdlərin inkişafında mümkün olan yüksək nəticənin əldə olunmasına kömək edir. Şagirdlər İKT-dən istifadə etməklə XXI əsrin kompyuter texnologiyalarına yiyələnir, informasiya mübadiləsinə cəlb olunaraq əməkdaşlıq etmək, yoldaşlarının fikrinə hörmətlə yanaşmaq, ən başlıcası, insan üçün prioritet olan səbirlilik, tolerantlıq kimi keyfiyyətlərin formalaşmasına zəmin yaradır. Tədrisyönümlü internet resursları şagirdlərdə müxtəlif fənlərin daha ətraflı öyrənilməsində, informasiya axtarışında lazımi komək göstərir. Şagirdlər «Online» testləri vasitəsilə öz biliklərinin səviyyəsini müəyyən edə bilərlər. Elektron resurslarından istifadə etməklə şagirdlər məsələ həllində bir neçə məzmun standartlarının mənimsənilməsinə daha tez nail olacaq, qarşıya qoyulan problemlərin həllinə daha tez yaxınlaşacaq, İKT resurslarından istifadə bacarıqlarını inkişaf etdirəcəkdir. Ənənəvi yaddaş təlimindən fərqli olaraq, məsələlərnin İKT vasitəsilə məzmun xətlərinə və kurikulum standartlarına uyğun həlli şagirdlərin variasiyalı, məntiqi və alqoritmik təfəkkürünün inkişafına zəmin yaradır. İKT-dən dərsin bütün mərhələlərində istifadə olunması dərsin daha maraqlı və canlı keçməsini təmin edir. Cütlər və qruplarla iş zamanı şagirdlərin kompyuterin əsas avadanlıqları ilə işləmək bacarıq və vərdişlərinin möhkəmləndirilməsinə əlverişli şərait yaranır.

**ədəbiyyat**


1.Məmmədov T.Ə. İbtidai təhsildə riyaziyyatın tədrisi metodikası, Naxçıvan: «Əcəmi», 2011

2. Məmmədov T.Ə. Şagirdlərin riyazi təfəkkürünün inkişafında İKT-nin rolu. «Azərbaycan məktəbi», 2001, № 6

3.Величко Л.В. Развитие и изучение мыслительной деятельности учащихся на уроках математики. Москва, «Начальная школа», 2007,№8

4.Гершунский В.С. Компьютер в сфере образования. Москва, 1987


**Решение задач с применением интерактивного метода и информационно-коммуникационных технологий**


**резюме**

Статья посвяшена решению задач с применением интерактивного метода и информационно- коммуникационных технологий.


**Of interactive methods and information-communication technologies in sum solution**


**summary**

About usage of interactive methods and information communication technologies in sum solution

# RESPUBLİKAMIZDA BEŞYAŞLILARIN MƏKTƏB TƏLİMİNƏ HAZIRLANMALARI ÜZRƏ İŞİN VƏZİYYƏTİ VƏ YAXŞILAŞDIRILMASI İSTİQAMƏTLƏRİ

**Laləzar Cəfərova,**

pedaqoji elmlər üzrə fəlsəfə doktoru, dosent

Uşaqlar bizim gələcəyimizdir.Gələcəyimizi nə cür tərbiyə edəcəyiksə, böyüdəcəyiksə, ölkəmizin, millətimizin, dövlətimizin gələcəyi bundan asılıdır.

**Heydər Əliyev**



**açar sözlər:** məktəbəqədər təhsil, məktəb təliminə hazırlıq, uşaq bağçası, qısamüddətli qruplar, pedaqoji proses, tərbiyəçi

**ключевые слова:** дошкольное образование, подготовка к школе, детский сад, кратковременные группы , педагогический процесс, воспитатель

**key words:** preschool education, preparation for school, kindergarten, shortterm groups, teaching process, tea

Məktəbəqədər təhsil müəssisələri təhsil sisteminin ilk pilləsi olmaqla uşaqların tərbiyəsi və təlimi vəzifəsini yerinə yetirir. Bu müəssisələrin son məqsədi uşaqları məktəbə hazırlamaqdır. Təhsil Qanununda göstərilir ki, beşyaşlılar üçün məktəbəhazırlıq zəruridir. Məktəbə hazırlığın əsas məqsədi beşyaşlı uşaqların tələb və imkanlarını nəzərə almaqla, onların məktəbə hazırlıq mərhələsində tərbiyəsi və təhsili inkişafı prosesini təşkil etməkdir.

Mövzu üzrə aşağıdakı istiqamətlərdə araşdırmalar aparılmışdır:

– beşyaşlıların məktəbəqədər təhsil müəssisələrində məktəb təliminə hazırlanmaları üzrə işin vəziyyəti və yaxşılaşdırılması istiqamətləri;

–beşyaşlıların məktəblərdə məktəb təliminə hazırlanmaları üzrə işin vəziyyəti və yaxşılaşdırılması istiqamətləri;

–beşyaşlıların təhsilə hazırlanmalarının təmin olunması üçün məktəbəqədər müəssisələrin, məktəblərin məşğələ ləvazimatları, əyani vəsait və didaktik materiallarla təchiz olunma vəziyyətinin öyrənilməsi;

–beşyaşlıların qısamüddətli təlim qruplarında məktəbə hazırlanmaları ilə əlaqədar məktəbəqədər təhsil müəssisələri ilə məktəb arasında varisliyin gözlənilmə səviyyəsinin öyrənilməsi.

Axtarış prosesində aşağıdakı tədqiqat metodlarından istifadə edilmişdir: müşahidələrin aparılması; mövcud normativ-hüquqi sənədlərin öyrənilməsi; nəticələrin təhlili; xarici təcrübənin öyrənilməsi; tərbiyəçi, müəllim və valideynlərlə müsahibə; anket sorğusu, riyazi-statistik təhlil.

Problemin real mənzərəsini təsəvvür etmək üçün respublikada məktəbəqədər təhsil müəssisələrinin şəbəkəsi və cəlb olunan uşaqların sayına nəzər salaq. Hazırda Azərbaycan Respublikasında **113 517** nəfər uşağı əhatə edən **1666** məktəbəqədər təhsil müəssisəsi fəaliyyət göstərir. Respublikamızda şəhərlər üzrə **941** müəssisədə **82 576** uşaq, kənd rayonları üzrə **725** məktəbəqədər təhsil müəssisəsində **30 941** uşaq əhatə olunub.

Respublika üzrə **121196** nəfər beşyaşlıdan məktəbəhazırlığa **29708** nəfər (24,5%) cəlb edilib. Qalan **91488 (75,5%)** nəfərin əhatə olunması üçün **4574** qrupun açılmasına ehtiyac var. Onların məktəbə hazırlanmaları valideynlərin ixtiyarına buraxılır. Doğrudur, valideynlərin 15-20 faizi övladlarının məktəbə hazırlanmasına erkən başlayır, az-çox qənaətbəxş iş görür. Təcrübə göstərir ki, məktəbə gələn altıyaşlıların təxminən 20 faizi təlim əməyinə tam hazır olur və I sinifdə proqram materiallarının öhdəsindən müvəffəqiyyətlə gələ bilir. Müşahidələr göstərir ki, bu zaman uşaqların həmin yaş dövrünün sonu üçün nəzərdə tutulan təlim nəticələri və I sinifdə işin məzmunu arasında əlaqə pozulur. Onlara vaxtından əvvəl kalliqrafik qaydalar öyrədilir. Verilən biliklərin həcmi çox olur ki, bu da uşaqların yüklənmələri ilə nəticələnir. Bəzi təhsil mərkəzlərinin (məsələn, Kaspi Təhsil Mərkəzi) işlərini "Məktəbəqədər müəssisələrdə tərbiyə və təlim proqramı" əsasında qurmaları məktəbəqədər təhsil pilləsi ilə ibtidai məktəb arasında varisliyi təmin edir.

Mövzu ilə əlaqədar **1459** (836 tərbiyəçi-müəllim, 623 valideyn, o cümlədən, 216 tək valideyn və ya valideynsiz uşaqların himayəçiləri ilə) nəfərlə sorğu keçirilmişdir. Məlum olmuşdur ki, **407** valideyndən **118** nəfəri uşaqlarının qısamüddətli təlim qruplarında məktəbə hazırlığa cəlb olunmalarına üstünlük verir. **505** valideyn isə uşaqlarının məktəbəqədər müəssisələrə getmələrini daha məqsədəuyğun hesab edir. Sorğu aparılan **216** tək valideyn uşaqlarının məktəbəqədər müəssisələrdə təlim almalarını məqsədəuyğun hesab etmişdir. Bunu da işləmələri, iş günlərində uşaqların nəzarətsiz qalmamaları ilə əlaqələndirmişlər.

Təcrübə göstərir ki, I sinfə gələnlərin səviyyələrinin müxtəlifliyi müəllimin işini xeyli çətinləşdirir, ümumi işi ləngidir. Hazırlıqsız uşaqlarla iş çox vaxt aparır, uşaqlar dərsdə baxımsız qalan uşaqlar üçün təlimmaraqsız olur.

Məktəbəhazırlıq mərhələsi ilə əhatə olunmayan uşaqlar məktəb təliminə başlayarkən daha çox problemlərlə üzləşirlər. Bu problemlər onların birgə qrup fəaliyyətində lazımi təlim bacarıqlarının olmamasında, həmyaşıdları və müəllimi ilə ünsiyyətdə özünü göstərir.

Məktəb təliminə hazırlıqsız uşaq I sinifdə həmyaşıdlarından geri qalır. Bu, onun özünü aşağı qiymətləndirməsinə, dərslərində davamlı müvəffəqiyyətsizliklərə uğramasına və məktəbə uyğunlaşmamasına səbəb olur.

Məktəbə tam hazır gələn uşaqlar yeni şəraitə daha rahat və qısa müddət ərzində alışır, proqram materiallarını çətinlik çəkmədən qavrayır, müəllimin mövqeyini düzgün qəbul edir, iradəli, məsuliyyətli böyüyürlər. Ona görə də müasir şəraitdə beşyaşlıların məktəbə hazırlanmaları ən vacib problemlərdən biridir. Bunları nəzərə alaraq həm valideyn, həm tərbiyəçi-pedaqoqlar uşaqların məktəbə daha yaxşı hazırlanmaları və uyğunlaşmaları üçün onlarda idrak proseslərinin, fiziki, sosial, şəxsi, emosional-iradi, yaradıcı bacarıq və vərdişlərin inkişafına, əqli və nitq inkişafına diqqət verməlidirlər.

Uşaqların məktəb təliminə hazırlanmalarında məktəblə bağça arasında varisliyin gözlənilməsinin mühüm əhəmiyyəti var.

"Məktəbə hazırlığın təşkili Qaydaları"nın təsdiqi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il, yanvarın 8-i tarixli, 4 nömrəli qərarı qəbul edilmişdir. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il, iyulun 16-sı tarixli, 137 nömrəli qərarı ilə "Məktəbəqədər təhsilin dövlət standartı və proqramı" təsdiq edilmişdir ki, bu da məktəbəqədər təhsil sahəsində işlərin dünya standartlarına uyğun, yeni müstəvidə qurulmasına imkan vermişdir.

Aparılan tədqiqatlardan aşağıdakı ***nəticələr*** əldə edilmişdir:

**1.** Tədqiqat zamanı müəyyən olmuşdur ki, uşaqların fiziki və psixi, sosial, kommunikativ və intellektual cəhətdən məktəbə hazırlığı təlimin keyfiyyətli təşkili üçün mühüm şərtdir. Bunun üçün də məktəbəqədər təhsil müəssisələrinə getməyən uşaqların qısamüddətli qruplarda məktəbə hazırlığa cəlb edilmələri vacibdir. Bu sahədə iş vahid məzmun əsasında həyata keçirilmədiyindən pərakəndəlik mövcuddur.

**2.** Problemlə əlaqədar respublikanın 21 şəhər və rayonunun 243 müəssisəsində vəziyyət öyrənilmişdir. Müəyyən olmuşdur ki, məktəbəqədər təhsil müəssisələrində, həmçinin məktəbəqədər təhsilə cəlb edilməyən uşaqların qısamüddətli qruplarda təlimi məktəbəqədər təhsilin sonu üçün müəyyənləşdirilmiş təlim nəticələri nəzərə alınmaqla aparılarsa, məktəblə məktəbəqədər müəssisələr arasında varislik gözlənilər.

**3.** Bir çox hallarda yazı, oxu, hesablama vərdişlərinin aşılanmasına, xarici dilin öyrədilməsinə həddən artıq vaxt sərf edildiyindən uşaqların həmin yaş dövrünün sonu üçün nəzərdə tutulan təlim nəticələri və I sinifdə işin məzmunu arasında olan əlaqə pozulur, uşaqlara vaxtından əvvəl kalliqrafik qaydalar öyrədilir. Verilən biliklərin çoxluğu onların yüklənmələrinə səbəb olur.

**4.** Valideynlərin **"məktəbə hazırlıq"** anlayışını yalnız yazı, oxu və hesablama vərdişlərinin aşılanması ilə məhdudlaşdırmaları, savad təlimi metodikasından xəbərsiz uşağın qiraət və yazı texnikasına yiyələnməsinə müdaxilə etmələri məktəbdə öz neqativ tərəflərini göstərir.

5. Məktəbə hazırlığın məktəbəqədər təhsil müssisələrində təşkil edilməsi həm metodiki təchizat, həm də kadr baxımından daha səmərəli nəticə verir.

**6.** Azkomplektli müəssisələrdə tərbiyənin təşkilində məktəbəhazırlıq qrupunun olmaması kimi boşluqlar uşaqların idraki, mənəvi və fiziki inkişafına, şübhəsiz ki, təsirsiz qalmır. Əksər hallarda məktəbə hazırlıq mərhələsində

uşaqların inkişafı ləngiyir. Bu da növbəti təhsil mərhələsində onların təlim nailiyyətlərinə mənfi təsir göstərir.

**7.** Məktəblərdə təşkil edilmiş məktəbəhazırlıq qruplarında metodik təhcizatın zəifliyi və pərakəndəlik işin səmərəliliyini azaldır.

Aşağıda tədqiqatdan irəli gələn təkliflər irəli sürülür:

- Beşyaşlıların məktəb təliminə hazırlıq səviyyələrinin yüksəldilməsi üçün məktəbəqədər müəssisələrdə məktəbəhazırlıq qruplarının sayının artırılması məqsədəuyğundur.
- Uşaq orqanizminin, psixikasının inkişaf xüsusiyyətlərinə istinadən məktəbəqədər yaşlı uşaqlar üçün məktəb təliminə adekvat hazırlıq sistemi qısamüddətli təlim qruplarının yaradılmasını zəruri edir.
- Məktəblərdə təşkil edilən qısamüddətli qruplarda uşaqların psixoloji, fiziki və kommunikativ inkişafına xüsusi diqqət yetirilməlidir.
- Beşyaşlıların məktəb təliminə hazırlığının təmin edilməsi üçün peşəkarlıq səviyyəsi yüksək olan tərbiyəçilərin seçilməsi mühümdür.
- Beşyaşlıların məktəb təliminə hazırlığı sahəsində aparılan işin səmərəliliyinin təmin edilməsi üçün müasir tələblərə uyğun metodik vəsaitlər, didaktik materialların hazırlanması məktəbəqədər müəssisələrin və məktəblərin müasir avadanlıqlarla (proyektor, kompyuter, video-kamera, disklər, kasetlər və s.) təchiz olunması məqsədəmüvafiqdir.
- Beşyaşlıların məktəb təliminə hazırlığı keyfiyyətinin yüksəldilməsi üçün uşaq bağçası ilə məktəb arasında varislik gözlənməlidir.

Beşyaşlıların məktəbə hazırlığı ilə əlaqədar valideynlərin maarifləndirilməsi problemin həlli baxımından əhəmiyyətli hesab edilir.

### ədəbiyyat


1.Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı, 2009-cu il, sentyabrın 5-i

2.Azərbaycan Respublikasında məktəbəqədər təhsilin yeniləşdirilməsi Proqramı (2007-2010 -cu illər). Bakı, 2007-ci il, aprelin 12-si

3. "Məktəbə hazırlığın təşkili Qaydaları". Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il, yanvarın 8-də verdiyi qərar

4."Məktəbəqədər təhsilin dövlət standartı və proqramı". Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il, iyul 16-da verdiyi 137 nömrəli qərarı. Bakı: "Kurikulum", 2010, № 4

**Направлении улучшения развития подготовки пятилетных к школе**
**резюме**

Дети не охваченных дошкольной образовании в школе сталкиваются с проблемами. Эти проблемы в общении со сверстниками и учителями, вместе с работой группы отражены в отсутствие необходимых навыков обучения.

Обновление образования требует от педагогов-воспитателей дошкольного образования знания тенденций инновационных изменений в системе современного образования.

**Work on the development and improvement of the situation of elderly people in five directions for school**
**summary**

Pre-school education for school children at the beginning of more problems to face that are not covered. These problems communicating with their peers and teachers, together with the work of the group is reflected in the lack of the necessary learning skills.

Upgrading education requires teachers-educators of preschool education trends knowledge of innovative changes in the system of modern education.

# MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN AİLƏLƏRİNİN ÖYRƏNİLMƏSİ METODLARI



**Təranə Sadıqova,**
ADPU-nun müəllimi,
pedaqogika üzrə fəlsəfə
doktoru,

**Sədaqət Rəhimova,**
Xətai rayonu, 240 nömrəli körpələr-evi uşaq bağçasının müdiri, pedaqogika üzrə fəlsəfə doktoru



**açar sözlər:** məktəbəqədər yaşlı uşaq, ailə, metod, uşaq bağçası, valideyn, tərbiyəçi, tərbiyə

**ключевые слова**: дошкольник, семья, метод, детский сад, родитель, воспитатель, воспитание

**key words:** pre-school adult garden of child, family, method, pre-school establishment child, parent, educator, upbringing

Məktəbəqədər yaşlı uşaqların təlim-tərbiyəsinin müvəffəqiyyəti tərbiyəçinin onlarla və valideynlərlə münasibətlərinin xarakterindən asılıdır.

Uşaq bağçasının ailə ilə işinin bütün formalarının məzmunu uşaqların hərtərəfli inkişafına yönəldilmiş qarşılıqlı fəal tərbiyəvi təsirlərin təşkilindən ibarətdir. Bu qarşılıqlı təsirlərin əsasında məktəbəqər tərbiyə müəssisəsinin

uşağın inkişafına daimi diqqəti, tərbiyəçilərin vaxtında və pedaqoji səhətdən əsaslandırılmış məsləhətləri, hər bir ailənin xüsusiyyətlərinin və imkanlarının öyrənilməsi, tərbiyə prosesində çətinlik yaranarsa, ailəyə praktik köməyin göstərilməsi durur.

Tərbiyəçi ailə ilə fərdi işi bütün tədris ili üçün planlaşdırmalı, uşaqların ailələrinə getməyi növbələşdirməli,valideynlərin bağçada məsləhət günlərini müəyyənləşdirməlidir. O, ailəyə getmənin əsas məqsədini dəqiq təsəvvür etməlidir. Burada müxtəlif situasiyalar ola bilər. Uşağın ailəsi ilə ilk görüş tanışlıq xarakteri daşıyır. Tərbiyəçi ailənin tərkibini, aparılacaq işin xarakterini müəyyənləşdirməyə çalışır. Bu məlumatlar ailə üzvlərindən hansının uşağa kömək edə biləcəyini aydınlaşdırmaq üçün lazımdır. Tərbiyəçi uşaqla birlikdə onun otağına, yaxud guşəsinə baxır, uşaq ona öz oyuncaqlarını, kitablarını göstərir, kitablardan hansını onun üçün oxuduqlarını bildirir, məzmununu nəql edir. Tərbiyəçi uşağın valideynləri ilə hansı oyunları oynamağı xoşladığını müəyyənləşdirir. Beləliklə, ailə ilə ilk tanışlıq uşağın maraq və meyillərini aşkara çıxarmağa xidmət edir.

Əgər evdə nənə və baba varsa, onlara münasibət aşkar edilməlidir. Əgər uşaq ailədə tək deyilsə, tərbiyəçi uşağın qardaş-bacısına münasibətinə diqqət yetirməlidir: hansı oyunları birlikdə oynamağı xoşlayırlar? Gəzintidə, teatrda, muzeydə və s. birlikdə olurlarmı?

Sonra valideynlərlə söhbəti uşaqların iştirakı olmadan davam etdirmək lazımdır. Söhbət zamanı tərbiyəçi aydınlaşdırmalıdır ki, ailədə böyüklərdən kim uşağa daha çox təsir göstərir, uşaq kimə daha çox qulaq asır? Bu zaman tərbiyəçinin ailənin mədəni səviyyəsini, ünsiyyət üslubunu müəyyən edə bilməsi vacibdir.

Ailəyə gedərkən tərbiyəçi tərbiyədə vahid tələblərin vacibliyi haqqında söhbət aparmalıdır. Bu zaman bağça ilə ailənin əməkdaşlıq yolları, valideynlərin bağçaya köməyi, hansı valideynlərin valideyn komitəsinə seçilməsinin məsləhət görülməsi haqqında danışmaq olar.Görüşün sonunda tərbiyəçi valideynləri iclasa dəvət edir.

Valideynlərlə görüşlər haqqında gündəlikdə qeydlər aparmaq məsləhətdir. Qrupdakı bütün uşaqların ailələrinə aid olan məlumatları yadda saxlamaq çətin olduğundan tərbiyəçi xüsusi jurnalda hər ailəyə 2-3 səhifə ayırmalıdır. Gündəliyin valideynlərin yanında doldurulması məsləhət deyil. Əgər valideyn görsə ki, tərbiyəçi söhbəti yazır, onda səmimi söhbət alınmayacaq.

Ailənin öyrənilməsində ən geniş yayılmış metod müşahidədir. Tərbiyəçi valideynləri ailədə, qrup iclaslarında müşahidə edir. O, əldə etdiyi faktları valideyn fəallarının məlumatları ilə də tamamlaya bilər, lakin müşahidə bu və ya digər məsələnin kifayət qədər dərindən öyrənilməsini təmin etmir. Çox zaman müşahidə söhbətlə müşayiət olunur. Bu metod tərbiyəçiyə müxtəlif nüansları dəqiqləşdirməkdə, uşağın davranışının səbəblərini aydınlaşdırmaqda kömək edir. Söhbət hadisənin dərinliyinə nüfuz etməyə, hərəkətin motivlərini üzə çıxarmağa imkan verir.

Qrup iclaslarında kollektiv söhbət pedaqoji vəzifələrin həllində tərbiyənin ayrı-ayrı məsələlər ( rəğbətləndirmə, cəzalandırma sistemi və s.) üzrə valideynlərin rəyini öyrənməyə kömək göstərir.

Uşaqların fəaliyyətləri üzərində müşahidə də ailəni öyrənmək üçün tərbiyəçiyə geniş material verir, məsələn, tərbiyəçi görür ki, uşaq kollektiv əməkdə iştirak etmir, həmyaşıdları ilə oynamaq istəmir, tapşırılan işi yerinə yetirməkdən imtina edir. Belə davranış, şübhəsiz, tərbiyəçini narahat edir.

Bir və ya bir neçə problem üzrə valideynlərin rəyini öyrənmək istədikdə müsahibə aparmaq məsləhət görülür.

Anket sorğusu, tədqiqat metodu kimi, tərbiyəçiyə kütləvi məlumat almağa imkan verir: məsələn, uşaqlara evdə hansı əmək tapşırıqlarının verildiyini, onların xarakterini (daimi, birdəfəlik) öyrənmək lazım gəldikdə və s. Tərbiyəçi anket sorğusunu təhlil edib, ümumiləşdirərək ailələrdə uşaqların tərbiyə məsələlərinin necə həll olunduğuna dair nəticə çıxara, məlumatları əvvəlki illərdəki məlumatlarla müqayisə edə, inkişaf tendensiyasını müəyyənləşdirə bilər, lakin anket sorğusu obyektiv nəticə verməyə də bilər, çünki valideynlər heç də həmişə anket sorğusuna düzgün cavab vermirlər. Bəzən bu cavabları dəqiqləşdirmək lazım gəlir. Onda tərbiyəçi valideynlərə doldurmaq üçün anket verir, ya da şifahi sorğu aparır. Uşaqların davranışı üzərində apardığı müşahidələrdən istifadə edərək qoyulmuş suallara özü cavab verir: məsələn, tərbiyəçi ailənin uşağın əxlaq tərbiyəsi ilə necə məşğul olduğunu öyrənmək istəyir. O, valideynlər və uşaqlarla eyni mövzu üzrə şifahi sorğu aparır və anketləri doldurur.

**valideynlər üçün anket**

1.Uşağınızda hansı müsbət keyfiyyətləri tərbiyə etmək istəyirsiniz?
2.Uşağınızı nəyə görə təriflәyir, nəyə görə cəzalandırırsınız?
3.Uşağınızın xasiyyətində hansı cəhətlər xoşunuza gəlmir?
4.Uşağınızı necə mükafatlandırırsınız?
5.Uşağınızı daha çox nə cəlb edir, onun ən sevimli məşğuliyyəti nədir?

**uşaqlar üçün anket**

1.Sənin xasiyyətində hansı cəhətlər valideynlərinin xoşuna gəlir?
2.Səni nəyə görə təriflәyir, nəyə görə danlayır, cəzalandırırlar?
3.Səni necə mükafatlandırırlar?
4.Ən sevimli məşğuliyyətin nədir?

Tərbiyəçi uşaqlardan və valideynlərdən bu suallara cavab alarkən hər uşağın xasiyyətnaməsini əldə edir və uşaqların ailədə tərbiyəsi haqqında müəyyən nəticəyə gəlir. Bəzən elə hallara rast gəlinir ki, valideyn öz uşağını tanımır, onun qabiliyyətlərini çox yüksək qiymətləndirir. Bu da tərbiyə prosesində müəyyən nöqsanlara gətirib çıxarır.

Tərbiyəçi suallara ətraflı cavab almaq üçün inşa metodundan da istifadə edə bilər («Məktəbə gedənədək mən öz uşağımı necə görmək istərdim?», «Övladımın xarakterində hansı nöqsanlarn aradan qaldrlmasını arzulayıram?»).

Tərbiyəçi müstəqil xasiyyətnamələrin ümumiləşdirilməsi metodundan ailə haqqında daha dolğun məlumat toplamaq zərurəti olduqda istifadə edə bilər. Bunun üçün tərbiyəçi valideynlərlə, qonşularla, qrup valideyn komitəsinin üzvləri ilə söhbət edir. Ümumiləşdirilmiş məlumatlar tərbiyəçiyə ailənin mədəni səviyyəsini müəyyən etməyə və uşağın tərbiyəsinə onun təsirini qiymətləndirməyə kömək edir, lakin bu metoddan çox ehtiyatla istifadə etmək lazımdır.

Uşağın şəxsiyyətində ayrı-ayrı keyfiyyətlərin inkişafı tendensiyasını üzə çıxarmaq üçün tərbiyəçi valideynlərə uşaq üzərində müşahidə gündəliyi aparmalarını məsləhət görə bilər. Valideynlər gündəliyi müəyyən müddət ərzində aparır, tərbiyəçi ilə görüş zamanı müşahidənin nəticələrini müzakirə edir, yaxın gələcək üçün konkret vəzifələri və perspektivləri qeyd edirlər.

Beləliklə, tərbiyəçinin ailə ilə işi ondan müəyyən bacarıq və vərdişlər tələb edir:

- valideynlərlə iş zamanı nəzəri biliklərdən istifadə etmək;
- hər bir uşağın inkişaf perspektivini görmək və onun həyata keçirilməsi yollarını ailəyə başa salmaq;
- ailə ilə qarşılıqlı xeyirxah münasibətlər qurmaq, yaş və fərdi xüsusiyyətləri nəzərə alaraq valideynlərlə işgüzar əlaqə saxlamağı bacarmaq;
- qarşıda qoyulan məqsədə çatmaq üçün valideynlərə düzgün yol və vasitələr seçməkdə kömək etmək;
- valideynlərlə işi planlaşdırmaq, qrup uşaqlarının tərbiyə səviyyəsinin öyrənilməsi əsasında pedaqoji maarifləndirmənin planını tərtib etmək;
- valideynlərdə öz köməkçilərini görmək, onları tərbiyəçiyə və bağçaya kömək üçün səfərbər etmək;
- valideynlərin ailədə nüfuzunu saxlamaq, bu nüfuzun uşaqlara müsbət təsirindən istifadə etmək;
- valideyn iclası hazırlamaq və keçirmək.

Valideynlərlə işdə o zaman müvəffəqiyyət qazanmaq olar ki, münasibətlər ailənin maraqlarına hörmət, valideynlərin nüfuzu üzərində qurulsun.

**ədəbiyyat**

1.Uşinski K.D. Seçilmiş pedaqoji əsərləri. Bakı: « Azərnəşr», 1953

2. Kərimov Y.Ş. Uşaq məktəbə gedir. Bakı: « Nağıl evi», 2002

3. İsmixanov M. Pedaqogika (Təlim və təhsil nəzəriyyəsi – didaktika). Bakı: BDU-nun nəşriyyatı, 1998

4. Sadıqova T.B., Əliyeva Z.M. Məktəbəqədər təhsil müəssisələrində təlim-tərbiyə işinin təşkili. Bakı: « Nərgiz», 2009

5. Выготский Л.С. Обучение и развитие в дошкольном возрасте. Умственное развитие детей в процессе обучения. Москва: «Учпедгиз», 1935

**Методы изучения семьи дошкольника**

**резюме**

Успешным воспитание детей в семье может быть лишь тогда, когда родители ясно понимают его цель и задачи, пути и средства их осуществления. Чтобы давать родителям советы и рекомендации, воспитатель должен хорошо знать возрастные и индивидуальные особенности каждого ребенка, условия жизни и воспитания в семьях. Поэтому воспитатель должен изучать семью дошкольника с методами наблюдение, беседа, анкетирование и.т.д.

**Pre-school adult methods of the learning of the family of the child summary**

Pre-school adult of the children of the educator success of the upbringing of training with them and are dependent on with parents from the character of attitudes. Educator plans the private work with family for year of all teaching, he defines alternate go to family of the children.

That time are possible to make a success with parents in the work that he should be built attitudes with parents to interest of the family in the on high respect, influence of the parent.

# MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN FİZİKİ TƏRBİYƏSİNDƏ HƏRƏKƏTLİ OYUNLARIN ROLU

**Sevil Cəmilzadə,**

ADPU-nun məktəbəqədər təhsilin pedaqogikası və metodikası kafedrasının dosenti



**açar sözlər:** məktəbəqədər yaş dövrü, fiziki tərbiyə, hərəkətli oyunlar, intensiv əzələ fəaliyyəti, plastiklik, oyun qaydaları

**ключевые слова:** дошкольный период, физическое воспитание, подвижные игры, интенсивное мышечное действие, правилы игры

**key words:** period of pre-school age, physical education, movement games, intense muscle activity, plasticity, rules of the game

Məktəbəqədər yaş dövründə uşaqların hərəki fəaliyyətinin inkişafında hərəkətli oyunlar mühüm rol oynayır. B.A.Arkin hərəkətli oyunları uşaqların tərbiyəsində əvəzedilməz vasitə, məktəbəqədər tərbiyənin əsası hesab edirdi. O, oyunların müxtəlif növləri arasında emosional zənginliyinə, uşaqların güclərini səfərbər etdiyinə görə hərəkətli oyunlara

üstünlük verir və yazırdı: "Hərəki fəaliyyətin xarakteri ondan ibarətdir ki, o, uşaqların əzələlərini inkişaf etdirir (qaçış,tullanma, və s.).

Hərəkətli oyunlar uşaq orqanizminin fiziki inkişafına və sağlamlığına hərtərəfli təsir göstərir. Oyun prosesində uşaqların hərəki fəallığı orqanizmin həyati funksiyalarının müəyyənləşməsinə gətirib çıxarır.

Oyun prosesində müxtəlif hərəkətlər bütün əzələ qruplarının cəlb olunmasını tələb edir, qan dövranını sürətləndirir, ağ ciyərlərin işini fəallaşdırır.

İntensiv əzələ fəaliyyəti skeletin, əzələlərin, oynaqların plastikliyinin inkişafına təsir göstərir, bədəni qüvvətləndirir.

Uşaq bağçasında hərəkətli oyunların keçirilməsi metodikasını, tərbiyəçinin bu oyunlarda rolunu işləyib hazırlamış pedaqoqlardan M.M.Kontoroviç, L.İ.Mixaylova, A.İ.Bantovanın əsərləri də bunu təsdiq edir. Oyun prosesində uşaq məqsədə çatmağa çalışır, hərəkətlərin yerinə yetirilməsinə əhəmiyyət verir və s.

Hərəkətli oyunlar öz başlanğıcını xalq pedaqogikasının dərinliyindən alır. Uşaq hələ erkən yaşlarda əlvan oyuncaqlarla əhatə olunur , onun ilk hərəkətləri bu oyuncaqlarla bağlıdır.Daha böyük yaşlarda uşağın həyatında müxtəlif hərəkətlərlə zəngin olan xalq oyunları, mahnılar, yanıtmaclar mühüm yer tutur. Görkəmli pedaqoqlar oyunların uşaqların həyatında böyük rol oynadığını, əhəmiyyətini xarakterizə edərək yazmışlar ki, oyunun məktəbəqədər yaşlı uşaqlar üçün müstəsna əhəmiyyəti vardır. A.S.Makarenko «Tərbiyə haqqında mühazirələr» kitabında oyunun uşağın həyatındakı mövqeyini belə qiymətləndirir: «Yaşlı adamın həyatında iş, fəaliyyət, qulluq nə kimi əhəmiyyətə malikdirsə, uşağın da həyatında oyun o qədər vacib və əhəmiyyətlidir. Uşaq oyunda necədirsə, böyüyəndən sonra işdə də bir çox cəhətdən elə olacaqdır. Ona görə də gələcək xadimin tərbiyəsi, hər şeydən əvvəl, oyun prosesində keçir». A.S.Makarenko oyunla işin arasında o qədər də fərq olmadığını qeyd edir: «Yaxşı oyun yaxşı işə bənzəyir, pis oyun isə pis işə bənzəyir. Bu bənzəyiş çox böyükdür: cəsarətlə demək olar ki, pis iş yaxşı işdən daha artıq pis oyuna oxşayır».

Görkəmli rus pedaqoqu K.D.Uşinski oyunları tərbiyədə güclü vasitə kimi qiymətləndirir, pedaqoqları oyunları toplamağa çağırır və onlardan geniş istifadə olunmasını tövsiyə edirdi. K.D.Uşinskiyə görə tərbiyədə kollektiv oyunlar mühüm yer tutur, uşaqlarda ictimai davranış vərdişlərinin yaranmasına səbəb olur.

Görkəmli pus pedaqoqu P.F.Lesqaft fiziki tərbiyənin orijinal sistemini, hərəkətli oyunların nəzəriyyəsi və metodikasını işləyib hazırlamışdır. O, oyunları uşağı həyata hazırlayan vasitə hesab edirdi. P.F.Lesqafta görə, hər bir oyunun müəyyən məqsədi olmalı, oyunun forması isə bu məqsədə cavab verməlidir. Elə etmək lazımdır ki, oyundakı hərəkətlər uşağın özünüidarəetmə qabiliyyətinə uyğun gəlsin və "cəlbedici razılıq hissi"yaratsın. Bütün bu hərəkətlər sistematik şəkildə öyrənilir.

P.F.Lesqaft hərəkətli oyunları uşaq şəxsiyyətinin hərtərəfli inkişafında, onlarda düzlük, təmkinlilik, yoldaşlıq və s. mənəvi keyfiyyətlərin tərbiyəsində əvəzsiz vasitə hesab edirdi: "Biz oyunlardan uşaqlara özünüidarəni öyrətmək məqsədilə istifadə etməliyik". O göstərir ki, hərəkətli oyunların müntəzəm keçirilməsi uşaqlarda öz hərəkətlərini idarə etmək qabiliyyətini inkişaf etdirir,onların bədənini möhkəmkəndirir, müxtəlif hərəkətlər etməyi öyrədir.

E.A.Arkin də hərəkətli oyunları məktəbəqədər yaşlı uşaqların inkişafında əvəzedilməz vasitə hesab edirdi. E.A.Arkinə görə, hərəkətli oyunlar uşaq həyatına sevinc gətirir , ən başlıcası, hərəki aparatın inkişafı və təkmilləşməsi sayəsində orqanizmin möhkəmlənməsinə səbəb olur. Oyunlar uşaqlara intizamlı, diqqətli olmağı, planlı hərəkət etməyi öyrədir.

E.A.Arkin hər bir tərbiyəçi oyun seçərkən onun uşağa hərtərəfli təsirini nəzərə almalı, sakit və ruh yüksəkliyi ilə izah etmək, rolları paylamaq qabiliyyətinə malik olmalı, lazım gələrsə, özü də oyunda iştirak etməlidir.

Hərəkətli oyunların məzmununda uşaqların dünyagörüşünü genişləndirən çoxlu dərketmə materialı var. İnsan həyatının bəzi epizodları, təbiət hadisələri, heyvanların təqlidi və s. hallar süjetli oyunların tematikasını təşkil edir. Bütün bunlar uşaqlar tərəfindən özünəməxsus obrazlı oyun formasında ("Səyyahlar","Təyyarəçilər"və s.) əks etdirilir. Bu oyunlar uşaqların ətraf mühit haqqında bədii təsəvvürlərini dəqiqləşdirir, lakin ətraf mühitin onlar tərəfindən düzgün dərk edilməsi üçün pedaqoq tərəfindən oyun qaydaları, onun şərtləri, obrazların xarakteri və s. emosional şəkildə izah edilməlidir.

Məktəbəqədər təhsil müəssisələrinin müxtəlif yaş qruplarında tərbiyəçinin rəhbərliyi altında hərəkətli oyunlar təşkil edilir. Kiçik qrup uşaqları üçün sujetsiz oyunlar seçilir. Onlar üçün oyunlarda hərəkətlər başlıca olaraq yeriş, qaçış və yürüşdən ibarətdir. Orta qrupun uşaqları üçün də sadə qaydalı oyunlar seçilməlidir. Böyük qruplar üçün oyunlarda hərəkətlər xeyli mürəkkəbləşir.

Uşaqların yaş xüsusiyyətlərini nəzərə alaraq, onlara eyni zamanda hərəkətin iki növünü (qaçmaq və tullanmaq) yerinə yetirməyi tapşırmaq olar. Yarış xarakterli oyunlar uşaqların çox xoşlarına gəlir, məsələn " Bayrağa kim tez çatar". Bu yaşda yarış, əsasən, fərdi xarakter daşıyır.

Böyük qrupun uşaqları üçün oyunlar daha mürəkkəb süjet əsasında qurulur və ona, demək olar ki, bütün əsas hərəkətlər daxil edilir. Müxtəlif hərəkətli çoxlu süjetsiz oyunlar ("Qaçdı-tutdu"," Bayrağı dəyişdir"və s.) keçirilir.Uşaqlarda öz hərəkətlərinə inam, müxtəlif şəraitdə hərəkətlərdən istifadə etmək bacarığı (gəzinti zamanı maneənin üstündən tullanmaq, ya aşıb keçmək, yerişi və qaçışı sürətləndirmək, yaxud yavaşıtmaq, hər hansı bir əşyanı uzağa tullamaq) tərbiyə edilir.

Bütün qruplar üçün oyun seçərkən uşağın yalnız yaşını deyil, fiziki inkişafını, fərdi xüsusiyyətlərini, səhhətini də nəzərə almaq lazımdır. Mütəhərrik oyunlar bütün qruplarda gəzinti zamanı və məşğələnin sonunda aparılır. Hər qrupda həcmcə kiçik, məzmun və xarakterinə görə müxtəlif

oyun repertuarı olmalıdır. Bu müxtəliflik uşaqlar üçün maraqlı olmaqla onların hərtərəfli inkişafına kömək edir.

Oyun qaydalarının da böyük tərbiyəvi əhəmiyyəti var. Qayda bütün oyun prosesinin gedişini müəyyən edir, uşaqların hərəki fəaliyyətini nizama salır, onlarda mənəvi-iradi keyfiyyətlər tərbiyə edir. Qaydalar oyunda müəyyən şərtlər yaradır ki, uşaqlar bu çərçivədən kənara çıxa bilməzlər, məsələn, "Hiyləgər tülkü"oyununda uşaqlar ancaq tülkünün "Mən buradayam" sözündən sonra dairədən çıxıb qaça bilərlər. Bu qaydalar uşaqlarda diqqətliliyi, təmkinliliyi, özünüidarə bacarığını, siqnala cavab vermək reaksiyasını, sürətini, fəzada yerdəyişmə bacarığını inkişaf etdirir.

Oyun qaydalarına könüllü riayət, hamının bir qaydaya tabe edilməsi şəxsiyyətin və sosial intizamın ilk rüşeymlərinin tərbiyə edilməsi kimi böyük əhəmiyyətə malikdir. Tərbiyəçi yuxarı yaşlı uşaqlara oyunun sərbəst aparılması, rolların bölüşdürülməsi, qaydalara əməl olunması məsələlərini həvalə edir, lakin uşaqlar bu məsələləri düzgün həll edə bilmədikdə, pedaqoq işə qarışmalı olur.

Tərbiyəçi tərəfindən oyun qaydalarının düzgün yerinə yetirilməsinin tələb edilməsi uşaqlarda eqoizm hissini aradan qaldırır. Belə ki, oyun qaydaları uşaqda mənəvi keyfiyyətlərinin formalaşmasında, kollektiv daxilində cəmiyyədə davranış qaydalarının tərbiyə edilməsində böyük rol oynayır.

Kiçikyaşlı uşaqlar qaydaları oyunun məzmunundan irəli gələn məcburi şərt kimi dərk edirlər, məsələn, dovşan ayının gəlişindən sonra kolluqda gizlənir; avtomobil hərəkət edərkən sərçələr yoldan uçurlar. Oyun qaydalarını "qanun" kimi dərk etməyən uşaqlara vaxtında reaksiya vermək öyrədilir. Əvvəl uşaqlar qaydaları pedaqoqun, daha sonra isə qaydaların ictimai əhəmiyyətini dərk etmiş qrup uşaqlarından birinin rəhbərliyi altında yerinə yetirir və nəhayət, qaydalar ictimai həyat normalarını müəyyən edən faktora çevrilir. L.B.Artyomovaya görə, uşaqlar əvvəl qaydaları yaddan çıxararaq, oyunun məqsədini yerinə yetirməyə çalışırlar. Asan yolla qalib gəlmək niyyəti qaydaların pozulmasına gətirib çıxarır ki, bu da digər uşaqların etirazına səbəb olur.

Böyüklərin tələbi ilə uşaqların hər bir qaydanı dərk etmələrinin və yerinə yetirmələrinin böyük əhəmiyyəti var. Tədricən uşaqların oyuna münasibəti dəyişir, qaydaları və hərəkətləri daha dəqiq yerinə yetirmək marağı artır.Qaydaları yerinə yetirməyin səbəbləri də dəyişir. Uşaqlar qaydaları qəsdən pozmur, (Bu, təsadüfi hallarda olur.) buraxılmış səhvi tez düzəltməyə çalışırlar. Hərəkətli oyunlar uşaqlarda yaradıcılıq təşəbbüskarlığının inkişafı üçün şərait yaradır.

Beləliklə, hərəkətli oyunlar uşaqların fiziki inkişafı üçün zəruridir. Uşaqların fəal iştirak, orqanizmin həyat fəaliyyəti yüksəlir, onlarda gümrah, şən əhvali-ruhiyyə yaradır.

ədəbiyyat

1.Azərbaycan Respublikasında məktəbəqədər təhsilin yeniləşdirilməsi proqramı (2007-2010-cu illər). Bakı, 2007

2.Həsənov A.M. Məktəbəqədər yaşlı uşaqların fiziki tərbiyəsi. Bakı,1994

3.Sadıqova T., Əliyeva Z. Məktəbəqədər yaşlı uşaqların ətraf aləmlə tanışlığı prosesində oyunlardan istifadə. Bakı: "Adiloğlu", 2011

4.Salıqova T. Uşaq bağçasının böyük qrupunda fiziki mədəniyyət məşğələləri. Bakı: "Nərgiz", 2009

**Роль двигательных игр в физическом воспитании детей дошкольного возраста**

**резюме**

В статье освещается состояние физического воспитания, даются методические рекомендации о развитии и совершенствовании физического воспитания дошкольников, так же отмечается роль подвижных игр в процессе.

Внимание уделяется на самостоятельную подвижную деятельность детей, на сюжетно-ролевых игр.

**The role of motor games in physical education of children of pre-school age**

**summary**

The article osveshaetsya state of physical education are guidelines for the development and improvement of physical education pre-school is also noted the role of mobile games in the process.

Attention is paid to independent mobile children's activity on the plot and role-playing games.

## UŞAQLARIN TƏRBİYƏSİNDƏ UŞAQ BAĞÇASI VƏ AİLƏNİN ƏLBİR İŞİ

**Gülnaz Qocayeva,**
pedaqogika üzrə fədsəfə doktoru



**açar sözlər:** uşaq bağçası, ailə, tərbiyəçi, uşaq, tərbiyə, tələb, inkişaf

**ключевые слова:** детский сад, дети, воспитание семья, воспитатель, развитие

**key words:** children, education, kindergarten, family, tutor, requires the development

Uşağın tərbiyəsi valideyndən, tərbiyəçidən hövsələ, gərgin səy, səriştə, pedaqoji ustalıq tə- ləb edir. Valideynlər öz uşaqlarının tərbiyəsinə nə qədər səy göstərsələr də, bir çox hallarda onların köməyə, məsləhətə ehtiyacı olur. Bu baxımdan tərbiyəçilərin də üzərinə çox iş düşür. Vəziyyətdən çıxmağın ən etibarlı yolu ailə və uşaq bağçası, valideynlər və tərbiyəçilər arasında həmrəyliyin, qarşılıqlı əlaqənin yaranmasıdır.

Valideynlər uşağı məktəbəqədər tərbiyə ocağına aparıb-gətirəndə tərbiyəçi ilə işgüzar söhbət üçün əlverişli imkan yaranır.

Tərbiyəçilər ata-anaların uşaqlara hansı tələbləri verdiklərini, balacaların bu tələblərə münasibətini, valideynlərin öz tələblərində ardıcıl , yekdil olub-olmadıqlarını müəyyənləşdirməli, valideynlər də bu kimi məsələlərin uşaq bağçasında necə həll olunduğunu aydınlaşdırmalıdırlar. Tərbiyəçilərlə valideynlər arasında əməkdaşlıqla əlaqədar ümumi razılıq əldə edilməlidir.

Məktəbəqədər tərbiyə müəssisəsi və ailə arasında möhkəm əlaqənin yaranması tərbiyənin qarşısında duran çoxsaylı vəzifələrin həyata keçirilməsinə kömək göstərir. Bu əlaqənin zəif olması, pedaqoji təsirlərin müxtəlif istiqamətlərə yönəlməsi balacalarda nümunəvi davranış, səmərəli bacarıq və vərdişlərin formalaşmasına maneə törədir, nəticədə uşaqların psixikasında mənfi izlərini buraxır.

Ailə, tarixən ən mühüm tərbiyə ocağı olub və olacaqdır. Valideynlər ilk tərbiyəçi, tərbiyənin memarlarıdırlar. Uşaqlar məktəbə gedənə kimi ailədə tərbiyə alırlar. Uşaq məktəbəqədər müəssisəyə getsə də, yenə birinci yerdə ailə tərbiyəsi durur. Ailə tərbiyəsi ictimai tərbiyə ilə qovuşmalı, ailədə ata-analar tərəfindən başlanılan tərbiyəvi işlər məktəbəqədər müəssisədə davam etdirilməlidir.

Təbii ki, həm ailə tərbiyəsi, həm də ictimai tərbiyə prosesində vahid tələblərdən çıxış etmək lazımdır. Tərbiyənin hər bir vəzifəsi ailə və məktəbəqədər müəssisənin əlbir səyi ilə həyata keçirilməlidir.

Uşaq bağçası ailə ilə əlbir fəaliyyət prosesində nəyi öyrənir və hansı istiqamətdə iş aparır? Uşaqların tələblərə münasibətini öyrənir, ailənin tərbiyəvi potensialını üzə çıxarır, ata və anaların yol verdikləri nöqsanları, müsbət cəhətləri müəyyənləşdirir. Valideynlər də uşaq bağçasının, tərbiyəçilərin apardıqları işlərin səviyyəsi barədə məlumata yiyələnirlər. Bunu tərbiyəçilərlə, uşaqlarla aparılan söhbətlərdən, valideyn yığıncaqlarından, uşaq bağçalarında keçirilən tədbirlərdən öyrənirlər.

Ailənin tələbləri necə yerinə yetirilir? Tərbiyəçilər bunları aşkara çıxarırlar. Valideynlər isə məktəbəqədər tərbiyə müəssisəsində tərbiyəçilərin öz tələblərində nə qədər ardıcıl olmalarını, hansı hallarda uşağa güzəştə getdiklərini müəyyənləşdirirlər. Uşaqlar tələbləri yerinə yetirmək istəmirlərsə, tərbiyəçilər bunun köklərini ailə təbiyəsində axtarırlar.

V.A.Suxomlinski ictimai tərbiyənin rolunu qeyd etməklə yanaşı, ailəni də böyük tərbiyəedici qüvvə sayırdı. O, «valideyn məktəbi» yaratmışdı. Bu məktəbdə məktəbəqədər, kiçik məktəb, yeniyetmə və ilk gənclik yaşlarında olan uşaqların valideynlərini özündə birləşdirən şöbələr fəaliyyət göstərirdi. Məktəbin fəaliyyətində tələblərdə vahidlik prinsipi də diqqət mərkəzində dururdu. Məktəb valideynlərə pedaqoji biliklərin verilməsi ilə planlı şəkildə məşğul olurdu.

Tərbiyəçilərin ailələrlə işinin sistemi onların aydın məqsədə, məzmuna malik olmalarını nəzərdə tutur. Bu sistem planlı şəkildə, müxtəlif forma və

metodların qarşılıqlı əlaqəsi şəraitində vaxtilə qazanılmış nailiyyətlərin, qarşıda duran vəzifələrin aydın təsəvvür olunması, vahid tələblərin irəli sürülməsi, alınan nəticələrin təhlili əsasında həyata keçirilir.

Məktəbəqədər müəssisələrin ailələrlə işi aşağıdakı istiqamətlərdə qurulur:

–Azərbaycan dövlətinin uşaqların tərbiyəsinə, ailənin möhkəmləndirilməsinə qayğısı barədə məlumat vermək;

–anaların və uşaqların hüquqlarının mühafizəsi ilə bağlı təsəvvür yaratmaq;

–övladlarının tərbiyəsində dövlət və cəmiyyət qarşısında məsuliyyət daşıdıqlarını valideynlərə xatırlatmaq;

–valideynlərdə uşaqların tərbiyəsi üçün lazım olan bilik və bacarıqları (uşaqların anatomik-fizioloji xüsusiyyətləri, ailədə düzgün tərbiyənin şərtləri, məzmunu, metod və prinsipləri ) formalaşdırmaq;

–çətinlikləri aşkara çıxarmaq və aradan qaldırmaq;

–uşaqların tərbiyəsinə nəzarəti həyata keçirmək;

–uşaqlara vahid pedaqoji təsirin göstərilməsinə nail olmaq;

–məktəbəqədər müəssisəyə gələn uşaqların ailədə tərbiyəsi ilə maraqlanmaq, iş təcrübəsini ümumiləşdirmək, yaymaq;

–xoşagəlməz halların baş verməsinin qarşısını almaq.

Tərbiyəçi və valideynlərin birgə fəaliyyəti prosesində qarşıdakı vəzifələrin müəyyənləşdirilməsi onun perspektivliyinə, sistemlilik və ardıcıllığına şərait yaradır. Bu və ya digər yaş dövründə uşağın yaşını, tərbiyənin aktual məsələlərini, həmçinin valideynlərin tərkibini nəzərə almaqla, uşaqların tərbiyəsində məktəbəqədər müəssisənin və ailənin əməkdaşlığı imkanları artır.

Tərbiyəçinin uşaqlarla səmərəli iş aparması üçün onların ailələrini yaxından tanıması vacibdir. Ata-analarla əlaqə yoxdursa, tərbiyəçinin səyi, uşağın ailə tərbiyəsinə təsir göstərmək cəhdi səmərəsiz qalacaqdır.

Məktəbəqədər yaşlı uşaqların tərbiyəsi ideyalarının, vasitə və metodlarının ailələrə yol tapması üçün uşaq bağçası ciddi səy göstərməlidir. Yalnız bu zaman valideynlər tərbiyəçilərin məsləhətlərinə inamla yanaşar, onlarla əlaqəni möhkəmləndirərlər. Ona görə də tərbiyəçilər öz şəxsi və peşə keyfiyyətlərinin təkmilləşdirilməsi qayğısına qalmalı, daim özlərinə, öz pedaqoji bilik və bacarıqlarına, uşaqlara, ata-analara münasibətdə irəli sürdükləri tələblərə yeni nəzərlə baxmalıdırlar.

Bəzən valideynlərin pedaqoji mədəniyyətinin məzmunu səmərəli şəkildə diferensiallaşdırılmır, əməkdaşlığın metodları seçilərkən ayrı-ayrı ailələrin imkanları və həyat şəraitini nəzərə almağı unudurlar. Bəzi tərbiyəçilər bir sıra hallarda ailələrlə əlaqənin daha çox kollektiv formalarına müraciət edirlər. Nəticədə ailə tərbiyəsinin xüsusiyyətləri, valideynlərin pedaqoji mədəniyyətinin səviyyəsi, uşağın tərbiyə olunmasının özünəməxsusluğu öyrənilmir, valideyn və uşaqlarla münasibətlərdə çətinliklər yaranır.

Valideynlərlə müqayisədə götürdükdə, məktəbəqədər müəssisə tərbiyəçiləri metodik cəhətdən müəyyən üstünlüklərə malikdirlər. Belə ki, onlar el-

mi əsaslarla işlənmiş, təcrübədə yoxlanmış tərbiyə və təlim proqramına malikdirlər. Bu proqramda hər bir yaş qrupu üzrə tərbiyənin vəzifələri, uşağın inkişaf xüsusiyyətləri, məşğələlərin məzmunu öz ifadəsini tapır, uşaqların psixofizioloji xüsusiyyətləri və tələbatlarının nəzərə alınmasına dair konkret göstərişlər vardır.

Məktəbəqdədər müəssisə əməkdaşlarının ən mühüm vəzifəsi ondan ibarətdir ki, valideynlərdə və ailənin digər yaşlı üzvlərində uşağın tərbiyəsində ailənin böyük rolu olduğuna inam yaratsınlar. Balacaların sonrakı taleyi valideynlərdən asılıdır. Övladlarının gələcəyi onlardan ötrü əhəmiyyətlidirsə, məktəbəqədədər müəssisələrin köməyindən faydalanmalıdırlar.

Ailə ilə ilk tanışlıq zamanı tərbiyəçilər, əsasən, aşağıdakı məsələlərə diqqət yetirməlidirlər:

–ailənin tipi və quruluşu, tərkibi, mədəni səviyyəsi, valideynlərin ictimai istiqaməti, onların maraqları, asudə vaxtdan istifadə;

–ailənin mənəvi-psixoloji ab-havası (ailə üzvləri arasında vəzifə bölgüsü, ailə ənənələri);

–ailə üzvlərinin tərbiyəvi vəzifələri (Uşağın tərbiyəsi, əsasən, kimin öhdəsinə düşür?);

–uşağın tərbiyəsi barədə valideynlərin məlumatlılıq səviyyəsi, uşağa verilən tələblər sistemi;

–Uşaqlar valideynlərin irəli sürdükləri tələblərə necə yanaşırlar?

Bəzi ailələrdə məktəbəqədər yaşlı uşaqların iradi imkanları lazımınca qiymətləndirilmir. Bəzən məktəbəqədər müəssisədə müstəqillik nümayiş etdirən uşağın evdə imkanları məhdudlaşdırılır. O, hər hansı işi yerinə yetirirkən üzləşdiyi çətinlikləri aradan qaldıra bilmir.

Məktəbəqədər müəssisənin ailələrlə apardığı işlərə, aşağıdakılar daxildir:

–valideynlərin pedaqoji biliklərə yiyələnmələri;

–ailələrin həyat şəraiti və orada tərbiyə işinin səviyyəsi ilə tanışlıq, nümunəvi tərcrübənin aşkara çıxarılması və yayılması;

–məktəbəqədər müəssisənin işi ilə valideynlərin tanış edilmələri, bağça əməkdaşlarının tələblərdə vahidliyə əməl edib-etməmələri.

Ailə tərbiyəsinin müsbət təcrübəsinin ümumiləşdirilməsi və yayılması valideynlərin pedaqoji mədəniyyətinin yüksəldilməsinin səmərəli formalarından biridir. Məlumdur ki, tövsiyələr və ədəbiyyatdan nümunələrlə müqayisədə tanış ailələrin tərbiyə sahəsindəki müsbət təcrübəsi digər valideynlərə yaxşı təsir göstərir, onları öz qüvvələrini, imkanlarını nəzərdən keçirməyə, tərbiyə işini gücləndirməyə istiqamətləndirir.

**ədəbiyyat**

1. Makarenko A.S. Seçilmiş pedaqoji əsərləri . Bakı: "Azərnəşr", 1950
2. Muradxanov M.Ə. və b. Pedaqogika. Bakı: «Azərtədrisnəşr», 1964
3. Paşayev Ə.X., Rüstəmov F.A. Pedaqogika (yeni kurs), Bakı: «Çaşıoğlu», 2002
4. Talıbov Y.R., Ağayev Ə.A. və b. Pedaqogika. Bakı: «Maarif»,1993
5. Suxomlinski V.A. Seçilmiş əsərləri. Bakı: «Azərnəşr», 1963

**Единства семьи и детского сада в воспитании детей**
**резюме**

В статье рассматриваются вопросы, связанные с принципами единства требований в семье. Отмечается, каждый из выдвигаемых принципов имеет свое место и позицию.

Особо отмечается, что в данном деле родители должны выдвигать единые требования. При этом следует родителям учитывать условия, дух и физическое состояние ребенка.

**Family unity and a kindergarten in the upbringing of children**
**summary**

The article discusses issues related to the principles of unity of the requirements of the family. It is noted, each of the principles put forward has its place and position.

Emphasizes that in this case the parents need to take the uniform requirements. This should take into account the conditions of the parents, the spirit and the physical condition of the child.

# MƏKTƏBƏHAZIRLIQ QRUPUNDA "VƏTƏNİN GÖZ DAĞI – ŞUŞA" MÖVZUSUNDA MƏŞĞƏLƏNİN İCMALI

**Səbinə Rəhimova,**
Binəqədi rayonu, "Delfin" uşaq bağçasının müdiri

Bu gün ölkəmizin təhsil müəssisələri qarşısında bir çox vəzifələr durur. Ona görə də müasir dövrdə pedaqoji proses elə qurulmalıdır ki, təhsil sistemində gedən islahatlara, tədris prosesinin modernləşdirilməsi tələblərinə və dövlət siyasətinə cavab verə bilsin. Bu səbəbdən təhsil sisteminin müasir problemlərinin fəlsəfi, pedaqoji, psixoloji aspektləri vəhdətdə öyrənilməli, milli-mənəvi və ümumbəşəri dəyərlərin prioritetliyi gözlənilməlidir.



Məktəbəqədər müəssisədə işləyən tərbiyəçi həm mükəmməl pedaqoq, həssas psixoloq, tədqiqatçı, həm də yenilikləri tətbiq etməyi bacaran mütəxəssis olmalıdır. Məktəbəqədər təhsil işçiləri təhsil prosesinin ilkin mərhələsinin məsuliyyətini daşıyırlar. Bu mərhələnin bünövrəsi elə möhkəm qoyulmalıdır ki, sonradan qazanılan biliklər üçün baza rolunu oynasın. Vaxtilə C. Brunonun söylədiyi "Köynəyin ilk düyməsi səhv düymələnərsə, digərləri də səhv gedər" fikrini məktəbəqədər təhsilə də aid etmək olar.

Məktəbəqədər dövrdə uşaqların fiziki, psixi, emosional, intellektual inkişafının təmin edilməsi, vətəninə məhəbbət, millətinə, dilinə, dininə, dövlət rəmzlərinə hörmət hisslərinin, ümumiyyətlə, şəxsiyyətin formalaşması prosesinin təməli qoyulur. Hər bir uşağın milli mənsubiyyəti haqqında yaşına uyğun məlu-

matı olmalıdır. Uşaqlar kütləvi tədbirlər, məşğələlərdə səhnəciklər, mahnılar, şeirlər, rəqslər vasitəsilə öz xalqı və digər xalqlar haqqında məlumat almalıdırlar. Uşaq psixikasına zərər yetirmədən onları xalqımız üçün əhəmiy-yətli təqvim günləri, işğal olunmuş torpaqlarımız haqqında da məlumatlan-dır-malıyıq. Əsl vətəndaş yetişdirmək üçün təlim verdiyimiz hər uşağa məsuliyyətini anlatmalıyıq. Hər hansı yanlış ifadə, davranış uşağın yanlış formalaşmasına, onun həyatında iz qoyan psixoloji zədəyə səbəb ola bilər.

Bu gün təhsil işçilərinin fəaliyyəti öz bəhrəsini verir. Düzgün formalaşmasına nail olduğumuz uşaqlar sabah dövlət quruculuğunda mühüm problemlərin həllinə təsir edəcək şəxslər ola bilərlər. Əgər biz bu gün işimizə peşəkarcasına yanaşırıqsa, gələcəkdə mənfi hallar azalar. Yaxşı demişlər : "Gələcək – bu gündən ona hazırlananlara aiddir ".

Bu, o deməkdir ki, biz hərtərəfli inkişaf etmiş şəxsiyyət formalaşdırmaqla vətənimiz üçün, ümumiyyətlə, bəşəriyyət üçün ədalətli gələcəyi təmin etmiş oluruq. Bu prosesdə özümüz də inkişaf edir, yeni biliklərə yiyələnir, püxtələşirik. Gələcək Azərbaycan vətəndaşını necə görmək istəyiriksə, özümüz də o standartlara uyğun köklənməliyik. Sokrat demişdir: "Vətənpərvərlik döyüşdə vuruşub, böyük qəhrəmanlıq göstərməklə bitmir, üzərinə düşən vəzifəni ədalətlə, vicdanla yerinə yetirmək də vətənpərvərlikdir".

Məktəbəhazırlıq qrupunda "Vətənimin göz dağı – Şuşa" mövzusunda keçirilən məşğələ nümunəsinə diqqət yetirək.

**Mövzu**: "Vətənimin göz dagı – Şuşa "

**Məqsəd:**

–Şuşa haqqında bilikləri təkrar etmək və möhkəmləndirmək;
– işğal olunmuş torpaqlar haqqında məlumatları yada salmaq;
– uşaqlara abidələr haqqında məlumat vermək və onu möhkəmləndirmək;
–fikri bütöv cümlələrlə ifadə etməyi öyrətmək.

**Metodlar və priyomlar:** əqli hücum, müzakirə, motivasiya, işguzar səs-küy, süjetli-rollu oyun

**İş forması**: fərdi və qruplarla iş

**Resurslar:** abidələrin şəkilləri, slaydlar, videogörüntülər, dövlət rəmzləri, qayçı, yapışqan, vərəqlər, bayraqlar, xəritə, qum saatı

**Məşğələnin gedişi**



**Motivasiya.** Tərbiyəçi uşaqlara Azərbaycan Respublikasının xəritəsinin göstərib soruşur:

–Uşaqlar, bu nədir?

Uşaqlar:–Azərbaycanın xəritəsi.

–Düzdür, uşaqlar, bu Azərbaycanımızın xəritəsidir. Bu isə Azərbaycan Respublikasının ərazi sərhədlərinin qeyd olunduğu bir tablodur .Qara rənglə göstərilən hissə nədən xəbər verir ?

:– İşğal olunmuş əraziləri göstərir.

– Elədir, bunlar işğal olunmuş ərazilərdir. Bugünkü mövzumuz da vətənimizin işğal olunmuş ərazilərindən bəhs edir. Uşaqlar, gəlin bu gün biz hər düzgün cavabımıza görə xəritədə lazımi əraziyə Azərbaycan bayraqlarını yerləşdirək. Uşaqlar, sizinlə müxtəlif tarixi yerlərə gəzintilərimiz olub, gəlin monitora nəzər salaq, onları bir daha xatırlayaq. (Monitoru müşahidə edərkən ekskursiya zamanı Bakı şəhərinin tarixi abidələri qarşısında çəkdirdiyimiz şəkillərdən slaydlar nümayiş etdirilir).





– Bu abidələr hansı şəhərdə yerləşir ?
– Bakı şəhərində.
– Uşaqlar, gəlin, bayrağınızı əritəyə sancın.
– Bakı şəhəri vətənimizin nəyidir?
– ...paytaxtıdır.
– Elədir, paytaxtıdır. Vətənimizin, demək olar ki, bütün bölgələrində tarixi abidələr var. Ekskursiyamızın məqsədi vətənimizi daha yaxından tanımaq idi. Tarixi abidələrə baxarkən hansı hissləri keçirdiniz?
– maraq hissi iftixar hissi.
–Biz bu abidələri qorumalıyıq. Bu abidələr, qədimdən qalmış hər bir şey qədim Azərbaycanı, bizim əslimizi, kökümüzü, mədəniyyətimizi öyrənməyə kömək edir. Belə tarixi abidələr bizim işğal olunmuş torpaqlarımızda da var. Təəssüf ki, indi o abidələr dağıdılmış vəziyyətdədir. İşğal edilmiş ərazilərimizdən hansılarını tanıyırsınız ?
–Laçın, Kəlbəcər, Ağdam, Şuşa, Xocalı və s.
–Uşaqlar, keçən dəfəki məşğələmiz hansı şəhərimiz haqqında idi?
–Vətənimizin göz dağı Şuşa haqqında.
–“ Vətənimin göz dagı – Şuşa “ nə deməkdir ?
– Qarabağın ən gözəl ğuşəsi Şuşanın ermənilərin əlində olması göz dağıdır.
– Mayın 8-i bizim tariximizə ən kədərli gün kimi daxil oldu .1992-ci il , mayın 8-də Şuşa işğal olundu. Gəlin izləyək. (Flora Kərimovanın ifasında “Şuşada bağım qaldı” mahnısının sədaları altında Şuşanın görüntüləri nümayiş etdirilir).

**Anım dəqiqəsi.** ***(Şuşa bir dəqiqəlik sükutla yad edilir).***

–Uçaqlar, indi gəlin tabloya baxaq, Şuşanın abidələri ilə tanış olaq. (Uşaqlar suallara cavab verdikcə, xəritəyə kiçik Azərbaycan bayraqları yapışdırılır.)

– Uşaqlar, bilirik ki, Azərbaycan dahilər, alimlər, sənətkarlar ölkəsidir. Şuşa şəhəri bu sahədə də məşhurdur. Şuşa həmişə Azərbaycanın mədəniyyət mərkəzlərindən biri olub. Şuşa neçə-neçə şair, musiqiçi, müğənni, rəssam, astronom, memar, həkim yetişdirmişdir. Monitora baxın (*Şuşanın görkəmli xadimləri haqqında slayd nümayiş etdirilir*). Bu dahilərin hər birinin Azərbaycanımızın inkişafında böyük rolu olub. Arzu edirəm ki, siz də vətənin belə vətəndaşlarından olasınız.

Torpaqlarımızın azad olunması üçün biz nə etməliyik? Baxın, masa üzərində bir necə əşya var . (*Uşaqlar masaya dəvət edilir. Masada bir neçə kitab, oyuncaq silah qoyulub*). Siz hansını seçərdiniz? *(Uşaqlar seçim edirlər)*. Nə üçün məhz bunu seçdin? *(Uşaq öz seçimini əsaslandırır)*. Bəli, layiqli vətəndaş olmaq üçün siz oxumalı, öyrənməli, vətəni qorusmalısınız.

**İdman dəqiqəsi.** *("Azərbaycan əsgəri" mahnısının müşayiəti altında keçirilir).*

Növbətçilər stolun üstündə qarışıq qoyulmuş Şuşa qalası və Qız qalasının əks olunduğu şəkilləri uşaqlara paylayırlar.

–Uşaqlar, əlinizdəki şəkillərə diqqən yetirin. Əlində Şuşa qalasının şəkli olanlar bir masaya , Qız qalasının şəkli olanlar digər masaya yaxınlaşsınlar.

Uşaqlar qruplara bölünürlər.Tərbiyəçi uşaqlara müraciət edir:

– Qız qalasi harada yerləşir ? *(Bakı şəhərində)*.Deməli, qrupunuzun adı "Bakı"dır. Şuşa qalası harada yerləşir?(*Şuşada*). Sizin qrupunuzun adı isə "Şuşa"olsun . Liderləri seçin .

Qruplarla işin vaxtı qum saatı ilə ölçülür . İş qaydası uşaqların yadına salınır .

**"Şuşa" qrupu**

**I tapşırıq :**İşğal nə deməkdir? Bu haqda təəssuratlarınızı, fikirlərinizi bir- birinizlə bölüşün, səhnəcik və ya qısa mətn formasında təqdim edin .

**II tapşırıq :** Kartoçkalarda müxtəlif tarixi abidələr təsvir olunmuşdur. Şuşaya aid abidələrin şəkillərini kəsib vərəqə yapışdırın.

**"Bakı" qrupu**

**I tapşırıq :**Vətənin güclü olması üçün nə lazımdır ? Fikirlərinizi bir birinizlə bölüşün, səhnəcik və ya qısa bir mətn kimi təqdim edin.

**II tapşırıq :** Uşaqlara bir neçə müxtəlif tarixi abidələrin əks olunduğu kartoçkalar verilir. Bakıya aid abidələrin şəkillərini kəsib vərəqə yapışdırın.




**Nəticə və ümumiləşdirmə.** Qrup liderləri işləri təqdim edirlər. Müzakirə və fikir mübadiləsi aparılır.

Məşğələnin sonunda tərbiyəçi uşaqları rəğbətləndirir, onları ruhlandırır. O, uşaqların diqqətini yazı taxtasından asılmış Azərbaycan xəritəsindəki bayraqların çoxluğuna yönəldir və qeyd edir ki, bu, onların uğurudur.

Məşğələ " Vətən " şeri ilə başa çatır .

## UŞAQLARIN MƏKTƏBƏ MÜSABİQƏ YOLU İLƏ (TESTLƏRLƏ) QƏBULU PROBLEMİNİN TƏDQİQİ



**Bibixanım Ağayeva,**
ARTPİ-nin sosial tədqiqatlar şöbəsinin müdiri

**açar sözlər:** psixoloji problem, beynəlxalq təcrübə, valideyn, təklif, ailə, məktəb, ibtidai sinif, məktəbəqədər hazırlıq səviyyəsi, hazırlıq məşğələləri

**ключевые слова:** психологическая проблема, международный опыт, родитель, предложение, семья, школа, начальные классы, дошкольный, уровень подготовки, подготовительные занятия

**key words**: psychological problems, international experience, parent, proposal, family, school, primary class, preschool, preparation level, preparation trainings

Azərbayca Respublikası Təhsil Nazırliyinin sifarişi əsasında "Uşaqların məktəbə müsabiqə yolu ilə (testlərlə) qəbulu probleminin tədqiqi" mövzusunda tədqiqatın aparılması məqsədilə aşağıda qeyd olunan tərkibdə işçi qrupu yaradılmışdır: sədr – şöbə müdiri B.S.Ağayeva, üzvlər – elmi işçilər F.A. Cəbrayılova, V.H. Vahidova, laborant S.A.Əliyeva, 220 nömrəli mətəbin direktoru A.Ə.Əskərova, 1 nömrəli məktəbin direktoru E. M. Rzayeva, 60 nömrəli məktəbin sinif müəllimi R.M.İbrahimova. Tədqiqat işi ilə əlaqədar nəzəri metodik ədəbiyyat təhlil edilmiş, ümumtəhsil məktəblərinə şagird qəbulu ilə bağlı dövlət sənədləri, lisey və gimnaziyaların nizamnamələri araşdırılmış, məktəb direktorları, ibtidai sinif müəllimləri və valideynlərlə anket sorğuları keçirilmişdir.

Problemlə bağlı Rusiya, Yaponiya, İspaniya, Amerika, Fransa, Estoniya, Çin, İtaliya, Çexiya, Almaniya, Latviya və İsveçdə I sinfə qəbul qaydaları da araşdırılmışdır. Beynəlxalq təcrübədən məlum olmuşdur ki, I sinfə, ilk növbədə, məktəbin ərazisindən, boş qalan yerlərə başqa ərazilərdə yaşayan uşaqlar qəbul edilir.

Uşaqların məktəbə müsabiqə yolu ilə (testlərlə) qəbulu problemlərini araşdırmaq məqsədilə Bakının 39, regionların 37 məktəbində genişmiqyaslı anket sorğuları, müsahibələr, söhbətlər keçirilmişdir.

Sorğunun əsas məqsədi I sinfə qəbulla bağlı respublikada mövcud vəziyyəti öyrənmək və təhlil etmək idi. Bundan əlavə, qəbulla bağlı məktəb direktorlarının, müəllimlərin və valideynlərin üzləşdikləri problemlər araşdırılmışdır. Müəyyən edilmişdir ki, Bakının 36, regionların 37 orta təhsil müəssisəsində qəbul qaydaları Təhsil Nazirliyinin əmri əsasında düzgün aparılmış, heç bir kənaraçıxma hallarına yol verilməmişdir. Bakının 3 məktəbində (7, 20, 106 nömrəli) isə testlərlə aparılmışdır.

I sinfə qəbulun forma və yollarının təkmilləşdirilməsi ilə əlaqədar müəyyən işlər görülmüşdür. Sorğu aparılan respondentlərin 60%-i şagirdlərin psixoloji testlərdən keçirilməsini təklif etdi. Respondentlərin 30%-i məktəbəqədər müəssisələrdən gəlmiş uşaqların qruplaşdırılaraq eyni siniflərdə yerləşdirilməsini təklif etdi. Respontentlərin 10%-i məktəbə yaxın ərazidə yaşayan uşaqların qəbul olunmalarının vacibliyini təklif etdi.

Uşaqların I sinfə qəbulunun təşkili üçün yaradılmış komissiyanın tərkibi müəyyən edildi. Komissiyanın tərkibinə direktor, təlim-tərbiyə üzrə direktor müavini, təcrübəli ibtidai sinif müəllimləri, məktəbin psixoloqu və həkimn daxil edilməsi məsləhət görüldü.

Tədqiqat nəticəsində məlum oldu ki, valideynlərin məktəbə təqdim etdikləri tibbi arayışlardakı məlumatların bəziləri reallıqla üst-üstə düşmür. Arayışda tam sağlam olduğu qeyd edilən uşaqların bir qisminin sağlamlığında müəyyən qüsurlar meydana çıxır.

Qəbul prosesində xüsusi qayğıya ehtiyacı olan uşaqların özünəməxsus xüsusiyyətlərinin nəzərə alınıb-alınmaması diqqətimizi cəlb etdi.

Yaşı çatmayan, lakin xüsusi hazırlığı ilə seçilən uşaqların taleyi, onların məktəbə qəbulunun zəruriliyi də bir problem kimi qarşıya çıxdı. Sorğuya cəlb olunan respondentlərin hamısı yaşı çatmayan, lakin xüsusi hazırlığı ilə seçilən uşaqların məktəbə qəbulunun regionlarda təhsil şöbələri tərəfindən yaradılmış komissiyanın, Bakı şəhəri üzrə isə Təhsil Nazirliyində yaradılmış komissiyanın rəyinə əsasən həyata keçirildiyini qeyd etmişlər.

I sinfə qəbul olunacaq uşaqlar üçün hazırlıq məşğələlərinin təşkilinin vəziyyəti də öyrənildi. Respondentlərin 30%-i hazırlıq məşğələlərinin təşkilinə may ayından başladıqlarını, uşaq bağçalarında həftədə 10-12 saat onlarla məşğul olduqlarını, 40 %-i isə avqust, sentyabr aylarında qısamüddətli hazırlıq məşğələləri təşkil etdiklərini bildirdilər.

## nəticələr

Bakı şəhərində məktəb direktorları və müəllimlər I sinfə uşaqların qəbulunu Təhsil Nazirliyinin müvafiq qaydalarına əsasən keçirdiklərini qeyd etsələr də, valideynlərdən alınmış məlumatlar göstərir ki, qəbul test vasitəsilə təşkil olunur. Sorğu aparılan məktəblərdə I sinfə qəbul komissiyasının müəllimləri və valideynlərlə söhbət apararkən məlum oldu ki, qəbul zamanı tətbiq edilən test sualları çətin olmaqla, altıyaşlıların səviyyələrinə uyğun gəlmir. Test sualları uşaqların ümumi hazırlıq səviyyəsini müəyyənləşdirmək və onlara fərdi yanaşmaq məqsədilə aparılmalıdır. Sorğu əsasında müəyyən edilmişdir: məktəbəqədər müəssisələrdən gəlmiş uşaqların hazırlıq səviyyəsi ailədən gəlmiş uşaqların hazırlıq səviyyəsindən xeyli yüksəkdir.

Sorğunun aparıldığı bəzi məktəblərdə kiçikyaşlı uşaqların məktəbə cəlb edilmələri sahəsində aparılan işlər günün tələblərinə cavab vermir, belə ki, kiçikyaşlıların dəqiq qeydiyyatı aparılmır. Bununla da Azərbaycan Respublikası Təhsil Qanununun 5-ci maddəsi pozulur, uşaqlar vaxtında təhsilə cəlb olunmurlar.

Bəzi regionlarda məktəb direktorları və müəllimlər I sinfə hazırlıq məşğələlərinin təşkil olunduğunu təsdiq etmələrinə baxmayaraq, valideynlər hazırlıq məşğələlərinin təşkil olunmasını təklif kimi irəli sürmüşlər. Deməli, regionlarda I sinfə qəbulla əlaqədar hazırlıq məşğələləri təşkil olunmur.

Regionlarda I sinfə qəbul olunmuş uşaqların hazırlıq səviyyələrinə görə siniflərin komplektləşdirilməsinin zəruriliyi müəyyən edilmişdir.

Uşaqların məktəbə qəbulunda valideynlər, əsasən, bilikli, təcrübəli müəllimləri olan məktəblərə üstünlük verirlər.

## təkliflər

Uşaqların I sinfə qəbulunun təkmilləşdirilməsi və Təhsil Nazirliyinin təlimatına riayət olunmasını təmin etmək məqsədilə aşağıdakı təkliflər verilir:

–Azərbaycan Respublikasının Təhsil Qanununa əsasən 9 illik təhsil icbarı olduğundan, I sinfə qəbul edilən uşaq yaşadığı ərazidə ona ən yaxın məktəbdə təhsil almaq hüququna malikdir. 6 yaşlı uşağın müxtəlif bəhanələrlə ərazidə yerləşən məktəbə qəbul edilməməsi Azərbaycan Respublikasının Təhsil Qanununun pozulması kimi qəbul edilməlidir.

– Beynəlxalq təcrübə göstərir ki, I sinfə qəbul məktəbin ərazisində yaşayan uşaqlar üçün martın 1-dən iyulun 31-dək, qalanları üçün isə avqustun 1-dən sentyabrın 15-dək keçirilir. Valideynlərin övladlarının bu ərazidə yaşamaları haqqında qeydiyyat sənədini təqdim etmələri vacibdir. Məktəb müdiriyyəti martın 1-dək ərazidə yaşayan I sinfə qəbul olunacaq uşaqların sayına uyğun sinifləri komplektləşdirir. Təklif olunur ki, məktəb müdiriyyəti ərazidə yaşayan I sinfə qəbul olunacaq uşaqların siyahısını təxminən 6 ay əvvəl müəyyənləşdirməli, sinifləri komplektləşdirməli, onlarla işləyəcək müəllimlərin və psixoloqların məşğul olmalarını təmin etməlidir.

– Ərazidə yaşamayan uşaqların qəbulunda ilk növbədə şəhid ailələrinin uşaqlarına, valideyn himayəsindən məhrum olan, kimsəsiz uşaqlara, sonra isə bacı və qardaşları həmin məktəbdə təhsil alan uşaqlara üstünlük verilə bilər.

–Məktəbəqədər təhsil müəssisələrində məktəbə hazırlıq məşğələlərində uşaqların nitq qüsurlarının aradan qaldırılması üçün onlarla loqopedin məşğul olması məqsədəuyğun hesab edilir.

–Qəbul komissiyası uşaqların fiziki, psixoloğji durumunu, intellektual səviyyəsini yoxlamalıdır. Test sorğusunun aparılmasında məqsəd müəllimlərin məktəbə qəbul olunan uşaqlarla tanışlığı və onların inkişaf səviyyəsindən asılı olaraq proqramların korreksiyasıdır. Beləliklə, uşaqla aparılan hər bir söhbət tövsiyə xarakteri daşımalıdır. Əks halda, bu, qanunçuluğa zidd hərəkət kimi qiymətləndirilə bilər. Söhbət zamanı, əsasən, davranışa, yaddaşa, diqqətə, idraka, motorikaya və nitqə fikir verilməlidir, lakin zəif uşağın I sinfə qəbul olunmamasına dair qərarın qəbul edilməsi yolverilməzdir.

–Qəbul zamanı istifadə edilən testlər lokal xarakter daşımalı, uşaqların fərdi xüsusiyyətləri nəzərə alınmalıdır. Testlərin nəticələri siniflərin komplektləşdirilməsində əsas götürülməlidir. Müsabiqənin keçirilməsi üçün müsahibə sistemi, testlərin hazırlanması və komissiya üzvlərinin əvvəlcədən onlarla tanışlığı tövsiyə edilir. I sinfə qəbulun forma və yollarının təkmilləşdirilməsi üçün məktəblər üzrə təkliflər hazırlanmalıdır.

–Uşaqların məktəbə qəbulunun sistemləşdirilməsi və təkmilləşdirilməsi məqsədilə məktəb psixoloqu və ibtidai sinif müəllimləri tərəfindən ərazidə yaşayan və məktəbə qəbul ediləcək uşaqların siyahısı hazırlanmalı, il boyu valideynlər və I sinfə qəbul olunacaq uşaqlarla, ayda bir dəfədən az olmayaraq, görüş keçirilməlidir. Belə görüşlər məktəbə yenicə gəlmiş uşaqlarda yarana biləcək psixoloji maneələrin aradan qaldırılmasına, onların məktəbə adaptasiyasına, davranış və ünsiyyətinə kömək göstərər.

–Uşaqların məktəb təliminə hazırlanmaları prosesində ailənin sosial durumunun müəyyənləşdirilməsi üçün məktəblərə sosial işçi ştatının verilməsi tövsiyə edilir. Sosial işçi ibtidai sinif müəllimi ilə birlikdə ailədəki problemləri araşdırır, həllinə kömək edir. O, həm də I sinfə qəbul olunmuş uşağa gələcək müəllimini seçmək üçün imkan yaradılır.

–Araşdırmalar nəticəsində müəyyən edilmişdir ki, uşaqların I sinfə qəbulu prosesində onların fərdi, psixoloji və fizioloji xüsusiyyətlərini müəyyənləşdirmək üçün psixoloqların iştirakı hökmən təmin edilməlidir. Psixoloq uşaqlarda yaranmış psixoloji problemlərin aradan qaldırılması üçün müvafiq tədbirlər görməli və siniflərin səviyyəyə görə komplektləşdirilməsində nəzərə alınmalıdır.

**Прием детей в школу на конкурсном основе (тестами)**

**резюме**

В статье дается информация о приеме в школу 6 летних детей в Баку и регионах Республики. В результате исследования было выяснено, что прием не производится на основании соответствующего распоряжения Министра Образования. При приеме используются тесты и часто дети живущие на близлежащей этой школе территории по итогам этих тестов в школу рядом с домом не принимаются.

**Children's admission to school on competition bases (tests)**

**summary**

The article provides information on admission to school 6 aged children in Baku and in the regions. According to the results of research, there was found that the admission is not organized on the basis of the relevant order of the Minister of Education. In the process of admission, tests are used and often the children who live in the nearby area of the school, on the basis of these tests are not accepted to school.

## II SİNİFDƏ AZƏRBAYCAN DİLİNDƏN "GÜNƏŞ VƏ BULUD" MÖVZUSUNDA AÇIQ DƏRSİN İCMALI

**Rəsmiyyə Allahverdiyeva,**

Bülbül adına orta-ixtisas musiqi məktəbinin müəllimi



Hər bir məsuliyyətli insan öz peşəsinin öhdəsindən layiqincə gəlməyə çalışır. Təhsil islahatının həyata keçirildiyi indiki dövrdə ibtidai sinif müəllimlərinin üzərinə də böyük məsuliyyət düşür. Zamanın tələblərini yerinə yetirmək üçün daim öz üzərimdə çalışıram. Respublikamızda keçirilən kurikulum islahatı mənim də məsuliyyətimi artırıb.Təhsil Nazirliyinin təşkilatçılığı ilə keçirilən təlim kurslarında iştirak edərək, yenilikləri dərindən öyrənməyə çalışıram. Bu kurslarda əldə etdiyim bilik və bacarıqları tədris prosesində reallaşdırıram. İKT vasitələrindən istifadə etməklə dərslərimi şagirdlərin marağına uyğun qururam. Fəaliyyət göstərdiyim məktəbin başqa məktəblərdən fərqli cəhəti ondadır ki, Azərbaycahda həm musiqi, həm də orta təhsil verən yeganə təhsil müəssisəsidir. Odur ki, burada şagirdlərin təhsili həm maraqlı, həm də yüklüdür. Bu yükü aradan qaldırmaq, 45 dəqiqə ərzində qarşıya qoyulan məqsədə nail olmaq üçün çalışıram ki, dərsi müasir tədris prosesinin təşkilinə verilən tələblərə uyğun qurum. Bu baxımdan bir dərs nümunəsini təqdim edirəm.

**Fənn:** Azərbaycan dili.
**Sinif**: II
**Mövzu :** günəş və bulud
**Standartlar:** 1.2.1; 2.2.1
**Məqsəd:**
– həyatda gördüklərini mövzudakı ideyalarla əlaqələndirməyi başa salmaq;
–mətnin ifadəli oxusuna nail olmaq;
–varlıq və hadisələri əlamətlərinə görə qruplaşdırmağı öyrətmək.
**İnteqrasiya:** H.b. 1.1.1.
**İş forması:** kollektiv və cütlərlə iş
**Metodlar və priyomlar:** beyin həmləsi və müzakirə
**Resurslar:** dərslik, işçi vərəqləri, kompyuter və proyektor, cizgi filmi

## Dərsin gedişi

**Motivasiya.** – Göy cisimlərindən hansıları tanıyırsınız?
Bu sualla sinfə müraciət edirəm. Şagirdlər öz mülahizələrini söyləyirlər. Hərə bildiyi göy cisminin adını çəkir. Onların cavabları yazı taxtasına qeyd olunur. *(Mars, Venera, Ay, Yupiter, Günəş).*

Müəllim: – Gəlin indi göy cisimləri haqqında cizgi filmindən bir parçaya baxaq.
Filmə baxışdan sonra uşaqlarla müzakirə aparıram. Uşaqlar bu cismin Günəş olduğunu, onun əlamətlərini sadalayırlar.

**Tədqiqat sualı:** Günəş və buludun yerdəki canlılara hansı xeyri var?

**Tədqiqatın aparılması.** Mətni şagirdlərə oxuduram. Cütlərlə işləmək üçün işçi vərəqlərini paylayıram. Şagirdlər eyni vaxtda işə başlayırlar.

**1-ci cütlük.** Günəşin və buludun xüsusiyyətlərini göstərin.
**2-ci cütlük.** Mətndə verilmiş təbiət hadisələrini izah edin.
**3-cü cütlük.** Mətnin ideyasını müəyyənləşdirməyə çalışın. Bu mövzuya uyğun daha hansı mətn sizə tanışdır?

**I cütlük**

- **Günəş və buludun xüsusiyyətlərini göstərin.**

| Günəşin xüsusiyyətləri | Buludun xüsusiyyətləri |
|---|---|
| 1 | 1 |
| 2 | 2 |
| 3 | 3 |
| 4 | 4 |

2.Rəngləyin



**II cütlük**

- **Cümlənin mənasını izah edin.**

**Batmaq vaxtı gələndə günəş şüalarını sa və məlum oldu ki, onların hamısı, hətta kiçiyi də öz yerindədir.**



**III cütlük**

**Mətnin ideyasını müəyyən edin.**
**Bu mövzuya uyğun daha hansı mətn sizə tanışdır?**

**4-cü cütlük.** Yerdəki canlıların günəşdən aldığı pay nədir?
**5-ci cütlük.** İnsanlara xas olan xüsusiyyətləri sadalayın.

## IV cütlük

**Yerdəki canlıların günəşdən aldığı pay nədir? sadalayın.**



## V cütlük

**İnsanlara xas olan Keyfiyyətləri**

| Müsbət | Mənfi |
|---|---|
| XEYİRXAH | XƏBİS |
| MEHRİBAN | PAXIL |
| SƏXAVƏTLİ | KOBUD |
| ƏLİACIQ | XƏSİS |
| QAYĞIKEŞ | ƏZAZİL |

**Müzakirə.** İşlərini qurtardıqdan sonra şagirdlər işçi vərəqlərini yazı taxtasından asırlar. Cütlər bir-bir öz işlərini təqdim edirlər.

Təqdimatdan sonra uşaqlar iş dəftərində (səh. 88, tapşırıq 1) tapşırığı yerinə yetirirlər. Onların tapşırığı necə yerinə yetirmələrinə nəzarət edirəm.

**Nəticə və ümumiləşdirmə.** Uşaqlar Yer kürəsində yaşayan bütün canlılara buludun və Günəşin xeyir verdiyini söyləyirlər.Yağış yağır, göyün üzü açılır, ağaclar, otlar su içir. Günəş öz işığını, istiliyini hər tərəfə çatdırır. Bütün canlılar bu paydan bəhrələnirlər. Uşaqlar Günəşlə buludun yerdəki canlılarla oxşar olduqlarını da qeyd edirlər. Bəzi insanlar Günəş kimi əliacıq, mehriban, xeyirxah, paylaşmağı bacaran, xoş rəftarlıdırlar. Bəzi insanlar isə bulud kimi başqalarına həm paxıllıq, həm də məzəmmət edir, sonra da peşman olurlar.

Dərsi yekunlaşdırarkən şagirdlərə hər zaman mehriban, səmimi, xeyirxah, paylaşmağı bacaran, ətrafdakılara qarşı diqqətli olmalarını tövsiyə edirəm.

**Qiymətndirmə.** Meyarlar cədvəlinə uyğun aparılır.

| meyarlar | cütlüklər | | | | |
|---|---|---|---|---|---|
| | 1 | 2 | 3 | 4 | 5 |
| Həyatda gördüklərini mövzunun ideyası ilə bağlayırlar. | | | | | |
| Mətni ifadəli oxuyurlar. | | | | | |
| Sözləri qrammatik qaydalara əsasən təhlil edirlər. | | | | | |
| Əməkdaşlıq edirlər. | | | | | |
| Vaxtdan qənaətlə istifadə edirlər. | | | | | |

**Ev tapşırığı.** Xeyrxahlıq haqqında bir neçə cümlədən ibarət mətn qurun.

# AZSAYLI XALQLARIN TƏHSİL HÜQUQU HAQQINDA

**İlhamə Əsədova,**
ARTPİ-nin elmi işçisi



**açar sözlər:** unikal, kompakt, etnik, etnos, polietnik, etnolinqivistik, tədris planı, regional dillər, sivilizasiya
**ключевые слова:** уникальный, компактный, этнический, полиэтнический, учебный план, региональные языки, цивилизация.
**key words:** unique, ethnieity, compakt, multiethnic, curriculum, regional languages, civiliration.

Dünya sivilizasiyasının ən qədim ocaqlarından sayılan, öz müxtəlifliyi ilə Qafqaz regionunda yerləşən, polietnik dövlət olan Azərbaycan Respublikası etnik tərkibinin zənginliyinə görə dünyanın digər dövlətlərindən xeyli fərqlənir. Respublikada onlarla xalqın, etnik qrupların nümayəndələri yaşayır.

Avropa Şurasının tamhüquqlu üzvü olan Azərbaycan bu qurumun 1992-ci il noyabr ayının 5-də qəbul etdiyi "Regional və ya azsaylı xalqların dillərinin Avropa Xartiyası"nın prinsiplərini daim diqqət mərkəzində saxlayır. 2003-cü ildən Avropa Şurası Azərbaycan Təhsil Nazirliyi ilə birgə regional layihə həyata keçirir. Layihənin məqsədi iştirakçı ölkələrə milli azlıqların təhsili ilə bağlı qanunvericilik sənədlərinin hazırlanmasında yardım göstərilməsi və milli azlıqların təhsil siyasətində tövsiyələrin təqdim edilməsidir. Layihənin səmərəli həyata keçirilməsi məqsədilə Azərbaycan – Avropa Şurası işçi qrupu yaradıldı. Layihə çərçivəsində 2003-cü ilin may ayında Bakıda " Təhsil siyasəti və milli azlıqlar" mövzusunda seminar keçirildi. Seminarda Azərbaycanda yaşayan azsaylı xalqların nümayəndələri, məktəb direktorları, milli azlıqların icma rəhbərləri iştirak etdilər. Layihə 2007-ci ildə başa çatdırıldı. 2008-ci il, iyun ayının 19–20-də Bakı Pedaqoji Kadrların İxtisasartırma və Yenidənhazırlama İnstitutunda ümumtəhsil məktəblərinin müəllimləri üçün mədəniyyətlərarası və dinlərarası dialoqla bağlı mövzuların tədrisinə həsr olunmuş treninqlər keçirildi. Növbəti mərhələdə keçirilən işçi seminarlarında müəllimlər üçün mədəniyyətlərarası təhsil üzrə "Tarixin tədrisinə çoxtərəfli yanaşmalar " adlı dərs vəsaiti hazırlanaraq nəşr edildi.

Azərbaycan Respublikası ərazisində azsaylı xalq və etnik qrupların yaşadığını, onların inkişafı üçün əlverişli şəraitin yaradılması ehtiyacını nəzərə alaraq "Azərbaycan Respublikasında yaşayan milli xalq və etnik qrupların hüquq və azadlıqlarının qorunması, dil və mədəniyyətinin inkişafı üçün dövlət yardımı haqqında" Azərbaycan Respublikası Prezidentinin 16 sentyabr, 1992-ci il tarixli Fərmanı azsaylı xalqların və etnik qrupların həmişə dövlətin diqqət mərkəzində olduğunu göstərir. 1993-cü ildə ümummilli lider H.Əliyevin imzaladığı sərəncamda etnik azlıqların təhsili, mətbuat mərkəzi, televiziya və radio ilə xüsusi

verilişlərin təşkili, öz etnosuna mənsubluq, milli ənənələrinə, tarixinə hörmət, milli dilin və mədəniyyətin öyrənilməsi məsələləri tam əhatə edilmişdir. Azərbaycan Respublikasının Konstitusiyasında və Təhsil haqqında Qanunda azsaylı xalqların, millətlərin və etnik azlıqların mənafeyinə xidmət edən maddələr öz əksini tapır.

Azərbaycan Respublikası Konstitusiyasının 21-ci maddəsində deyilir: "Azərbaycan Respublikası əhalinin danışdığı başqa dillərin sərbəst işlədilməsini və inkişafını təmin edir. 45-ci maddədə ana dilindən istifadə hüququ təmin olunur: "Heç kəs ana dilindən istifadə hüququndan məhrum edilə bilməz".

Azərbaycan Respublikasının Təhsil Qanununda deyilir: "Dövlət cinsindən, irqindən, dilindən, dinindən, siyasi əqidəsindən, mülki və sosial vəziyyətindən, mənşəyindən, sağlamlıq imkanlarından asılı olmayaraq, hər bir vətəndaşa təhsil almaq imkanının yaradılmasına və ayrı-seçkiliyə yol verilməməsinə təminat verir". Həmin qanunun 7-ci maddəsində təhsil dili haqqında deyilir: "Vətəndaşların və təhsil müəssisələrinin istəyi nəzərə alınaraq, xüsusi hallarda ümumtəhsil müəssisələri Azərbaycan dili, Azərbaycan ədəbiyyatı, Azərbaycan tarixi, Azərbaycan coğrafiyası fənləri tədris olunmaqla müvafiq dövlət təhsil standartları əsasında digər dillərdə aparıla bilər. Azərbaycan dilini zəif bilən təhsilalanlar üçün müvafiq icra hakimiyyəti orqanlarının müəyyən etdiyi qaydada və təhsil proqramına uyğun hazırlıq sinifləri və kursları təşkil olunur".

2010-cu il, dekabrın 21-də qəbul edilmiş "Təhsil haqqında Azərbaycan Respublikası Qanunu"nun tətbiqi ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişiklik və əlavələr edilməsi barədə Azərbaycan Respublikası Qanununun 6-cı maddəsində təhsil dilinə dair dəyişikliklər öz əksini tapır: " 6.2. Cəmiyyətin tələblərinə, vətəndaşların və təhsil müəssisəsinin arzusuna müvafiq olaraq müəyyən təlim-tərbiyə müəssisəsi bazasında dövlət standartları çərçivəsində mütləq Azərbaycan dili, Azərbaycan ədəbiyyatı, Azərbaycan tarixi, Azərbaycan coğrafiyası tədris olunmaqla azsaylı xalqların dilində, həmçinin xarici dillərdə təlim aparıla bilər. 6.3.Təhsil dili seçmək hüququ müvafiq qaydada siniflər, qruplar açılması və onların fəaliyyəti üçün şərait yaradılması yolu ilə təmin edilir". Bu, Azərbaycan Respublikası ümumtəhsil məktəblərinin nümunəvi Əsasnaməsinin 9-cu maddəsində də təsbit olunur: "Təlim ana dilində olmayan məktəblərdə azsaylı xalqların uşaqları üçün hazırlıq sinifləri açıla bilər".

Azərbaycanda yaşayan bütün xalqların qədim köklərini öyrənmək haqqında 16 sentyabr, 1992-ci il tarixli Azərbaycan Respublikası Prezidentinin Fərmanında deyilir: "Azərbaycan Respublikası Elmlər Akademiyası və Bakı Dövlət Universitetində Azərbaycanda yaşayan bütün xalqların qədim kökləri, tarixi inkişafı, dil və ədəbiyyatının tətbiqini təmin etmək, onu dünya tələbləri səviyyəsinə qaldırmaq məqsədilə semitologiya, antik dillər, Qafqazşünaslıq kafedraları və şöbələri açılsın, burada şumer, elam, alban, hun, xəzər və başqa qədim etnosların tarixi və mədəni irsini araşdırmağa qadir olan mütəxəssislər hazırlansın. Bu məqsədlə xaricdən mütəxəssislər dəvət olunsun və xaricə, dünya əhəmiyyətli elm və

tədris ocaqlarına tələbə, aspirant və elmi işçilər ezam edilsin, bütün xərclər dövlət büdcəsi hesabına ödənilsin".

Azərbaycanda azsaylı xalqların sıx yerləşdiyi ərazilərdə orta məktəb proqramı üzrə, Bakı, Sumqayıt şəhərlərində isə fakültativ məşğələlər keçmək yolu ilə həmin xalqların dil və ədəbiyyatının öyrədilməsi üçün tədbirlər həyata keçirilir. Respublikanın 13 rayonunda yaşayan etnik qrupların uşaqları öz milli adət və ənənələrini , mədəniyyətini, tarixini öyrənmək imkanına malikdirlər.

Azərbaycan Dövlət Dillər Universitetində azsaylı xalqların filologiyası şöbəsi və müvafiq kafedra açılmışdır. M.A. Əliyev adına Azərbaycan Dövlət İncəsənət Universitetinin Quba filialında, M.Ə. Sabir adına Pedaqoji Məktəbin Qusar filialında Dağıstan xalqları, yerli əhali və azsaylı xalqların məktəbləri üçün kadrlar hazırlanması, respublikanın dağlıq rayonlarında azsaylı xalqların gənclərinin və respublikadan kənarda yaşayan soydaşlarımızın ali və orta ixtisas məktəblərinə güzəştli qəbulu haqqında təkliflər hazırlanb həyata keçirilir.

Respublikamızda yaşayan talış, tat, udin, saxur və başqa xalqların ana dilləri ilə əlaqədar dərsliklərin tərtibi üzrə xeyli iş görülmüşsə də, kürd, buduq, xınalıq və b. xalqların uşaqları üçün proqram, dərslik və dərs vəsaitlərinin hazırlanması günün tələbidir.

**ədəbiyyat**


1. Azərbaycan Respublikası Qanunvericilik toplusu, 2005, № 7
2. Azərbaycan Respublikasının Konstitusiyası
3. Azərbaycan Respublikasının Təhsil Qanunu
4. Azərbaycan Respublikası ümumtəhsil məktəblərinin nümunəvi Əsasnaməsi
5. Azərbaycan Sovet Ensiklopediyası ,IX cild


**Право на образование малочисленных народов**
**резюме**


В статье дается информация об учебной программе подготовленной для общеобразовательных школ, изучающих языки малочисленных народов и этнических групп, живущих в Азербайджане. Рассказывается о мероприятиях, проводимых на государственном уровне, направленных на изучение, сохраение и развитие языка, культуры, истории , и традиции малочисленных народов.


**Edicational issuts of ethnic groups livinq in Azerbaijan**
**summary**


The article informs about the school curriculum mhich is prepared for the tcaching of language of few peoples, ethnic groups liveng in Azerbaijan. Here is spoken about the state level morks mhich are done by Azerbaijan Republic for learning and naintaining the culture, language, history, tradition of ethnic groups.

# İBTİDAİ SİNİFLƏRDƏ LÜĞƏT ÜZRƏ İŞİN SƏMƏRƏLİLİYİNİN TƏMİN EDİLMƏSİ YOLLARI

**Nərmin Qazıyeva,**

Azərbaycan Müəllimlər İnstitutunun magistrı

**açar sözlər:** dil normaları, lüğət üzrə iş, orfoqrafiya, yazı təlimi

**ключевые слова:** языковые нормы, словарная работа, орфография, обучение письма

**key words:** linguistic norms, dictionary work, spelling, learning letters



Azərbaycan dili proqramı təkmilləşdirilərkən nitq inkişafı üzrə işlərə geniş yer verilməsi əsas prinsiplərdən biri kimi nəzərdə tutulmuşdur. Bu prinsipin mahiyyəti izah olunmuş, məzmunu dəqiqləşdirilmişdir. Aydın olur ki, Azərbaycan dilindən hər bir mövzunun tədrisi şagirdlərin təfəkkürünün, yazılı və şifahi nitq vərdişlərinin inkişafına güclü təsir göstərməli və təlimdə başlıca istiqamət kimi götürülməlidir. Nitq inkişafı ilə bağlı işlər qarşılıqlı vəhdətdə olan aşağıdakı istiqamətlərdə həyata keçirilməlidir:

–şagirdlərin ədəbi nitq normalarına (ədəbi tələffüz normaları, söz yaradıcılığı, sözün quruluşu, leksik mənası, üslubi xüsusiyyətləri, söz birləşmələri və cümlələrin qurulması) yiyələnmələri ilə əlaqədar işlər;

–şagirdlərin lüğət ehtiyatını və nitqin qrammatik quruluşunu zənginləşdirməklə əlaqədar işlər;

–şagirdlərin şifahi və yazılı rabitəli nitq vərdişlərini inkişaf etdirmək məqsədilə aparılan işlər.

Bu istiqamətlərdə işlər nitq inkişafında mühüm əhəmiyyət daşıyır. Şagird öz fikrini aydın, dəqiq,səlis, yığcam və obrazlı ifadə etmək üçün həm zəngin lüğət ehtiyatına, həm də ədəbi tələffüz normalarına yiyələnməlidir. Azərbaycan dili dərsləri həyatla, əməli fəaliyyətlə bağlı olduqda şagirdlər qazandıqları bilikləri asanlıqla tətbiq etmək bacarığı və vərdişlərinə sahib olurlar. Buna görə də oxu prosesində şagirdlərin bilikləri real obrazlarla əlaqədar mənimsəmələrinin əhəmiyyəti böyükdür. Şagirdlərin onları əhatə edən ətraf mühitin əşya və hadisələri haqqında təsəvvürləri səthi, anlayışları dayazdır. Bu mənada şagirdlər həcmcə böyük mətnləri hafizə gücünə əzbərləyib nəql edir, lakin çətin sözlərin mənasını izah edə bilmir, mətnin məzmununu şüurlu qavramırlar.

II–III siniflərin «Azərbaycan dili» dərsliklərində ***park, xiyaban, metro, neft buruğu, fəvvarə, lift , tarla, durna, xırman, sünbül, dərz*** kimi sözlər işlənir. Bunlardan şəhərə aid olan söz və anlayışları kənd məktəbində oxu-

yanlar, kəndə aid olan söz və anlayışları isə şəhər məktəbində oxuyan şagirdlər başa düşməkdə çətinlik çəkirlər. Bu, onunla bağlıdır ki, şagirdlər həmin sözlərlə ifadə olunan əşyaların çoxunu görmədiklərindən aydın təsəvvür etmirlər.

Təcrübə göstərir ki, aşağı sinif şagirdləri əşyaların özünü, şəklini görməklə, əyaniliyin köməyi ilə bilik qazanmağa daha çox ehtiyac hiss edirlər. Əyanilik şagirdlərdə müşahidəçiliyi, obrazlı təfəkkürü, nitqi inkişaf etdirir və anlayış yaradır, öyrənilən biliklərin hafizədə möhkəm qalmasını təmin edir.

Müasir dərslik komplektlərində ana dili dərslərinə verilən tələblər xeyli yüksəldilmişdir. Bu, hər şeydən əvvəl, Azərbaycan dili dərsliklərindəki şəkillərin bədii tərtibatında, keyfiyyətcə yüksəkliyində, rəngarəngliyində özünü göstərir. Əyanilikdən dərsin müxtəlif mərhələlərində istifadə olunur.

Lüğət üzrə işin səmərəliliyini artıran əyani vasitələr özlüyündə bədii mətnlərdəki real hadisə və obrazlar əsasında şagirdlərin hisslərinə təsir edir, onlarda konkret təsəvvürlər yaradır. Əyani vasitələrin rolu o vaxt səmərəli olur ki, şagirdlər həmin əyani vasitələrin aid olduğu əşya və hadisələri təbii şəraitdə olduğu kimi təsəvvür etsinlər. Buna görə də əyani vəsait mətnlə əlaqələndirilərkən təbii şəraitdəki vəziyyət nəzərə alınmalıdır. Sinif şəraitində təbii vəziyyət yaratmaq həmişə mümkün olmadığından mövzu ilə əlaqədar müvafiq yerlərə ekskursiyalar təşkil edilməsi faydalıdır. Qeyd edildiyi kimi, Azərbaycan dili dərsləri ilə əlaqədar istifadə edilməsi vacib olan əyanilik növləri çoxdur. İstər bədii, istərsə də elmi-kütləvi mətnlərin öyrədilməsi zamanı bəzən bunların hər birindən təcrid olunmuş şəkildə, bəzən də bir neçəsindən əlaqəli şəkildə istifadə edilməlidir.

Mətnlərdə əyanilik şagirdlərin lüğət ehtiyatının, estetik hisslərinin zənginləşməsinə, dəqiqləşməsinə, fəallaşmasına, təfəkkür və nitqlərinin inkişafına güclü təsir göstərir. Azərbaycan dili proqramında nəzərdə tutulmuş mətnlər həmin sahələr üzrə aparılan işlərdə əsasdır, əyani vasitələr isə mətnin daha yaxşı mənimsənilməsinə səbəb olur. Ona görə də əyani vasitələr «Azərbaycan dili» dərsliklərində materialların səmərəli öyrədilməsinə xidmət etməlidir.

İstər hər bir mətnin məzmun və ideyasının mənimsədilməsində, istərsə də mənası çətin söz və ifadələrin öyrədilməsində əyani vasitələrdən istifadənin əhəmiyyəti böyükdür.

Müəllim şagirdləri fəallaşdırmaq məqsədilə ifadəli oxudan, sualların qoyulmasından, seçilmiş və oxunmuş materialın şagirdlər tərəfindən yaradıcı şəkildə nəql edilməsindən, sözlə təsvirdən, əsərin səhnələşdirilməsindən və s. yollardan istifadə etməlidir.

Uşaqlar məktəbə qəbul olunarkən müəyyən söz ehtiyatına malik olurlar. Bununla belə, onların nitqində mənası məlum olmayan və ya az məlum olan sözlərə də rast gəlmək mümkündür. Bu, müəllimin tez-tez dərsin gedişini da-

yandırmasına, fasilələrin yaranmasına, beləliklə də, dərsin keyfiyyətinin aşağı düşməsinə səbəb olur. Buna görə də müəllim oxunacaq mətnlə yaxından tanış olmalı, çətin sözləri seçib izah etməlidir. Mənası tanış olmayan sözlər üzərində iş aşağıdakı istiqamətlərdə aparılmalıdır:

–sözün sinoniminin tapılması;

– həmin sözü ifadə edən frazeoloji birləşmələrin işlədilməsi;

–sözün etimoloji təhlili;

–sözün mətn daxilində izah edilməsi.

Oxu dərslərində aparılan lüğət üzrə iş uşaqlarda sözə diqqət tərbiyə edir. Məzmunun şüurlu qavranılmasını təmin etmək üçün mətndəki əsas sözlərə fikir verilməlidir. Bununla yanaşı, ekspressiv, obrazlı ifadələrin təhlili müəllifin məqsədini, əhvali-ruhiyyəsini əks etdirir. Sözlərin izahına keçməzdən əvvəl onları seçib, qruplaşdırmaq lazımdır. Elə sözlər vardır ki, onlar şagirdlərin fəal lüğətinə daxil edilməlidir.

Şagirdlər sözlərin mənasını bilmədikdə, yazıda da səhvə yol verirlər. Bu, ən çox aşağıdakı sözlərin istifadəsi prosesində özünü daha çox göstərir: ***həyat–həyət, nəsr–nəsir, surət–sürət, mübahisə–müsahibə, mərhəba–məhrəba, tələffüz–tənəffüs*** və s.

Bu sahədə işin məzmunu geniş və rəngarəngdir. Onun istiqamətlərini belə müəyyənləşdirmək olar:

–sözün mənasını dəqiq çatdırmaq;

–ayrı-ayrı terminləri izah etmək;

–çoxmənalı sözlərdən düzgün istifadə etməyi öyrətmək;

–tematik lüğətlər tərtib etmək;

–əyanilikdən müntəzəm istifadə etmək;

–morfoloji yolla sözyaratma prosesini izah etmək;

–sintaktik yolla mürəkkəb sözlərin əmələgəlmə qaydalarını izah etmək.

Öyrədici yazılardan istifadə etməklə lüğət üzrə geniş iş aparmaq mümkündür.

Nəzərə alsaq ki, ibtidai siniflərdə lüğət üzrə iş əlifba təlimi dövründən başlayır, onda ən əvvəl çətin anlaşılan sözlərin izahının gərəkliliyi aydın olar. Şagirdlər tərəfindən çətin başa düşülən sözlərin öyrədilməsinin ən asan yolu anlaşılmayan sözün sinonimi ilə əvəz edilməsidir, məsələn, ***ayaz–şaxta, cani–qatil, çeşid–növ, təbib–həkim, libas–paltar, əzəmətli–böyük*** və s. Başa düşülməyən sözlərlə əlaqədar əşyanın (məsələn, kompas) şəklini və ya özünü göstərməklə səmərəli nəticələr əldə etmək mümkündür.

Emosional-ekspressiv təsirə malik olan məcazlar bədii materialın obrazlı dilidir. Bu dili isə metafora, metonimiya, sinekdoxa, təşbeh, epitetlər təşkil edir. İbtidai siniflərdə bədii materialın dilinin obrazları üzərində işə bir sıra məqalələr həsr edilsə də, bu sahədə istiqamətverici ədəbiyyatın çatışmazlığı hiss olunur. Buna görə də məktəb təcrübəsində bəzi nöqsanlara yol verilir. Çox zaman şagirdlər sözlərin mətndəki yeni çalarını vaxtında tuta bilmir, müəllimin yaratdığı lövhəni anlamır, sözün ecazkar qüdrətini qiymətləndirməkdə çətinlik çəkirlər. Bu, ondan irəli gəlir ki, sözün məcazi mənası müstəqil mənadan – şagirdin məktəbəqədərki dövrdə işlətdiyi adi mənadan uzaqlaşmışdır. Düzdür, bu məna həqiqi mənaya nisbətən daha geniş əhatəli,

daha təsirli olur. Şagirdi isə, ilk növbədə, sözün qrammatik xarakter daşıyan həqiqi, müstəqil mənası cəlb edir.

Hazırda uşağın nitqinə, fəal lüğətinə ətraf mühit, qəzet, radio, televiziyanın təsiri ilə çoxlu yeni sözlər daxil olur. Uşaq mənasini başa düşmədiyi bu sözlərdən yerli-yersiz istifadə edir. Bir müddətdən sonra, onun həyat təcrübəsi, biliyi artdıqca həmin sözlərin mənası dəqiqləşir, dolğunlaşır.


**ədəbiyyat**

1. Kərimov Y.Ş.Ana dilinin tədrisi metodikası. Bakı: "Kövsər", 2011
2. Kərimov Y.Ş.İbtidai siniflərdə lüğət işin. Bakı : "Maarif", 1971
3. Kərimov Y.Ş. Məktəbəqədər yaşlı uşaqların nitq inkişafının metodikası. Bakı: "Nasir", 1997



**Факторы, мешающие развитию словарной работы и расширение значения слова в речи младшешкольников**

**резюме**

Обучения чтения и письма, грамматике и орфографии, также активизации и обогащения словарного запаса ученика, развития устной и письменной речи должны служить языковому занятию. На каждом уроке по языку, а также на каждой стадии занятия усть все возможности расширения и обогашения словарного запаса ученика.



**Faktors that prevent the development oa vokabulare and ekspansion of the motion of vords in the speech of students**

**summary**

Teachinq of reading and writing. learning of grammar and spelling ,rein¬forcement and of the student,s vocabulary, the development of oral and written language should serve to language trainings. At each lesson on language, as well as at each stage of training there are all the opportunities of expanding and enrichment of student vocabulary.


# DƏRSLİKLƏRDƏ DİL QAYDALARININ VERİLMƏSİ MƏSƏLƏLƏRİNƏ DAİR




**Nərmin İslamova ,**

Azərbaycan Müəllimlər İnstitutu, magistr



**acar sözlər:** dil normaları, aktiv təlim, texnologiyalar

**ключевые слова***:* языковые нормы, активное обучение, технологии

**key words**: lavguage rules, active learning, texnology


Dərsliklərin təhlili göstərir ki, şagirdlər I sinifdə səs, heca, söz və cümlə ilə bağlı ilkin qrammatik anlayışlara və bundan irəli gələn sadə vərdişlərə yiyələnirlər. Bu vərdişlər vaxtilə "Əlifba", indi isə "Azərbaycan dili" adı altında nəşr edilən I sinif dərsliklərində

fonematik təhlil nümunələri vasitəsilə, praktik yolla aşılanır. II sinifdən başlayaraq "Azərbaycan dili" dərslikləri müəyyən qayda, tərif, məlumat xarakterli nəzəri ümumiləşdirmə, müxtəlif səpkili tapşırıq, cədvəl, sxemlər, şəkillərdə əks olunmuş praktik iş numunələri vasitəsilə dilimizin səs sistemi, lüğət tərkibi, qrammatik quruluşu haqqında lazımi anlayış və təsəvvür yaratmaqla şagirdlərə düzgün yazı və oxu vərdişləri aşılayır, onların nitq mədəniyyətini formalaşdırır. Eyni zamanda, dil faktları və hadisələri üzərində müşahidə, onların oxşar və fərqli cəhətlərinin üzə çıxarılması, ümumiləşdirmə aparılması və konkret nəticələrə gəlmək yolu ilə şagirdlərin məntiqi təfəkkürü inkişaf etdirilir. 2008–2009-cu dərs ilindən kurikulumların I sinifdən mərhələli tətbiqi dərsliklərin məzmun və struktur baxımından yeniləşməsinə imkan yaratdı. II sinif "Azərbaycan dili" dərsliyinə nəzər salaq.

Təhlil göstərir ki, bu dərslikdə şagirdlərin nitq vərdişlərinin inkişafına istiqamətlənmiş dil qaydalarına və praktik mahiyyət daşıyan çalışmalara yer verilmiş, ***heca, hərf, səs, sait, samit səslər, əlifba sırası, cümlə*** kimi anlayışlar barədə qısa və yığcam məlumatlar öz əksini tapmışdır. "Dil qaydaları" başlığı altında verilən bu materiallar nəzəri ümumiləşdirmə xarakterli şərhlər, izahlar və tapşırıqlar vasitəsilə şagirdlərə çatdırılır. Əsasən orfoqrafiya qaydaları ilə bağlı olan bu şərhlər sözlərin sətirdən-sətrə düzgün keçirilməsinə, fərqli tələffüz olunan sözlərin düzgün yazılışına aiddir. Eyni zamanda, termin işlətmədən sözlərin ad, əlamət, miqdar, hərəkət bildirmələri üzrə bölünməsinə diqqət yönəldilir. Üç və dörd sözü əhatə edən tapşırıqlar, bir qayda olaraq, test formasında işlənsə də, şagirdlərə deduktiv yolla düzgün mühakimə yürütmək vərdişləri aşılayır.

II sinif üçün "Azərbaycan dili" dərsliyində də dil qaydaları ilə bağlı materiallar verilmişdir. Dilin nitq fəaliyyəti zəminində öyrədilməsindən irəli gələn bu xüsusiyyət interaktiv təlim metodlarından geniş istifadəyə imkan yaradır. Ayrıca başlıq altında sadə məntiqi testlərə də yer verilmiş və bununla şagirdlərin idraki bacarıqlarının inkişafı nəzərdə tutulmuşdur. Tapşırıqların bir qismi iş dəftərində, bir qismi müəllimlər üçün vəsaitdə verilmişdir ki, bu da dərslikdəki boşluqları tamamlamağa imkan yaradır. Buna baxmayaraq, yeni dərsliklərin tapşırıqlarının təkmilləşdirilməsinə ehtiyac duyulur.

III sinif üçün "Azərbaycan dili" dərsliyində dil anlayışlarını, qaydaları və hadisələri izah etmək üçün bir çox çalışmalar verilmişdir. Bu çalışmalar şagirdlərdə praktik vərdişlərin yaradılmasına yönəlmişdir. Çalışmaların əksər hissəsi "oxuyun", "yazın", "köçürün" şərti ilə verilərək düzgün tələffüz və yazı vərdişləri formalaşdırmağa istiqamətlənsə də, az bir qismi "izah edin", "şərh edin", "fərqini göstərin","tamamlayın" kimi sözlər vasitəsilə kiçikyaşlı məktəbliləri idraki fəaliyyətə sövq edir. Dərslikdə "Dil qaydaları" başlığı altında verilmiş nəzəri materiallar nitq bacarıqlarının inkişafına yönəlmiş çalışmalar vasitəsilə əməli vərdiş halına salınır. II sinif dərsliyinin məntiqi davamı kimi nəzərdə tutulan bu dərslik də eyni konsepsiya əsasında, oxşar strukturda yazılmışdır. Belə ki, müəlliflərin özlərinin də qeyd etdikləri kimi, dərslikdə, əsasən, oxu və dil

qaydaları üzrə məzmun standartlarını əhatə edən tədris materialları əks olunmuşdur.

Məzmun standartlarının reallaşmasına xidmət edən mətnlər "Sözlük", "Söz ehtiyatı", "Şüurlu oxu", "Düşün və cavab ver" rubrikaları altında verilir və nəzərdə tutulmuş nitq bacarıqlarının inkişafına yardım göstərir. "Dil qaydaları" isə konkret mətndəki nitq materialı ilə əlaqədə şərh olunur.

2011–2012-ci dərs ilində nəşr olunan IV sinif "Azərbaycan dili" dərsliyi həm II, həm də III sinif dərsliklərindən bəsit görünür. Belə ki, IV sinif dərsliyində dil qaydaları ilə bagli əsaslı bir şey verilməmiş, bir-iki sətirlik şərhlər (sözün səs tərkibinin müəyyənləşdirilməsi; ahəng qanunu; şəkilçilərin ahəng qanununa uygun yazılışı; özün leksik və qrammatik mənası; sonu ***q*** və ***k*** samitləri ilə bitən bəzi sözlərin saitlə başlayan şəkilçi qarşısında yazılışı; köməkçi nitq hissələri; qoşa samitlə bitən sözlərin samitlə başlayan şəkilçi qarşısında yazılışı; mürəkkəb sözlərin yaranma üsulu; miqdar sayları ilə işlənən isimlərin cəm şəkilçisi qəbul etməməsi; mürəkkəb cümlə yaqqında çalışmalar) nəzərdə tutulmuşdur.

Təhlil göstərir ki, IV sinifdə verilən dil qaydaları məzmunca olduqça primitiv təsir bagışlayır. Beləliklə, mövcud dərsliklərin dil qaydalarının verilməsi baxımından aşagıdakı mülahizələri söyləmək olar:

1. İbtidai sinif "Azırbaycan dili" dərsliklərində şagirdləri idraki fəaliyyətə sövq edən təlim materiallarına müəyyən dərəcədə yer verilmişdir. Bu dərsliklərdə şagirdləri müstəqil nitq fəaliyyətinə alışdıran praktik bacarıqların formalaşmasına üstünlük verməк istəmişlər.

2. Yeni dərsliklərdə müvafiq dil qaydalarını acıqlanması üçün öyrədici testlər verilib. Testlər vasitəsilə müstəqil idraki bacarıqlara üstünlük verilir. Onlar şagirdlərin əqli fəallıgına istiqamətləndiyi üçün səmərəlidir, lakin dərsliklərdə verilmiş tapşırıqların və testlərin tərtibi səviyyəsi təkmilləşdirilməlidir.

3. Dil qaydalarından istifadəni nəzərə aldıqda, dərsliklərdə buna yetərincə fikir verilmədiyi ən çox IV sinif "Azərbaycam dili" dərsliyində öz əksini tapıb.

**ədəbiyyat**


1.Kərimov Y.Ş. Təlim metodları. Bakı: RS Poliqraf, MMC, 2009

2. I –IV sinif "Azərbaycan dili" dərslikləri

3."Kurikulum" jurnalı


**Задачи преподавания языковых норм**

**резюме**


Применение интерактивных способов обучения дает возможность свободного познания не путем зубрежки языковых норм, а их анализа, наблюдения и обобщения ученика на основе фактов и событий.


**Tasks use of teacinq language norms in the textbook**

**summary**


The use of interactive teacinq methods allows free understanding of language norms by student observation on the basis of fakts and events and their analysis and generalization.

# İNŞALARIN YAZILMA QAYDALARI

**Qızqayıt Qocayeva,**
Azərbaycan Müəllimlər İnstitutunun magistrı



**açar sözlər:** rabitəli nitq, təlim prosesi, şagird , ifadə, inşa, nəqli xarakterli inşa

**ключевые слова:** связная речь, учебный процесс, ученик, изложение, сочинение, повествовательное предложение

**key words:** connected speech, training process, compound words, pupil, ekspression, composition, declarative sentence

Rabitəli nitqin inkişafının mühüm vasitəsi olan ifadə və inşa yazılar orfoqrafiya təliminə də xidmət edə bilər. Yazının bu növlərinin qarşısında rabitəli nitqin inkişafından əlavə müəyyən qrammatik-orfoqrafik vəzifələr də qoymaq lazım gəlir. İmlaya nisbətən ifadə və inşanı orfoqrafik səhvə yol vermədən yazmaq daha çətindir, çünki bu növ yazılar müəllimin bilavasitə köməyi olmadan yerinə yetirilir.

Nəqli xarakterli inşalar şagirdlərin dərsliklərdən oxuduqları material və ya müəllimin nəql etməsi əsasında yazdıqları inşalardır. Nəqli xarakterli inşada bir-biri ilə əlaqəli hadisələrdən bəhs olunur. Müəyyən süjetə malik olması onu hekayəyə yaxınlaşdırır. İfadə yazılar zəminində təşəkkül edən belə inşalar şagirdləri o qədər də çətinə salmır.

Nəqli xarakterli inşalara hazırlıq prosesində müəllim oxunmuş hekayənin təhlilini təşkil etməli, şagirdlərin diqqətini əsərdə iştirak edən personajların danışığına, ayrı-ayrı söz və ifadələrə yönəltməlidir.

Nəqli xarakterli inşa üçün elə mətn seçilməlidir ki, o, şagirddə müəyyən əşya və hadisə haqqında canlı təsəvvür yaratsın. Şagird əsərin qəhrəmanının keçirdiyi halları hiss etsin, yaşasın.

İnşanın bu növü başlanğıc üçün daha münasibdir. Uşaqlar nağıllara daha çox meyil etdiklərindən fikirlərini ifadə etmək üçün münasib sözlər tapırlar. İnşa üçün seçilən bədii əsər kiçik həcmli, maraqlı olmalı, dilinin sadəliyi, obrazlılığı ilə diqqəti cəlb etməlidir. Mətnin xarakterindən, həcmindən asılı olmayaraq, belə inşalar ifadədən o qədər də fərqlənmir. Ona görə də inşanın bu növünə yaradıcı xarakter vermək lazımdır. Bu məqsədlə yalnız dərslikdən oxunmuş mətnlər üzrə deyil, həm də başqa kitablardan oxunmuş mətnlər üzrə inşalar yazdırılmalıdır. İlk dəfə eşitdikləri mətn üzrə inşa yazarkən şagirdlər az-çox yaradıcılıq göstərmiş olurlar. Onlar mətnin məzmununu ilk dəfə eşitmələrinə baxmayaraq, fikrən onu planlaşdırır, yadda saxlayır, bəzi sözlərin yazılışı üzərində düşünürlər.

Nəqli inşalara yaradıcı xarakter vermək üçün elmi-idraki mətnlərdən də istifadə etmək lazımdır.

Məktəb təcrübəsində bir çox müəllimlər inşanın bu növünə üstünlük verirlər. Onların fikirncə, inşanın bu növü daha asandır. Müşahidələr göstərir ki, əslində təsvir kiçikyaşlı məktəblilər üçün müəyyən çətinlik törədir. Təsviri xaraketrli inşalar öz təbiəti etibarilə müşahidə üzrə inşalara çox yaxındır, çünki müşahidəsiz təsvir etmək mümkün deyil. Belə yazılar böyük müşahidəçilik qabiliyyəti və dialektik düşüncə tərzi tələb edir.

Vaxtilə Lev Tolstoy da Yasnaya Polyana məktəbində özünün praktik fəaliyyətindən bəhs edərək yazmışdır : "Ən təbii yolla başımıza gələn ilk mövzular sadə əşyaların təsviri idi: çörək, daxma, ağac və s., lakin son dərəcə təəccüblüdür ki, bu tələb şagirdləri ağlatdı. Onlar qəti şəkildə belə mövzuda yazmaqdan imtina etdilər. Donuz, dibçək, stolun təsviri hekayədən götürülmüş təəssuratı yazmaqdan çətin idi".

K.D.Uşinski isə təsvir əsasında yazının asan olduğunu qeyd edir və mahiyyət etibarilə onun inşa deyil, suallara cavab olduğunu bildirirdi. Təsvir zamanı əşya göz qabağında olur. Belə inşalarda təbiət mənzərəsi, ayrı-ayrı əşya və hadisələrin əlamətləri təsvir olunur, onlar haqqında tam və dəqiq məlumat verilir. Təsvir hekayənin bir elementi kimi çıxış edir, bəzi hallarda isə inşanın başlıca məqsədinə çevrilir. Bu zaman şagirdlər sadəcə olaraq gözlə gördüklərini sadalamır, xarici hissetmə orqanları vasitəsilə dərk olunanları da təsvir edirlər. Onlar şəxsi təcrübə və müşahidə vasitəsilə şüura daxil olanlarla yanaşı, eşitmə, yaxud oxu prosesində gözlə qavradıqları məlum obrazları da sözlə ifadə edirlər.

Məktəb təcrübəsi göstərir ki, təsvir-inşalar bir sadə əşya, əvvəllər üzərində müşahidə aparılmış mürəkkəb əşya, təbiət hadisəsi, mənzərə və ya əmək prosesinin müşahidəsi əsasında yazılır.

Təsvir xarakterli inşanın ən sadə növü məlum əşyanın (stol, stul, qazan, qaranquş, dovşan və s.) təsviridir. Bu inşanı yazarkən əşya bilavasitə şagirdlərin gözləri qarşısında olmalıdır. Bu mümkün olmadıqda onların müqəvvaları, maketləri, yaxud aydın təsvirlərindən istifadə edilməlidir.

Quşların müqəvvalarını göstərib, onların haqqında yazmağı tələb etdikdə şagirdlər yalnız gördüklərinin adlarını yazırlar. Ona görə də əvvəlcədən həmin varlıq üzrə əşya dərsi təşkil olunmalıdır. Əşya dərsində müvafiq suallarla, müəllimin göstərişi ilə müşayiət olunan müşahidə konkret təsəvvür yaradır. Belə dərsdə şagirdlərin diqqəti əşyaların müxtəlif əlamət və əlaqələrinin müəyyənləşdirilməsinə yönəldilir. O, müşahidə fəaliyyəti ilə eşitmə, oxu, inşa arasında əlaqə yaradır. Beləliklə, yeni söz genişlənən əlaqələr sistemində işlənir. Müşahidədən sözə, sözdən müşahidəyə keçid prosesində obraz və söz arasında qarşılıqlı əlaqə yaranır. Bu prosesdə nitq qıcıqlandırıcısı üç formada (kinestetik, eşitmə və görmə) çıxış edir. Bir sözlə, əşyanın müşahidəsi əsasında yazı müsbət nəticə verir.

II-III siniflərdə bir qədər mürəkkəb əşyalar (dələ, tısbağa, sağsağan, ağacdələn, tərəvəz, ağac yarpaqları, taxıl bitkiləri və s.) üzrə iş aparılır.

Əşya şagirdlərin yaxşı görə bildikləri yerə qoyulmalıdır ki, onlar həmin əşyanı diqqətlə müşahidə edə bilsinlər. Müəllim şagirdlərin diqqətini əşyanın əsas elementlərinə yönəltməlidir. Dovşanı təsvir etmək lazım gəldikdə müəllim şagirdlərə belə suallar verə bilər: Böyüklüyü necədir? (Dələ, pişik, it, tülkü və başqa heyvanlarla müqayisə edirlər). Rəngi necədir? Tülkü haqqında nə demək olar? Bədənin hissələrini adlandırın. Başı, gözləri, qulaqları, dişləri necədir? Ayaqları necədir? Quyruğu necədir? Necə hərəkət edir? və s.

II sinifdən etibarən şagirdlər hava, təbiət, insanların əməyi üzərində müşahidələrin nəticələrini gündəliklərində qeyd edirlər. Fəsil dəyişiklikləri, təbiət hadisələri üzərində müşahidələr təsvir xarakterli inşalar üçün material verir.

Bəzən şagirdlərin diqqətini bir əşyaya yönəldərək onu təsvir etməyə hazırlamaq mümkündür, məsələn, şagirdlər payızda çinar ağacı üzərində qısamüddətli müşahidədən sonra onu təsvir edə bilərlər. Belə inşada çinarın nəhəngliyi, onun çox hündür və qol-budaqlı olması, gövdəsinin yoğunluğu, qabığının özbaşına soyulub tökülməsi, altdan ağaran yeni qabığın görünməsi, yarpağının qaz ayağına bənzərliyi, bəzilərinin sarıtəhər, bəzilərinin isə yaşıl olması, arxa tərəfinin ağ olması, meyvəsinin yumru, tikanlı, qəhvəyi rəngdə olması, şabalıda bənzəməsi, əsəndə yarpaqlarının xışıldaması və s. qeyd olunur. Sinifdəki təbiət təqvimində aparılan qeydlər əsasında ay ərzində havanın necə olması, yazın ilk əlamətləri və s. təsvir elementlərini bu mövzuda yazılan inşalara daxil etmək mümkündür.

Təbiətdə baş verən bu və ya digər hadisə (qar, yağış yağması, tufan, çovğun, günəşin çıxması, tutulması, göy qurşağı və s.) üzərində müşahidədən sonra onun təsvirini verməyi təklif etmək olar.

II sinif şagirdlərinin dərsdənkənar vaxtlarda müxtəlif heyvanlar və quşlar, II-IV sinif şagirdlərinin məktəb həyəti, dirrik, tarla, park, stadion üzərində müstəqil müşahidələri də inşa yazmaq üçün zəngin material verir. Belə müşahidələrin mərhələliliyini təmin etmək üçün müşahidə zamanı şagirdlərə nələrə xüsusi diqqət yetirmələri haqqında məsləhət vermək lazımdır.

II sinifdə şagirdlərə inşanı yazmaq üçün sadə planın verilməsi məsləhət görülür, məsələn, inək haqqında yazılacaq inşaya belə plan vermək olar: a) bədəni, b) rəngi, c) başı, ç) ayaqları, d) quyruğu, e) necə hərəkət etməsi, ə) necə səs çıxarması, i)insanlara xeyiri və s. Şagirdlər inəyin bədəninin böyük, sarı, kök, başının uzunsov, buynuzlarının iri, şiş, gözlərinin iri, qulaqlarını sallaq, ayaqlarının qısa, yoğun, iki dırnaqlı, quyruğunun uzun, tüklü olması, quyruğu ilə həşəratları qovması, dili ilə balasını yalaması, otlaması, su içməsi, gövşəməsi və böyürməsinə fikir verirlər. Növbəti dərsdə hər kəs öz təəssuratını bildirir. Müəllim şagirdlərin dediklərini dəqiqləşdirdikdən, tamamladıqdan sonra inşanın yazılmasına başlanır.

III sinifdə qısa plan verib, inşanı müstəqil yazmağı tələb etmək olar, məsələn, keçi üzərində müşahidə üçün belə plan verilir: 1) keçinin xarici görünüşü; 2) nə ilə qidalanması; 3) sənin ona münasibətin.

Şagirdlərin yazdıqları inşalardan bir nümunə: "Bizim bir keçimiz var. Onun adını Şəngülüm qoymuşuq. Keçinin rəngi qaradır, amma böyürlərində, alnında

ağ xallar var. Onun tükləri uzun və kobuddur. Dik qalxan iri buynuzları azca geri əyilib. Onun kiçik, nazik ayaqları tüklərinin arasından zorla görünür. Hər ayağında bir cüt xırda dırnaqları var. Quyruğu gödəkdir. O, tez-tez quyruğunu qaldırıb oynadır.

Şəngülüm tövlədə qalanda çox mələyir. Buynuzunu sürtüb qapını açmaq istəyir. Onu buraxan kimi çəmənliyə qaçır. Bağa girib, körpə ağacların yarpaqlarını yeyir, gövdəsini gəmirir. Mən onu qovuram, o isə qaçıb qayaya dırmaşır."

Bənzər əşyaların müqayisə edilməsi əsasında inşaların yazılması uşaqlar üçün maraqlıdır. II sinifdən etibarən küknarla şamı, stolla stulu, qazla ördəyi, pişiklə pələngi müqayisə etmək ən zəif şagirdin də nitqini inkişaf etdirir.

İlkin təcrübə əsasında müəyyən bacarıqlar yarandıqdan sonra III-IV siniflərdə günəşin doğması və batması, payızda və yayda meşənin müqayisəsi haqqında inşa yazdırmaq mümkündür. Belə yazılar şagirdlərin lüğət ehtiyatının zənginləşdirilməsində, məntiqi təfəkkürünün inkişafında mühüm rol oynayır.

Təsvir xarakterli inşaların yazılma qaydasını öyrətmədən, belə yazıları müntəzəm yazdırmadan şagirdlərə bu vərdişləri aşılamaq mümkün deyil. Bu istiqamətdə hazırlıq görməmiş və sistemli hazırlıq yolu keçmiş iki şagirdin " Bizim mənzilimiz " mövzusunda inşasını müqayisə edək:

"Biz yeni binada yaşayırıq. Mənzilin üç otağı var. Birində böyük stol, bufet, stullar, divan qoyulub. O birində üç çarpayi, güzgü, şifoner var. Üçüncü otaqda isə kitab şkafları, yazı stolu, televizor, qəzet üçün kiçik stol qoyulub."

"Biz böyük və yaraşıqlı binada yaşayırıq. Mənzilimiz üçüncü mərtəbədədir. Mənzilimiz üç otaqlıdır. Vanna otağı və mətbəx də var. Otaqlar geniş, işıqlı və təmizdir. Otaqlardan birinin üç, o birilərinin iki pəncərəsi var. Pəncərələrdən gözəl naxışlı pərdələr asmışıq. Otaqlardan biri mavi, ikincisi sarı, üçüncüsü isə çəhrayı boya ilə rənglənmişdir. Döşəməyə əlvan xalçalar döşənib. Divarlarda gözəl mənzərə şəkilləri asılıb.

Dəhlizdə paltarasan, güzgü, telefon qoyulmuşdur. Mətbəxtdə isə hər şeyin öz yeri var. Biz evimizi təmiz və səliqəli saxlayırıq."

Göründüyü kimi, birinci inşa mənzilin təsvirindən daha çox mebel mağazasının təsvirini xatırladır. O biri yazıda yol verilmiş bəzi nöqsanlara baxmayaraq təsvir elementləri, dəqiqlik özünü daha çox göstərir.

**ədəbiyyat**

1. Kərimov Y. Ana dilinin tədrisi metodikası. Bakı: "Kövsər", 2011
2. Kərimov Y. İbtidai siniflərdə yazılı inşalar. Bakı: "Nasir", 2003
3. Kərimov Y. Təlim metodları. Bakı: RS Poliqraf , MMC, 2009

**Правилы писания сочинений**
**резюме**
В статье рассказывается о развитии связной речи учеников начальных классов и отмечается роль сочинений в этом. Особо выделяется повествовательные и изобразительные виды сочинений.

**The terms writings essays**
**summary**
The paper describes the development of coherent speech primary school students and notes the role of the works in it. Highlights the types of narrative and visual works.

# İBTİDAİ SİNİFLƏRDƏ ŞAGİRD NAİLİYYƏTLƏRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

**Səmayə Razizadə,**
164 nömrəli məktəbin müəllimi



**açar sözlər:** ibtidai sinif şagirdləri, formalaşdırma, təlim, bilik və bacarıqlar, praktik çalışmalar, fəallıq, təhlil etmə, özünəinam, qiymətləndirmə

**ключевые слова:** ученики начальной школы, формирование, обучение, умения и навыки, практические задания, активность, анализ, самодоверие, оценивание

**key words:** elementary school students, formation, training, skills, practical study, activity, analysis, self reliance, assessment

Təlim prosesinin nəticələrinin obyektiv qiymətləndirilməsi müasir tədrisin qarşısında duran ən aktual problemlərdən biridir. Şagirdlərin təlim nailiyyətlərinin qiymətləndirilməsi, onların bilik, bacarıq və vərdişlərinin mövcud vəziyyətinin öyrənilməsinə, hər hansı nöqsanın aşkar edilərək aradan qaldırılmasına, qabaqcıl təcrübənin yayılmasına, təlim-tərbiyə prosesinin dinamik inkişafına zəmin yaradır.

Təlimin dinamik inkişafı ibtidai sinif şagirdlərində müstəqillik və fəallıq formalaşdırır, onları dərslik, dərs vəsaiti və digər tədris materialları ilə işləməyə hazırlayır. Bu zaman kiçik yaşlı məktəblidə idraki bacarıqlar formalaşır. Bu proses vaxtaşırı təkrarlanır və əks-əlaqə yaranır. Bu əks-əlaqə son nəticənin alınmasında məlumat rolunu oynayır. Məlumata əsasən təlim prosesinin qiymətləndirilməsi həyata keçirilir. Bu isə təlimin icraolunma keyfiyyətinin müəyyən göstəricilər əsasında öyrənilməsi, təhlili, müqayisəsi kimi başa düşülməlidir.

Qeyd edək ki, təlim prosesində qiymətləndirməyə ənənəvi olaraq ancaq şagirdlərin necə mənimsəmələrini müəyyən edən vasitə kimi baxılırdı. Bu isə qiymətləndirmə anlayışının imkanlarını məhdudlaşdırırdı. Qiymətləndirmədə əsas məqsəd təlimin keyfiyyətinin yaxşılaşdırılması olmalıdır. Tədrisin effektiv planlaşdırılması yalnız kiçikyaşlı məktəblinin bilik və bacarıqlarında deyil, həm də fəaliyyəti, inkişafı, qavrama qabiliyyəti qiymətləndirmə prosesinin əsasını təşkil etməlidir. İnteraktiv təlim tətbiq edildikdə etibarlı öyrənmə prosesi yaranır, öyrənənlərə özünütəkmilləşdirmə yolu göstərilir. Belə təlim prosesində qiymətləndirmə şagirdə, onun valideynlərinə təlim nailiyyətlərinin inkişafı haqqında məlumat verməyə imkan yaradır. Şagirddə öyrənməyə maraq və motivasiya məhz belə şəraitdə yaranır.

Təlim nailiyyətlərinin qiymətləndirilməsi təkcə şagirdlərin təlim tapşırıqlarını necə yerinə yetirmələri, onların müstəqillik və fəallığının meyarı üçün göstərici deyil. Qiymət şagirdləri fəallaşdırır və növbəti dərslərə səfərbər edir, valideynləri, yoldaşları ilə münasibətlərinə də təsir göstərir. Şagirdin obyektiv qiymətləndirilməsinin tərbiyəvi əhəmiyyəti də böyükdür. Obyektiv qiymətləndirmə şagirdin fəallığına, müstəqilliyinə, çalışqanlığına, işə şüurlu və məsuliyyətli yanaşmasına müsbət təsir göstərir.

Şagird nailiyyətlərinin obyektiv və şəffaf qiymətləndirilməsini həyata keçirmək üçün ən yaxşı vasitələrdən biri də testlərdən istifadədir.Test nəzəriyyəsi ilk dəfə 1864-cü ildə Böyük Britaniyada ingilis alimi Frensis Qalton tərəfindən fərziyyə şəklində irəli sürülmüşdür. Amerika alimi Ceyms Makkin Kettel Qalton nəzəriyyəsinin əsas prinsiplərini inkişaf etdirmişdir. ***Test*** sözü ingilis dilindən götürülüb ***nümunə, sınaq, yoxlama*** deməkdir. Test yoxlamaları qısa müddət ərzində subyektlərin məqsədyönlü, obyektiv şəkildə öyrənilməsi, bilik və bacarıqların səviyyəsinin yoxlanılması prosesidir. Biliklərin səviyyəsi dedikdə, şagirdin test suallarına verdiyi cavablardan asılı olaraq, toplanmış balların cəmini xarakterizə edən ümumi balların müqayisəsi başa düşülür.

Test tapşırıqları digər yoxlama metodlarından sadəliyi və dəqiqliyi ilə seçılir, az vaxt ərzində şagirdlərin bilik və bacarıqlarına dair obyektiv, şəffaf məlumat verir.

İbtidai siniflərdə şagirdlərin təlim nailiyyətlərini müəyyən edərkən üç əsas istiqamətə fikir verilməlidir: oxu savadı, riyazi savad və təbiət elmləri üzrə biliklər. Bu zaman əsas diqqət şagirdlərin qeyd olunan sahələr üzrə anlayışları başa düşmələrinə, qazandıqları bilikləri müxtəlif həyati situasiyalarda tətbiq etmək bacarıqlarına yiyilənmələrinə yönəldilir. Təlim prosesində əsas diqqət şagirdlərin yaddaşını nəzəri məlumatlar və faktlarla doldurmağa deyil, onların təfəkkür və yaradıcılıq qabiliyyətlərinin inkişafına da istiqamətləndirilməlidir. Bu halda nəzəri müddəalar öz dəyərini həyat təcrübəsində doğrulda bilər. İbtidai sinif şagirdlərinin bilik və bacarıq səviyyələrini müəyyənləşdirmək

üçün tətbiq olunan test tapşırıqları kurikulumun tələblərinə uyğun hazırlanmalıdır. İnkişaf etmiş dünya dövlətlərində özünəməxsus yoxlama metodları mövcuddur, məsələn, ABŞ-da bütün məktəblərin III–VIII sinif şagirdləri hər il təhsil orqanları tərəfindən oxu, riyaziyyat və təbiət elmləri üzrə yoxlanılır. Testin nəticələrinə görə məktəblərin, onlara nəzarət edən qurumların işinə və təhsilin keyfiyyətinə qiymət verilir.

Almaniya məktəblərində III sinifdən başlayaraq testlər aparılır və şagirdlər hər 6 aydan bir ayrı-ayrı fənlər üzrə qiymətlərin yazıldığı hesabat kartları alırlar.Yerli təhsil orqanları da milli təhsil standartlarına əsasən şagirdlərin təlim nəticələrini yoxlayır.

Hollandiyada ibtidai siniflərdə rəsmi qiymətləndirilmə aparılmır. Şagirdlərin fəaliyyəti formativ qiymətləndirmə vasitəsilə izlənilir. İbtidai təhsilin sonunda məktəblərin 85%-i çoxvariantlı testlərdən istifadə yolu ilə şagirdlərin ana dili və riyaziyyat fənləri üzrə bilik və bacarıqları qiymətləndirilir.

Türkiyədə daha çox formativ qiymətləndirmədən istifadə olunur. IV siniflərdə şagirdlər arasından təsadüfi seçim etməklə təhsilin keyfiyyətinin monitorinqi məqsədilə türk dili, həyati bacarıqlar və riyaziyyat fənləri üzrə testlər tətbiq olunur.İbtidai təhsildən orta təhsilə keçmək üçün testlər vasitəsilə yekun qiymətləndirmə aparılır. Ümumiyyətlə, ibtidai siniflərdə şagirdlərin təlim nailiyyətlərinin, bilik və bacarıqlarının qiymətləndirilməsinin testlərlə həyata keçirilməsi müsbət hal kimi qiymətləndirilməlidir. Testlər kiçikyaşlı məktəblilərin inkişafında həm psixoloji, həm də pedaqoji aspektdən səmərəli sayılmalıdır. Qiymətləndirmə qaydası bu prosesin hansı formada həyata keçirilməsindən asılı olmayaraq, özünü təsdiq edir və aşağıdakı kimi xarakterizə olunur:

–Test tapşırıqları şagirdlərin müstəqil özünüyoxlama vasitəsidir.

– Az vaxt ərzində şagirdlərin əldə etdikləri bilik və bacarıqların səviyyəsi müəyyən edilir.Testin köməyi ilə sinif, yaxud məktəb qiymətləndirilə bilər;

–Test yoxlaması öyrənmə motivasiyasını gücləndirir.

–Şagirdlərin əldə etdikləri bilik və bacarıqların davamlılığına zəmanət verir. Bu sadalananlar şagird nailiyyətlərinin qiymətləndirilməsində müsbət rol oynayır, lakin bunlarla yanaşı, testlərlə yoxlamada müəyyən çatışmazlıqlar da var:

–Test tapşırıqları şagirdlərin fərdi yaradıcılıq imkanlarının aşkarlanmasına və obyektiv qiymətləndirilməsinə imkan yaratmır.

–Yazılı və şifahi imtahanlardan fərqli olaraq, vaxtın az olması səbəbindən testlər şagirdlərə hər hansı bir mövzunu dərindən təhlil etmək imkanı vermir.

–Test sualları cavablandırılarkən kənaraçıxma hallarına zəmin yaradır.

Belə nəticəyə gəlirik ki, şagirdlərin bilik və bacarıqlarının testlərlə yoxlanmasının, III sinifdən başlayaraq, ildə bir dəfə aparılması məqsədəuyğun-

dur.Testləşdirmə ana dili, riyaziyyat və həyat bilgisi üzrə aparılmalıdır. Bu fənlər üzrə bilik və bacarıqların qiymətləndirilməsi III və IV siniflərdə dərs ilinin yekununda aparıla bilər. Bununla da həm şagirdlərin bilik və bacarıqlarının, digər nailiyyətlərinin yoxlanması və qiymətləndirilməsi zehni yüklənmələr azalır. Şagirdlərdə qazanılan bilikləri təhlil etmək qabiliyyəti və özünəinam hissi formalaşır.

İbtidai sinif şagirdlərinin təlim nailiyyətlərinin qiymətləndirilməsində testlərdən istifadə müsbət rol oynayır bilik və bacarıqlarının inkişafına təsir göstərir.

**ədəbiyyat**


1.Mehrabov A., Abbasov Ə., Zeynalov Z., Həsənov R. Pedaqoji texnologiyalar. Bakı: "Mütərcim", 2006

2.Mehrabov A., Cavadov İ. Ümumtəhsil məktəblərində monitorinq və qiymətləndirmə. Bakı: "Mütərcim", 2007

3. KərimovY.Ş. Pedaqoji tədqiqat metodları. Bakı: "RS Poliqraf" MMC, 2009

4. Ümumtəhsil məktəblərinin I–IV sinifləri üçün fənn kurikulumları. Bakı: "Təhsil", 2008


**Оценивание учебных достижений учеников начальной школы**

**резюме**


В статье рассказывается о проблемах, возникающих при оценивании результатов процесса обучения и путях их устранения, о роли оценивания при повышении качества образования, о повышении активности учащихся и о положительном влиянии оценивания на их усердие. В то же время рассматривается значение использования тестовых заданий при оценивании достижений учащихся и о положительном влиянии объективного оценивания их знаний и умений. Здесь также объясняются требования, предъявляемые к тестам.


**Assessing academic achievement of elementary school students**

**summary**


The article describes the problems encountered in the evaluation of the results of the learning process and how to address them, the role of assessment in improving the quality of education, the increase in the activity of students and the positive impact of assessment on their diligence. At the same time, consider the value of the use of tests in assessing student achievement and the positive impact of an objective assessment of their knowledge and skills. It also explains the requirements for the tests.

# RİYAZİYYATIN TƏDRİSİ PROSESİNDƏ FƏNLƏRARASI ƏLAQƏNİ REALLAŞDIRMAĞIN DİDAKTİK XÜSUSİYYƏTLƏRİ

**Şəlalə Binnətova,**
Gəncə Dövlət Universitetinin doktorantı



**açar sözlər:** riyaziyyat, təbiət elmləri, həyat bilgisi, təlim metodları, öyrənmə metodları, strateji məqsəd, proqramlaşdırılmış təlim elementləri

**ключевые слова:** математика, естественные науки, познание мира, методы обучение, методы изучение, стратегическая цель, элементы програмированного обучения

**key words:** mathematics, science, knowledge of the world, teaching methods, learning methods, strategic objective, elements of programmed training

İbtidai siniflərin riyaziyyat dərslərində əsas anlayışları daha keyfiyyətli öyrətmək üçün fənlərarası əlaqənin tətbiqinin elə prinsipial məsələləri var ki, onların müvəffəqiyyətli həlli riyaziyyat təlimi prosesində geriliyin aradan qaldırılmasına kömək göstərir. Əvvəlcə, fənlərarası əlaqənin harada, nə zaman tətbiqi məsələlərinə nəzər salaq. Başqa təlim prinsipləri kimi, fənlərarasi əlaqə də kompleks şəkildə (həm riyaziyyat dərslərində, həm də sinifdənxaric işlərdə) tətbiq edilməlidir.

Təlim, tərbiyə, inkişaf və tətbiq məqsədləri bütün ibtidai sinif fənlərinin məzmununa aid olub, təbiət, riyaziyyat elmlərini idrakın vahid mövzusu kimi şərtlənən, səciyyəvi xüsusiyyətləri ilə fərqlənən təlim məsələləri vasitəsilə pedaqoji prosesdə reallaşdırır.

Birinci problem riyaziyyatın tədrisi prosesində şagirdlərin canlı və cansız təbiət haqqında biliklərin əsaslarına müvəffəqiyyətlə yiyələnmələri üçün ilkin bünövrənin yaradılmasından ibarətdir. Nəzərə alınmalıdır ki, təbiət bilikləri çox zəngin olduğundan, orta məktəbdə onu tam həcmdə mənimsəmək mümkün deyil. Ona görə də, təbiət fənləri üzrə hər bir fənnin proqramı (o cümlədən, ibtidai siniflərdə riyaziyyat və həyat bilgisi fənləri) yalnız başlıca anlayışları, nəzəriyyə və metodları əhatə edir.

İbtidai siniflərdə riyaziyyatın təbiət elmləri ilə əlaqəli tədrisi təlim prosesinin dinamik və sistemli olmasına, dərsdə şagirdlərin idrak qabiliyyətlərinin fəallaşmasına şərait yaradır.

İkinci problem müəllim tərəfindən tətbiq olunan təlim metodları və şagirdlər tərəfindən həyata keçirilən öyrənmə metodlarıdır.

Hər iki problemin həlli üçün əlverişli şərait vardır. Belə ki, riyaziyyat və həyat bilgisi fənlərinin səciyyəvi xüsusiyyətləri müəllim və şagirdlərin qarşılıqlı fəaliyyətini təmin edən müxtəlif təlim metodlarının tətbiqinə imkan

verir. Bu fənlər üzrə öyrənmə metodları və priyomlarının (öyrənilən əşya, proses və hadisələrin müşahidəsi, tapşırıqların yerinə yetirilməsi, məsələ həlli, ölçmə və qurma məsələləri, qrafiklərin, cədvəllərin tərtibi və s.) geniş imkanları vardır. Müşahidə materiallarının riyazi bacarıqların köməyi ilə ümumiləşdirilməsi hissi idrakı yüksək dərəcədə stimullaşdırır, qrafiklər, riyazi məsələ və tapşırıqlar kiçikyaşlı məktəblilərin idraki proseslərini canlandırır, mücərrəd təfəkkürün inkişafına təkan verir.

Riyaziyyatın təbiət fənləri ilə əlaqəli təliminin səmərəliliyi yalnız təlim metodları və müxtəlif öyrənmə metodları vasitəsilə əldə edilmir. Bunlardan başqa, dərsdə texniki və əyani vasitələrdən (kinofilm, diafilm və diapozitivlər, kompyuter texnologiyaları, televiziya verilişləri) istifadə zəruridir. Dərsin keyfiyyətini yüksəltmək üçün öyrətmə və öyrənmə metodlarını proqramlaşdırılmış təlim elementləri ilə əlaqələndirmək məqsədəuyğundur.

Bu metodik zənginliklərdən istifadə edən müəllim kiçikyaşlı məktəblilərin yalnız biliklərini dərinləşdirmir, həm də onların fikri fəallığını, müşahidəçiliyini, yaddaş və təxəyyülünü inkişaf etdirir.

Üçüncü problem çalışma həlli vasitəsilə şagirdlərin tətbiqi əməyə hazırlanmalarıdır. Bu işdə təbiət hadisələri, respublikamızın təbiəti, coğrafiyası, iqtisadiyyatı, kənd təsərrüfatı, tarixi, elmi nailiyyətləri və s. ilə bağlı olan riyazi məsələlərdən istifadə imkanları böyükdür.

Təbiət elmləri sənaye və kənd təsərrüfatı istehsalının müxtəlif sahələri ilə əlaqəli olduğundan, onların elmi prinsiplərini və fəaliyyət yollarını müəyyən etdiyindən, riyaziyyat məsələlərinin məzmununa təbiət elmlərinə dair anlayışların daxil edilməsi şagirdləri politexnik və əmək hazırlığına istiqamətləndirir. Bu hazırlığın elementləri sistemli şəkildə digər fənlərin (təbiətşünaslıq, biologiya, fiziki coğrafiya, fizika, kimya) məzmununa daxil olub, şagirdlərdə eksperimental ölçmə, hesablama, qrafik bacarıq və vərdişlərin formalaşmasına imkan verir.

Dördüncü problem ibtidai təhsil pilləsində əqli inkişafın, intellektual bacarıq və vərdişlərin formalaşmasıdır. Bu problemlərin müvəffəqiyyətli həlli üçün şagirdlərin əqli müşahidəsi, təfəkkürünün inkişafı, inkişafda ardıcıllığın olması zəruridir.

Beşinci problem ibtidai siniflərdə riyaziyyatın tədrisi prosesində təbiət fənləri üzrə ilkin biliklərin verilməsidir. Məqsəd məsələ həlli vasitəsilə təbiət haqqında biliklərin mənimsədilməsi və bu biliklərin sonradan mənəvi, vətənpərvər, elmi-materialist dünyagörüşünə çevrilməsinə istiqamətlənməkdir.

Təbiət fənləri üzrə ilkin təhsilin müxtəlif forma və məzmunu, öyrətmə, öyrənmə metodları və priyomları vardır. Ona görə də kiçikyaşlı məktəblilərdə elmi dünyagörüşünün formalaşması vətənpərvərlik, doğma təbiəti qorumaq və zənginləşdirmək hisslərinin inkişafını stimullaşdıra bilər.

Deyilənlərdən belə nəticəyə gəlirik ki, ibtidai siniflərdə riyaziyyat kursunun təbiət fənləri ilə əlaqəli tədrisinin, riyazi anlayışların uşaqların təbiətdə, gündəlik həyatda qarşılaşdıqları faktlar əsasında izahı (yaxın və uzaq məqsəd daşıyan) böyük tərbiyəvi əhəmiyyət kəsb edir. Riyaziyyatın təbiət bilikləri üzərində izah edilməsinin **yaxın məqsədi** yalnız müvafiq fənlər üzrə bilik, bacarıq və vərdişləri mənimsətməkdən ibarət olmamalıdır. Alimlərin müəyyən etdiyi kimi, belə təlim, həm də öyrənilən biliklər vasitəsilə şagirdləri məqsədyönlü şəkildə tərbiyələndirməli, onların psixoloji inkişafını təmin etməlidir, çünki psixoloji qüvvələri (diqqəti, hafizəsi, iradəsi, təxəyyülü, təfəkkürü və s.) intensiv inkişafda olan şagirdlər təlim-tərbiyə prosesində daha çox uğur qazanırlar.

Psixoloji qüvvələrin intensiv inkişafı həm də **strateji (uzaq) məqsədin** reallaşmasını təmin edir. İbtidai siniflərdə riyazi anlayışların təbiət bilikləri ilə əlaqəli tədrisi də təlimin strateji məqsədinə – milli və ümumbəşəri dəyərləri gənc nəslə məqsədyönlü, planlı və mütəşəkkil aşılamaq yolu ilə respublikamızın ərazi bütövlüyünü, sərhədlərimizin toxunulmazlığını, dövlət müstəqilliyini qorumağa qadir olan, ölkənin fauna və florasını mükəmməl bilən və onu canından artıq sevən vətəndaşlar yetişdirməyə xidmət etməlidir. Buna I-IV siniflər üçün mövcud riyaziyyat dərsliklərinin məzmunu da imkan verir. Dərsliklərdə 10-luq, 20-lik, 100-lük və 1000-lik dairəsində hesab əməllərinin öyrədilməsi müxtəlif riyazi, cəbri , həndəsi anlayışlarla, həm də təbiət və gündəlik məişət hadisələri ilə əlaqəli verilir. Cəbri anlayışlar kimi ədəd oxu, ədəd oxu üzərində ədədlərin müqayisəsi, toplanması və çıxılması, qrafik məlumatlar (barqraf, teliqraf, piktoqram, cədvəl, Venn diaqramı), sıra sayları, 100-lük kvadratlar, koordinat şəbəkəsi, dəyişəni olan ifadələr, tənliklər, kəsrlər, müsbət və mənfi ədədlər və s.; həndəsi anlayışlar kimi kvadrat, düzbucaqlı, üçbucaq və onun növləri, dairə, düz xətt, parça, şüa, sınıq xətt, əyri xətt, bucaq, onun təpəsi və tərəfləri, iti, kor, düz bucaqlar, kub, düzbucaqlı prizma, piramida, silindr, konus, kürə, simmetriya, paralel və kəsişən düz xətlər, çoxbucaqlılar, fəza füqurlarının modelinin hazırlanması, perimetr, sahə, uzunluğun, kütlənin, tutumun ölçülməsi və s., təbiət fənləri üzrə temperatur , onun ölçülməsi, *təqvim, il, ay, həftə, gün, saat, vaxt, kütlə, tutum* anlayışları, onların ölçülməsi, ehtimal nəzəriyyəsinin ilkin rüşeymləri, obyektin koordinat şəbəkəsində qeydə alınması, teleskop, bitkilər, həşəratlar, heyvanlar, balıqlar və s. haqqında məlumatlar riyaziyyat dərsliklərinə daxil edilmişdir.

İbtidai siniflərdən başlayaraq riyaziyyat dərsliklərində coğrafiya xəritələrindən istifadə edilir. Müşahidələr göstərir ki, şagirdlər xəritədəki şərti işarələri, rayonların inzibati bölgüsünü dərk edir, xəritə onların fəza və məntiqi təfəkkürlərinin inkişafı üçün dərketmə vasitəsi olur, dünyanın dərk edilməsinə, düzgün elmi dünyagörüşünün formalaşmasına müsbət təsir göstərir. Coğrafiya xəritələrinin riyazi əsaslarına coğrafi koordinatlar (enlik, uzunluq),

miqyas (ədədi, adlı, xətti), kartoqrafik proyeksiya (silindrik, azimutal, konus və yarımkonus), təhrif (cismin forması, xəttin uzunluğu, bucaqlar) və digər kartoqrafik anlayışlar daxildir. Göstərilən anlayışlar hər iki fənnə aid olduğundan, riyaziyyat kursunun təlimində onların ümumiləşdirilməsi və inkişafı baş verir ki, bu da təlim üçün münasib şəraitin yaradılması, müəllim – şagird əməkdaşlığı, təlimdə elmilik, şüurluluq, fəallıq prinsiplərinin nəzərə alınmasında mühüm əhəmiyyət kəsb edir. Belə ki, fənlərarası əlaqə materiallarını seçərkən müəllim çalışmalıdır ki, şagirdlər öyrənilən hər bir riyazi anlayışın gündəlik həyatda əhəmiyyətini başa düşsünlər.

Pedaqogika elmi sübut etmişdir ki, zəruri maddi-texniki bazada və mənəvi-psixoloji mühitdə keçirilən təlimin səviyyəsi yüksək olur. Ona görə də müəllim riyazi anlayışları digər fənlərlə, o cümlədən, təbiətşünaslıq fənni ilə əlaqələndirərkən təlim üçün münasib şəraitin yaradılmasına nail olmalıdır, yəni sinif otağı gigiyenik qaydalara cavab verməli, şagirdlərin sayı normal olmalı, zəruri texniki və əyani vəsaitlər şagirdlərin ixtiyarına verilməli, sinifdə normal mənəvi-psixoloji mühit yaradılmalıdır. Belə mühitdə müəllimin də, şagirdin də fəaliyyəti səmərəli olur.

**ədəbiyyat**

1. Межпредметные связи в учебном процессе (Тематический сборник). Москва, 1974

2. Mehdizadə M.M. Ümumtəhsil məktəblərində təlim-tərbiyə prosesinin təkmilləşdirilməsi yolları. Bakı: «Maarif», 1982

3. Чепиков М.Г. Интеграция науки (2-е издание). Москва: «Мысль», 1981

4. Kazımov N.M. Məktəb pedaqogikası. (Dərslik). Bakı, 2009

5. Riyaziyyat – 3. (Ümumtəhsil məktəblərinin III sinfi üçün dərslik). Bakı: «Altun Kitab», 2010

6. Riyaziyyat – 2. (Ümumtəhsil məktəblərinin II sinfi üçün dərslik). Bakı: «Altun Kitab», 2010

**Дидактические особенности реализации межпредметных связей в процессе преподавании математики**

**резюме**

В статье рассматриваются вопросы реализации межпредметных связей в процессе обучения математике. В частности, указываются пути и возможности осуществления поставленной задачи. Изучены методы обучения, применяемые в процессе взаимосвязанного обучения математики с естественными науками. Отмечается специфика работы в этом направлении со школьниками.

**On some issues of implementation of the interdisciplinary conntcnions in the teaching of mathematic**

**summary**

The article deals with the implementation of interdisciplinary connections in teaching mathematics.In particular, specify the path and the feasibility of the task.Stydient teaching methods used in the process of learning mathematics interconnected with naturasciences.Noted specific work in this area with students.

# RƏSM TƏDRİSİNƏ VERİLƏN TƏLƏBLƏR

**Nazim Məmmədbəyov,**
ADMİU-nun "Səda" tədris teatrının
bədii quruluş hissə müdiri



**açar sözlər:** təsviri incəsənət, rəsmetmə, estetik zövq, "baxmaq və görmək", rəsm ləvazimatları, rəngli qələmlər, fırça, akvarel boyası, rəsm üçün kağız

**ключевые слова:** изобразительное искусство, рисование, эстетический вкус, «смотреть и видеть», принадлежности для рисования, цветные карандаши, кист, акварельные краски, бумага для рисования

**key words:** drawing, paper for water-colour, of equipments of the fine arts, aesthetic taste, "to look and to see", drawing, coloured pens, brush

Təsviri incəsənət tədrisinin əsas vəzifələrindən biri – hafizəyə əsasən naturadan təsvir etmək bacarığını öyrətməkdir. Bu yolla onlara cismi seyr etmək, onun şəklini çəkərkən forma seçmək, fəzadakı vəziyyətini, formasını saxlamaq, müvafiq boyalarla rəngləmək qabiliyyətlərini aşılamaq mümkündür.

Bununla da uşaqların estetik zövqü maddi varlıq zəminində inkişaf etməyə başlayır. Bu da onlarda təsviretmə üzrə sadə bacarıqlara, rəngləri seçmək qabiliyyətinə yiyələnmək, nikbin, şən və gümrah olmaq meyillərini inkişaf etdirir.

Müəllim uşaqların diqqətini həyatdakı gözəllikiərə yönəltməli, könül dünyasına tez təsir edə biləcək əşya və mənzərə seçməli, çalışmalıdır ki, rəsm edəcəkləri obyekt onları heyran etsin. Uşaq əşyaları təsvir edərkən ətraf aləm haqqında biliklər toplamağa başlayır, ona münasibət yaradır. Rəsm təlimi prosesində sanki biliklər, bacarıqlar, zövqlər yarışı başlayır: kim

gördüklərini daha yaxşı, daha əlvan və düzgün "yarada" bilər? Uşağın diqqətini cəlb edən əşyalar onun həyata düzgün baxışını, ətraf mühitə, onun hadisələrinə diqqətli olmaq keyfiyyətlərini formalaşdırır. Bunlar rəsm təliminin əsasını təşkil edir.

Estetik zövq həmişə inkişafdadır. Təsviri incəsənət dərsləri bu baxımdan daha diqqətəlayiqdir. Bu zaman müəllimin üzərinə çox böyük cavabdehlik düşür. Zəngin təbiətin əlvanlığını, müxtəlifliyini uşaqlara sevdirmək, şagirdlərin onlarla "dil tapıb danışma" qabiliyyətini inkişaf etdirmək lazımdır. Axı təbiət gözəllikləri uşaqların hafizəsində obrazlarla yaşayır.Ekskursiyada olarkən gördükləri (bitkilər aləmi, çay, bulaq, quşların cəh-cəhi və s.) onların dünyasında silinməz izlər buraxan gözəlliklər səltənətidir. Mənzərələri, ağac budaqlarını, meyvə və tərəvəzləri, gülləri, çiçəkləri çəkərkən bir çox xarakter xüsusiyyətlərin də öyrədilməsi nəzərdə tutulur. Bu zaman uşaqlar təbiətlə daha çox təmasda olur, onun zəngin rənglər aləminə tez-tez baş vurur, forma və cizgiləri öyrənməyə can atırlar. Bu cəhətlərin təsviri uşaqların dünyagörüşünü zənginləşdirir, genişləndirir.

I sinifdə rəsm çəkmək yollarında yeni addımlarını atan uşaqlar ilkin biliklərini onları əhatə edən mühitdən alırlar. Rəsm təlimi zamanı başqa fənlərlə əlaqə onların ətraf aləmə baxışlarını düzgün istiqamətləndirir, maddi varlıq və hadisələrə münasibət təfəkkürlərini inkişaf etdirir.

Təsviri incəsənət dərsləri ətraf aləmə "baxmaq" deyil, onu görmək, dərk etmək keyfiyyətlərini də aşılayır. Müəllim bilməlidir ki, erkən yaşlarda uşaqların bu sahədə bilikləri çox az, təcrübələri yoxsul olur.

Təsviri incəsənət dərslərinin başlıca cəhətlərindən biri də odur ki, o, uşaqlarda maddi varlığı, təbiət və incəsənət gözəlliklərini görmək, yaratmaq və qiymətləndirmək vərdişləri yaradır. Ona görə də hər bir dərsdə seçilən əşyalar təbii, düşündürücü, maraqlı və təsvirə yatımlı olmalıdır. Dünyanın öyrənilməsi, dərk edilməsi baxmaq və qavramaqla bağlı olduğundan, təlim, əsasən, müşahidə qabiliyyəti üzərində qurulur, inkişaf edir .

I sinif şagirdləri ilə işləmək böyük pedaqoji ustalıq, səbr və təmkin tələb edir. Dərs ili başlanarkən mütləq valideyn iclası keçirmək, rəsm dərsləri üçün hansı ləvazimatların lazım olduğunu onlara çatdırmaq, bir-bir nümayiş etdirmək lazımdır. Sonrakı dərslərdə uşaqların rəsm ləvazimatları yoxlanmalı, boyanı özünə hopduran kağızların, dəftərlərin rəsm üçün yararsız olması başa salınmalıdır.Onlar bilməlidirlər ki, hamar kağız boyanı özündə saxlamır, qalın albomlar narahatlıq törədir. Qələmlərin növlərini, necə yonulduğunu göstərmək vacibdir.

Təsviri incəsənət dərslərinin səmərəliliyi şagirdlərin rəsm üçün lazımi ləvazimatlarla təmin olunmasından çox asılıdır. Şagirdin dərs ləvazimatı ilə təmin olunması intizama müsbət təsir edir, məsələn, pozan kimi kiçik bir şeyin olmaması ucbatından narahatlıq yaranır: pozan üçün yoldaşına müraciət edir, yaxud barmağı ilə kağızı sürtüb rəsmi korlayır, vərəqi cırır, yenidən çəkməyə başlayır, nəticədə əhvali-ruhiyyəsi pozulur, əsəbilik yaranır. Onun bu hərəkətləri başqalarının diqqətini də işdən yayındırır.

Şagirdlərə çatışmayan rəsm ləvazimatının verilməsi, bizcə, düzgün deyil. Belə ki, uşaqlarda məsuliyyətsizlik, ələbaxımlıq münasibətləri formalaşır. Əğər şağird hər hansı bir rəsm ləvazimatını unudursa, II sinifdən başlayaraq, müəllim tərəfindən gündəlikdə qeydlər yazılır. Bu, valideyndə hər gün uşağın gündəliyinə diqqət yetirmək vərdişi yaradır.

İş yerinin təşkili, ləvazimatdan düzgün istifadə etmək, naturadan çəkərkən düzgün vəziyyəti saxlamaq – bütün bunlar rəsm təlimi üçün vacib məsələlərdir. Rəsm məşğələsində düzgün, uyğun bir vəziyyətdə oturmağın da böyük əhəmiyyəti var. Şagird elə düzgün və rahat yer seçməlidir ki, bir dəfə baxmaqla şəkli tam görə bilsin, şəklin üzərinə əyilmədən bütün münasibətləri (işıq-kölgə və s.) seçə bilsin.

Yazarkən və oxu prosesində olduğu kimi, gözlə rəsm arasındakı məsafə 30–40 sm-dən az olmamalıdır. Rəsm dəftəri partanın aşağı hissəsinə paralel qoyulmalıdır. Onun yalnız sağ tərəfində çəkmək lazımdır. Qələmi şəhadət barmağı ilə sıxmadan, sərbəst saxlamaq məsləhətdir. Kağızı sol əllə tutub, pozanı özünə tərəf hərəkət etdirməklə pozmaq lazımdır. Yaxşı çəkmək üçün iti uclu fırçalar əlverişlidir. Fırça da eynilə qələm kimi tutulmalıdır. İş qurtardıqdan sonra fırçanı əski ilə yüngülcə sıxmaq, silkələmək və silmək lazımdır.Uşaqları öz iş yerlərini təşkil etməyə alışdırmaq lazımdır. Bunu dərsdən əvvəl etməyi öyrətmək vacibdir.Parta üzərində gərəksiz heç bir şey ( pozan, rəngli qələmlər və ya boya qutusu, fırça, fırçanı silmək üçün əski, dəftər və su ilə dolu qab) olmamalıdır. Qarşıya və ətrafa çox şey yığмaq düzgün deyil.

Dərsə başlamaq üçün müəllimlə növbətçi şagirdə tənəffüsdə 5-7 dəqiqə vaxt lazımdır ki, bütün hazırlıq işlərini aparsınlar. Dərsin qurtarmasına 2 dəqiqə qalmış növbətçi stəkanları yığıb, suyunu boşaltmalıdır. Bütün şagirdlərin keyfiyyətli kağızdan eynitipli dəftərləri olmalıdır. Dərslərin sayına görə il ərzində I və II siniflərdə hər rüb üçün bir dəftər, III və IV siniflərdə isə bir neçə dəftər tələb olunur. Dəftərdə başqa şey yazmaq,

vərəqləri cırmaq, müəllimin icazəsi olmadan yenidən çəkməyə başlamaq qadağan edilir.

Müəllim xüsusi istedada malik uşaqları aşkara çıxarmalı, zəif uşaqlara diqqət yetirməli və səbəbini öyrənməlidir. Bu zəifliyi aradan qaldırmaq üçün uşaqlarla, valideynlərlə söhbətlər aparmaq məqsədəuyğundur.

Uşaqların çəkdikləri rəsmlər haqqında onların fikirlərini öyrənmək vacibdir. Təsviri incəsənətə maraq göstərən, bu sahədə özünü sınaqdan keçirmək istəyən uşaqlar üçün hərtərəfli şərait yaradılmalıdır.

Müəllim üçün şagirdlərin psixologiyasını öyrənmək də əsas şərtlərdəndir. İncəsənətin fantaziya və istedad tələb etdiyini nəzərə alaraq dərslərdə uşaqlara yaradıcılıq sərbəstliyi vermək, onlarda milli ruh yaratmağa çalışmaq lazımdır.

**ədəbiyyat**

1. Qarayeva A. Rəsmin tədrisi üsulu (I-VI siniflər ). Bakı, 1964
2. Кузин В.С. Вопросы изобразительного творчества. Москва, 1971
3. Глинская И. Тематическое рисование в начальной школе. «Начальная школа», 1958, №4

**Требования к обучению рисования**
**резюме**

В статье рассказывается о требованиях, выдвигаемых к обучению изобразительным искусствам.Отмечается важность прививания навыков рисования детям, первый раз бравшие в руки карандаш или кист и подготовка класса к урокам рисования.

Так же отмечается важность выявления детей с особыми талантами и роль учителя в этом процессе.

**Demands given the drawing teaching**
**summary**

Conversation tan of the drawing habits . Children taking brush for the first time from demands given to drawing teaching in primary classes, forming of the preparation is been rules explanation to the lessons of drawing.

Necessity of the being revealed of the children having the special talent for in the lessons of drawing, role of the teacher is marked in this work

# İSTEDAD MİLLİ SƏRVƏTDİR, ONA QAYĞI GƏRƏKDİR

**Arif Muradov,**
Azərbaycan Respublikasının əməkdar müəllimi

«Maddi vəziyyətindən asılı olmayaraq isdedadlı şəxslərin təhsilini davam etdirməsinə dövlət zəmanət verir».
**Azərbaycan Respublikasının Konstitusiyasından**



**açar sözlər:** istedad, qabiliyyət,elmi-texniki tərəqqi, dövlət proqramı, əqli və fiziki qabiliyyətlər,müsbət və mənfi qabiliyyətlər,istedadların inkişaf etdirilməsi

**ключевые слова:** талант, умение, научно-техническое развитие, государственная программа, умственные и физические способности,положительные и отрицательные способности, развитие талантов

**key words:** talent for, ability, scientific and technical progress, State Program, developing of the mental and physical abilities, positive and negative abilities, talent fors

İnkaredilməz bir həqiqətdir ki, qabiliyyətli, istedadlı insanlar fəaliyyətin bütün sahələrinə, xüsusən elmə, mədəniyyətə gətirdikləri yeniliklərlə mənsub olduqları ölkəni, milləti dünyaya tanıtmışlar. İstedadlı insanlar bütün tarixi dövrlərdə hər bir ölkənin və cəmiyyətin milli sərvəti olmuşlar. «İstedad təkcə təbiətin bəxş etdiyi vergi deyil, həm də mənsub olduğu xalqın mənəvi sərvətidir» (S.Bəhlulzadə).

Bu gün respublikamızın suverenliyə, iqtisadi müstəqilliyə nail olmasını təmin edə bilən yüksək hazırlıqlı kadrlara malik olması razılıq hissi ilə qarşılanır. Ona görə də respublikamızın təhsil sisteminin bütün pillələrində –məktəbəqədər təhsil müəssisələrindən başlamış ixtisasa yiyələnənə qədər istedadlı gənclərin aşkara çıxarılması, inkişaf etdirilməsi vacib məsələlərdən biri olmalıdır. Məhz bu səbəbdəndir ki, ümummilli liderimiz Heydər Əliyevin sədrliyi ilə hazırlanmış və ümumxalq səsverməsi nəticəsində qəbul edilmiş müstəqil dövlətimizin ilk Konstitusiyasında, təhsil haqqında qanununda, təhsil sahəsində islahat Proqramında (1999) bu məsələyə xüsusi diqqət yetirilmişdir.

Dövlətimizin başçısı olarkən Heydər Əliyev istedadlı uşaqları və gəncləri şəxsən himayə edir, onlara diqqət və qayğısını əsirgəmirdi. Bu qayğının təzahürü olaraq ümummilli liderimiz «Azərbaycanda gənc istedadlara dövlət qayğısı haqqında» fərman vermiş, gənc istedadların «Qızıl Kitabı»nı, «Gənc İstedadlar Fondu»nu yaratmışdır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il, aprelin 26-da verdiyi qərarı ilə təsdiq edilmiş, 1999/2000-ci dərs ilindən tətbiqinə başlanmış, "Azərbaycan Respublikasında ümumi orta təhsilin dövlət standartları"nın məcmusu olan Bazis tədris planında şagirdlərin maraq və meyillərini nəzərə alaraq onların qabiliyyət və istedadlarını inkişaf etdirmək üçün VI-XI siniflər üzrə seçmə fənlərə həftədə 30 saat, I-XI siniflər üzrə isə fakültativ, fərdi və qrup məşğələlərinə 36 saat vaxt ayrılmışdır. Yaradılan həmin imkan şagirdlərin istedadlarının aşkar olunması və inkişaf etdirilməsində, bu sahədə iş sisteminin təkmilləşdirilməsində müsbət rol oynamışdır.

Qabiliyyətli, istedadlı uşaq və gənclərlə aparılan işlərin daha sistemli, səmərəli və məzmunlu təşkili üçün dövlət başçısının 2006-cı il, aprelin 17-də verdiyi sərəncamla "Xüsusi istedada malik olan uşaqların (gənclərin) yaradıcılıq potensialının inkişafı üzrə Dövlət Proqramı (2006-2010-cu illər)" təsdiq edildi. Proqramın qəbulundan məqsəd respublikanın təhsil müəssisələrində mövcud istedad potensialını vaxtında aşkara çıxarıb, onun inkişafını təmin etmək üçün xüsusi tədbirlər planı hazırlamaq, ölkə ictimaiyyətinin diqqətini bu vacib məsələnin həllinə yönəltməkdən, istedadlı uşaq və gənclərin inkişafına dövlət qayğısını gücləndirməkdən ibarət idi.

Proqramda irəli sürülən başlıca vəzifələrin həyata keçirilməsi üçün Təhsil Nazirliyi geniş fəaliyyət planı hazırlayıb təsdiq etmiş, nəzərdə tutulan tədbirlərin xeyli qisminin icrasına nail olmuşdur.

İstedadlı gənclərin inkişafı üçün müvafiq şəraitin yaradılması baxımından ölkə başçısı tərəfindən təsdiq edilmiş "2007–2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsil almalarına dair Dövlət Proqramı" xüsusi əhəmiyyət kəsb edir. Proqram çərçivəsində görülən tədbirlər nəticəsində son beş ildə dünyanın inkişaf etmiş 27 ölkəsinin 200-dən çox qabaqcıl ali məktəblərində və elmi mərkəzlərində 1700-dən artıq gənc təhsil almış və almaqdadır.

Qabiliyyətli, istedadlı adamlar qədim dövrlərdən cəmiyyətin inkişafında aparıcı rol oynamış, ona görə də xalqın diqqət və qayğısına layiq olmuşlar. Xalqımızın qədim abidələri olan «Avesta»da, « Kitabi–Dədə Qorqud»da, digər dastan, əfsanə, nağıllarda, qaya rəsmlərində, klassiklərimizin əsərlərində belə insanlar böyük məhəbbət və hörmətlə vəsf olunmuş, onların nümunəsində sonrakı nəsillər tərbiyə edilmişlər.

İstedadlı uşaqların, gənclərin əqli və fiziki qabiliyyətlərini aşkara çıxarıb, inkişaf etdirmək təliminin əsasını qədim Çin filosofu Konfutsi (e.ə.V əsr), yunan alimləri Platon və Aristotel (e.ə.IV əsr) qoymuşlar. Platon yazırdı ki, bütün vətənlaşların qarşılıqlı anlaşma şəraitində yaşamaları üçün onlara təlqin etmək lazımdır ki, qardaşdırlar, lakin bir vəzifəni, xidməti borcu yerinə yetirməkdə qabiliyyətləri eyni səviyyədə deyildir. İnsanlar öz qabiliyyətlərinə görə bir-birilərindən tamamilə fərqlidirlər, «çünki hamının bütün peşə və sənətlərə qabiliyyəti eyni olmaz...» (N.Tusi). Odur ki, Konfutsi istedadlı uşaqları seçməyi və intensiv surətdə təlimini təşkil etməyi,

Platon (e.ə. IV əsr) onların tərbiyəsini tamamilə dövlətin əlində cəmləşdirməyi tələb edirdi.

Möhtəşəm türk sultanı I Süleyman Qanuni (XVI əsr) imperiyanın müxtəlif guşələrinə mütəxəssislər göndərər, istedadlı uşaq və gəncləri seçdirər, xüsusi tədris müəssisələrində dini, dünyəvi və hərb elmləri üzrə onların təlimini təşkil etdirərdi.

Konfutsi, Platon və Aristotel tərəfindən əsası qoyulmuş qabiliyyət, istedad haqqında təlim sonrakı dövrlərdə K.Qalen, İbn Sina, İbn Əl-Xaysam, N.Tusi, X.Uarte, Y.Kamenski, C.Lokk, F.Beneke, fransız utopik sosialistləri, ingilis siyasi iqtisadçıları, alman klassik fəlsəfəsinin nümayəndələri və digər alimlər tərəfindən inkişaf etdirilmişdir. Marksizm klassikləri də bu təlimdən yan keçməmiş, problemə öz münasibətlərini bildirmişlər. İnsanların qabiliyyət etibarilə eyni olmadıqlarını qəbul edən K.Marks yazırdı ki, qabiliyyətliləri, istedadlıları axtarıb tapmaq və inkişaf etdirmək lazımdır.

Sovet hakimiyyəti illərində də bu sahədə çoxlu elmi-tədqiqat işləri aparılmış, alimlər, psixoloqlar, filosoflar, sosioloqlar, pedaqoqlar, həkimlər və başqaları tərəfindən problemin bu və ya digər aspektini işıqlandıran xeyli əsərlər nəşr edilmişdir. Azərbaycan alimləri də o dövrdə bu sahədə müəyyən tədqiqatlar aparmış, bir sıra elmi əsərlər nəşr etdirmişlər.

Təbii ki, o zaman bu problemin şərhinə ümumbəşəri dəyərlər baxımından deyil, hakim ideologiyanın tələbi baxımından yanaşılmışdır. Bütün bunlara baxmayaraq, qeyd etmək lazımdır ki, təcrübi biliklər əsasında bu sahədə müəyyən işlər görülsə də, uşaqların, gənclərin qabiliyyətlərini, istedadlarını aşkarlamaq və inkişaf etdirməklə bağlı problemlərin elmi sistemi yaradılmamış, metodikası işlənməmişdir.

Yuxarıda qeyd edilən proqram və fəaliyyət planında bir sıra elmi-tədqiqat işlərinin aparılması nəzərdə tutulsa da, problemin köklü şəkildə araşdırılması, müvafiq təkliflərin və tövsiyələrin hazırlanması, pedaqoji ictimaiyyətə çatdırılması ilə əlaqədar görülmüş işləri qənaətbəxş hesab etmək olmaz. Göründüyü kimi, bu problemin elmi cəhətdən işlənməsi ilə bağlı alimlərimiz qarşısında təxirəsalınmaz məsələlər durur.

İstedadlı uşaqların vaxtında aşkara çıxarılıb, maraq və meyilləri əsasında qabiliyyətlərinin, bilik, bacarıq və vərdişlərinin inkişaf etdirilməsi təhsil sistemi qarşısında duran problemlərdən biridir. Cəmiyyətdə, həyatda istedadın inkişafı bir sıra amillərdən, ilk növbədə uşaqların intellektual səviyyələrinin üzə çıxarılmasını təmin edən tədbirlərə cəlbi, buna kömək göstərən psxoloji xidmətin yaradılmasından, istedadlı uşaqlarla işləmək təcrübəsinə malik müəllim, tərbiyəçi kadrların hazırlanmasından, təhsil müəssisələrində müasir tələblərə cavab verən maddi-tədris bazasının olmasından çox asılıdır. Bu baxımdan cəmiyyətin yaradıcılıq və mənəvi potensialını hər vasitə ilə gücləndirmək zərurəti respublikanın təhsil sisteminin və içtimaiyyətinin qarşısında yeni, mühüm vəzifə – elmi və yaradıcı ziyalıların yeni nəslini yetişdirmək, şagirdlərin və gənclərin fərdi qabiliyyətlərlərinin aşkara çıxarılması və onların

yaradıcılıq potensialından istifadə edilməsi üçün maksimum əlverişli şərait yaratmaq vəzifəsi durur.

Son illər ölkəmizin siyasi, iqtisadi və sosial həyatında baş verən keyfiyyətcə yeni dəyişikliklər təhsilə ciddi təsir göstərmiş, gənc nəslin təlim-tərbiyəsində əsaslı dönüşə yönəldilən, ölkənin təhsil sisteminin gələcək inkişaf yollarını müəyyənləşdirən mühüm qanunlar, qərarlar qəbul olunmuş, normativ sənədlər işlənib hazırlanmışdır. Bu sənədlərdə uşaqların şəxsiyyət kimi yetişdirilmələri, onların istedad və qabiliyyətlərinin inkişafı ümumdövlət əhəmiyyətli vəzifə kimi qeyd olunmuş, ümumi orta təhsilin əsas prinsipləri gözlənilməklə təlimin çoxvariantlılığı ideyası irəli sürülmüşdür. Belə bir fikir yekdilliklə müdafiə olunur ki, məhz müxtəlif variantlı təlim formalarının geniş tətbiqi hər bir şagirdin maraq, meyil və qabiliyyətinə, təbii imkanlarını üzə çıxarmağa əlverişli şərait yaradacaqdır.

Dünyanın bir sıra qabaqcıl ölkələrinin sürətli elmi-texniki tərəqqisinin başlıca səbəbi bu ölkələrdə cəmiyyətin intellektual qüvvəsindən düzgün istifadə, istedadlı uşaqların vaxtında aşkarlanması və onların inkişafı üçün hərtərəfli şəraitin yaradılması olmuşdur.Respublikamızın iqtisadi müstəqilliyə qədəm qoyduğu indiki dövrdə yaradıcı düşünə və işləyə bilən adamlara ciddi ehtiyac yaranmışdır.

Doğrudur, 60-cı illərdə ümumtəhsil məktəblərinin tədris planlarına fakültativ məşğələlərin salınması, sinifdənxaric və məktəbdənkənar tədbirlərin genişləndirilməsi, ayrı-ayrı fənlərin dərinləşdirilmiş proqramlarla öyrədildiyi siniflərin, təmayüllü məktəblərin, internat tipli müəssisələrin açılması, şagird və tələbə elmi cəmiyyətlərinin, şən və hazırcavablar klublarının, səmərələşdiricilər cəmiyyətlərinin yaradılması, məzunların bir sıra xarici ölkələrin tanınmış ali məktəblərinə göndərilməsi, müntəzəm keçirilən fənn olimpiadaları, festivallar, sərgilər, spartakiadalar, turnirlər, yarışlar, müsabiqələr, viktorinalar istedadlı uşaqların aşkara çıxarılmasına, orta məktəb şagirdlərinin qızıl və gümüş medallarla, tərifnamələrlə təltifi, ali məktəb tələbələri üçün prezident təqaüdünün müəyyənləşdirilməsi, müxtəlif tədbirlərin qaliblərinə diplomların, fəxri fərmanların, döş nişanlarının, xüsusi prizlərin, qiymətli hədiyyələrin verilməsi uşaq və gənclərin əməyinin stimullaşdırılmasına xidmət etmişdir. Bütün bunlar gənclərin qabiliyyətlərini sınaqdan keçirmək və biliyin statusunu yüksəltmək vasitəsi olsa da, istedadlı uşaqların potensial yaradıcılıq qüvvəsini üzə çıxarıb, inkişaf etdirmək istiqamətində dövlət siyasəti səviyyəsinə qaldırılmamışdır.

Keçmiş SSRİ üzrə mərkəzləşdirilmiş qaydada hazırlanan tədris planları, proqramlar və dərsliklər orta səviyyəli şagirdlər üçün nəzərdə tutulmuş, nəticədə şagirdlərin bir qrupu proqram materiallarını mənimsəyə bilmədikləri halda, digər qisim – qabiliyyətli şagirdlər «təlim yükü» azlığından öz təbii potensial imkanlarını reallaşdırmağa şərait tapmamışlar.

Təhsil sistemində diqqəti cəlb edən əsas nöqsanlardan biri də müəllim hazırlığı ilə bağlıdır. Pedaqoji ali məktəblərimizdə istedadlı uşaqlarla işləməyin

metodikası öyrədilmədiyindən müəllimlər öz fəaliyyətlərində mövcud tədris proqramları və dərsliklərə yaradıcı yanaşa bilmirlər. Müdriklərin bir sözü var: istedadı istedad inkişaf etdirə bilər. Deməli, müəllimlərimiz özləri istedadlı olmalıdırlar ki, istedadlı şagirdləri üzə çıxarmağı və inkişaf etdirməyi bacarsınlar. Belə müəllimlərimiz az deyil, lakin onların çoxu istedad yetişdirməklə yox, repetitorluqla məşğul olmaq məcburiyyətindədirlər.

Acınacaqlı haldır ki, pedaqoji kadr hazırlığı ilə məşğul olan Azərbaycan Dövlət Pedaqoji Univerisitetində prezident təqaüdünə layiq görülən bir nəfər də tələbə yoxdur.

1999/2000-ci dərs ilindən tətbiq edilən ümumi təhsilin yeni dövlət standartları – Bazis tədris planının verdiyi imkanlara uyğun VI sinifdən yuxarı şagirdlərin maraq, meyil və qabilliyyətlərini nəzərə almaqla seçmə fənlər əsasında siniflərin komplektləşdirilməsinə başlandı, lakin bir sıra məktəb rəhbərləri hələ də şagirdlərin siniflər üzrə komplektləşdirilməsini onların psixoloji, intellektual xüsusiyyətlərinə görə deyil, sadəcə qrup halında (sinifdən-sinfə) həyata keçirir. Bu prosesdə uşaqların inkişaf səviyyəsi, fərdi xüsusiyyətləri nəzərə alınmır. Belə iş formasının indi də tətbiqinin nəticəsidir ki, istedadlı uşaqlar bəzən orta məktəb yaşı mərhələsində, bəzən orta məktəblə ali məktəb arasında, əksər hallarda isə ali məktəbi bitirdikdən sonra istehsalatda itib-batır, malik olduqları yaradıcılıq potensialını üzə çıxara bilmirlər. Xalqımızın böyük mütəfəkkiri N.Tusi yazırdı : «... istedadlar üçün heç bir şeyi əsirgəməməli, istedadın sönüb getməsinə yol verilməməlidir».

Qabaqcıl dövlətlərin təcrübəsi göstərir ki, hər hansı bir ölkənin 15-20 il sonrakı elmi-texniki tərəqqisinin səviyyəsi oradakı təhsil sisteminin bugünkü vəziyyəti ilə müəyyənləşdirilir. Bu baxımdan konstitusiyanın "Təhsil haqqında" qanunu, hökumətin müvafiq qərarlarının tələblərinə, ümumi təhsilin konsepsiyasının prinsiplərinə uyğun olaraq Təhsil Nazirliyi respublikamızın ümumtəhsil məktəblərində, internat tipli tədris müəssisələrində ayrı-ayrı fənlərin dərindən öyrədilməsinin təkmilləşdirilməsi, humanitar və dəqiq elm sahələri, incəsənətin müxtəlif növləri üzrə istedadlı şagirdlərin müəyyənləşdirilməsi sahəsində təhsil orqanları və müəssisələrinin vəzifələrinə dair bir sıra sənədlər qəbul etmiş, istedadlı şagirdlərin təmayüllü sinif və tədris müəssisələrinə cəlb edilmələrinin çevik və elmi-pedaqoji, metodik cəhətdən əsaslandırılmış sisteminin yaradılmasının vacibliyini göstərmiş, istedadın üzə çıxarılması və inkişaf etdirilməsi üçün müvafiq şəraitin yaradılması istiqamətində görüləcək işləri müəyyənləşdirmişdir. Bu sənədlərdə yerli təhsil orqanlarına qabiliyyətli şagirdlərin seçilmələrində məktəblərin, pedaqoji kollektivlərin, müəllimlərin imkanlarını səfərbərliyə almaq, qabiliyyətli uşaqlar üçün ayrıca qruplar, siniflər və yeni tipli tədris müəssisələri təşkil etmək, onların müəyyənləşdirilməsinə xidmət edən olimpiadaların, sərgilərin, müsabiqələrin, bədii özfəaliyyət baxışlarının və s. keçirilməsini ənənə halına salmaq, məktəblilərin fiziki və intellektual imkanlarının qiymətləndirilməsinə

yaradıcılıq birlikləri və cəmiyyətlərini, elm, texnika, mədəniyyət nümayəndələrini geniş cəlb etmək tapşırılmışdır.

Son illərdə qabiliyyətli, istedadlı şagirdlərin aşkarlanması və inkişaf etdirilməsi istiqamətində müəyyən işlər görülmüş, müvafiq tədbirlər həyata keçirilmiş, məktəblərə psixoloq ştatı ayrılmışdır. Hazırda 4118 ümumtəhsil məktəbində psixoloq işləyir, lakin Təhsil Nazirliyinin aparatında bu böyük psixoloqlar ordusunun işini istiqamətləndirən, tənzimləyən və nəzarət edən bir bölmə, bir mütəxəssis yoxdur.

İstedadlı şagirdlərin üzə çıxarılması və inkişaf etdirilməsində fənn olimpiadalarının rolu inkaredilməzdir.1992-ci ildən başlayaraq ölkəmizin məktəbliləri dünya olimpiadalarında 12 qızıl, 35 gümüş, 53 bürünc medal qazanmış, dünyanın 50-dən çox ölkəsində vətənimizi təmsil etmişlər.

Müxtəlif fənlərdən daha çox istedadların aşkarlanması məqsədilə 1990–1996-cı illərdə ölkə səviyyəsində olimpiada keçirilən fənlərin sayı 5-dən 10-a çatdırılmış, həm təbiət, riyaziyyat, həm də coğrafiya kimi humanitar fənlər əhatə edilmiş, olimpiadaların kütləviliyinin təmin olunması üçün bölgə mərhələləri keçirilmişdir. 1996/1997-ci dərs ilindən olimpiadaların respublika turunun beynəlxalq olimpiada sisteminə 5 fəndən – riyaziyyat, fizika, kimya, biologiya və informatikadan keçirilməsi məqsədəuyğun sayılmışdır.

1996/1997-ci dərs ilindən olimpiadaların respublika turunun beynəlxalq olimpiada sisteminə müvafiq olaraq 5 fəndən – riyaziyyat, fizika, kimya, biologiya və informatikadan keçirilməsi məqsədəuyğun sayılmışdır.

Olimpiada qalibləri ölkəmizin gələcək elminin potensial qüvvəsi kimi diqqətdə saxlanılmalı və onların inkişafını təmin edən şəraitin yaradılması üçün müvafiq tədbirlər görülməlidir.

Ümumtəhsil məktəblərində fakültativ məşğələlərin, 80-ci illərin ikinci yarısından sonra maraq kurslarının tətbiqi, bir sıra fənlərin tədrisi zamanı siniflərin iki qrupa bölünməsi, təmayüllü siniflərin (məktəblərin) təşkili, ayrı-ayrı elmlərin əsaslarının nəzəri və praktik cəhətdən dərindən öyrənilməsinin təmin edilməsi istedadlı şagirdlərin inkişafında xüsusi əhəmiyyət kəsb edir.

Mövcud tədris planlarında V-XI siniflərdə maraq üzrə kurslara həftədə 20 saat vaxt ayrılır. Bu imkandan məqsədyönlü istifadə etmək hər bir müəllimin, məktəb rəhbərinin borcudur.

Respublikamızın 400-ə yaxın məktəbində 4500-dən çox təmayüllü sinif fəaliyyət göstərir. Onlara 40 minə yaxın qabiliyyətli şagird cəlb edilmişdir. Artıq 50 ilə yaxındır ki, bu siniflərdə müsbət təcrübə toplanmışdır. Bu siniflərin məzunları müvəffəqiyyətlə ali məktəblərə daxil olur, elm, təhsil, mədəniyyət və xalq təsərrüfatının müxtəlif sahələrində uğurla çalışırlar.

Son illərdə qabiliyyətli uşaqların bilik, bacarıq və vərdişlərinin daha da inkişaf etdirilməsi üçün müvafiq şəraitin yaradılması məqsədilə yeni tipli tədris müəssisələrinin – gimnaziya və liseylərin yaradılmasına da xüsusi diqqət yetirilir. Bununla bağlı "Təhsil haqqında" qanunda oxuyuruq: "Dövlət maddi vəziyyətindən asılı olmayaraq, istedadlı şəxslərin təhsilini davam et-

dirmələrinə təminat verir, sosial müdafiəyə ehtiyacı olanların təhsil almalarına şərait yaradır". Keçən tədris ilində ölkəmizdə 79 dövlət, 18 qeyri-dövlət lisey və gimnaziyası fəaliyyət göstərmişdir. Onlarda 57 minə yaxın istedadlı şagird təhsil alır.

Gimnaziya və liseyləri yeni tipli tədris müəssisələri adlandırmağımıza baxmayaraq, onlar ən qədim təlim-tərbiyə ocaqlarıdır. Onlar ilk dəfə qədim Yunanıstanda, (e.ə.IV əsrdə) meydana gəlmiş, XVI əsrdən başlayaraq Qərbi Avropa ölkələrində, XVIII-XIX əsrlərdə Rusiyada yaradılmışdır. Azərbaycanda ilk gimnaziya 1865-ci ildə, Bakıda açılmışdır.

Gimnaziya yunanca «qimnasiy» sözündən olub, orta ümumtəhsil tədris-maarifçilik müəssisəsidir. Lisey orta təhsil müəssisəsidir və öz adını Apollon Likey məbədinin adından almışdır.

Gimnaziya və liseylər müəyyən məqsədlərə xidmət etmiş və müvafiq vəzifələri yerinə yetirmişdir, məsələn, qədim Yunanıstanda gimnaziyalara *palestranı* (bədən tərbiyəsi məktəbi) bitirən əqli və fiziki cəhətdən qabiliyyətli uşaqları qəbul edirdilər. Onlar idmanla məşğul olmaqla bərabər, siyasət, fəlsəfə və ədəbiyyatdan elmi biliklər alırdılar. Liseylərdə isə şagirdlərə əsasən fəlsəfi biliklər aşılanırdı. XIX əsrdə Rusiyada yaradılan liseylər orta təhsil müəssisəsi olmaqla, dövlət idarələrində xidmət etmək üçün məmurlar hazırlayırdı (1811-ci ildən fəaliyyətə başlayan Sarskoe Selo liseyi). Göründüyü kimi, gimnaziya və liseylərdə təlim müəyyən təmayülə əsasən qurulmuş, tədris seçilən təmayül istiqamətində dərindən aparılmışdır.

Liseylər hazırda dünyanın iki ölkəsində – Fransada (ibtidai məktəb+kollec+lisey) və Türkiyədə (ilk okul+orta okul+lise) daha geniş yayılmış, onlar ümumi təhsil verən tam orta məktəbin üçüncü səviyyəsini təşkil edir və tədris müəyyən təmayüllər üzrə aparılır.

Rusiyada, MDB ökələrində, o cümlədən, Azərbaycanda lisey və gimnaziyalar ümumi təhsil müəssisələrinin bir növü kimi fəaliyyət göstərir. Həmin məktəblərin qarşısında qoyulan məqsəd və vəzifələr nədən ibarətdir?

Gimnaziya (lisey) – axtarışda olan, şagirdlərin maraq, meyil və qabiliyyətlərini nəzərə almaqla fərdiləşdirmə və diferensiallaşdırma əsasında təlim-tərbiyənin yeni məzmununu işləyib hazırlayan, onu həyata keçirməyin forma və metodlarını müəyyənləşdirən və tətbiq edən, yüksək hazırlıqlı elmi-pedaqoji potensiala, güclü tədris-maddi bazaya malik, uşaqların hərtərəfli inkişafı üçün əlverişli şərait yaradan orta ümumtəhsil müəssisəsidir.

Qeyd edilən tələbləri yerinə yetirmək məqsədilə təhsil sahəsində islahat proqramında xüsusi istedada malik olan şagirdlərin vaxtında aşkarlanması və onların təhsilinin inkişafını təmin etmək üçün yeni tipli təhsil müəssisələrini yaratmaq məsələsi qarşıya qoyulmuşdur.

Gimnaziyalar ümumi təhsilin hər üç pilləsini, liseylər isə üçüncü pilləsini əhatə edir, təhsilin bazis tədris planının tələblərini gözləməklə, elmlərin əsaslarının bu və ya digər sahələri – təbiət-riyaziyyat, humanitar profillər üzrə istiqamətləndirilirlər.Tədris prosesində əldə edilən biliklər sinifdənxaric məş-

ğələlərdə və məktəbdənkənar təlim-tərbiyə müəssisələrindəki dərnəklərdə daha da dərinləşdirilməli və genişləndirilməlidir.

Hazırda respublika Təhsil Nazirliyi sistemində 80-ə yaxın yeni tipli tədris müəssisəsi fəaliyyət göstərir. Bu müəssisələrdə 50 mindən artıq istedadlı uşaq təhsil alır. Təqdirəlayiq haldır ki, son illərdə respublikamızın bir sıra ali məktəblərin tərkibində liseylər yaradılıb, elmin müxtəlif sahələrinə maraq göstərən qabiliyyətli və istedadlı şagirdlərin yüksək ixtisaslı mütəxəssislər tərəfindən inkişaf etdirilmələri üçün müvafiq şərait yaradılır. Bəzi gimnaziya və liseylər internat məktəb kimi fəaliyyət göstərir. Belə qapalı müəssisələrdə şagirdlərin yaşamaları və təhsil almaları üçün hər cür şərait yaradılır, onlar daim pedaqoji kollektivin diqqət və qayğısını hiss edirlər. Bu, eyni zamanda şagirdlərin sosial müdafiəsinin həyata keçirilməsi deməkdir.

Yeni tipli tədris müəssisələrində təlim prosesi sırf diferensial xarakter daşımalı, çoxvariantlı və fərdi tədris planları, proqramları tətbiq edilməli, bunlara yüksək elmi-nəzəri hazırlığa, pedaqoji və metodik kamilliyə, yaradıcılıq qabiliyyətinə malik alimlər, müəllimlər cəlb olunmalı, müasir tələblərə cavab verən proqramların tələbləri baxımından təchiz olunmuş fənn kabinetləri, laboratoriyalar, kompyuter sinifləri, zəngin kitabxana və s. yaradılmalıdır.

Şagirdlərin istedadının inkişafını yüksək səviyyəyə qaldırmaq üçün təlimin keyfiyyəti həlledici əhəmiyyət kəsb edir. Şagirdlərin qabiliyyətlərinin inkişaf etdirilməsində ailədə yaradılan şəraitin də əhəmiyyəti böyükdür.

Şagirdlərin əqli və fiziki qabiliyyətlərini inkişaf etdirməkdə müəllimlər, tərbiyəçilər və valideynlər həmfikir olmalı, onların təlim-tərbiyəsinə xüsusi qayğı göstərməlidirlər.

Qabiliyyət öz-özünə inkişaf etmir, onu daha da inkişaf etdirmək üçün müəllimlərin və valideynin rəhbərliyi altında, şagirdin marağı və meyli istiqamətində, sistemli şəkildə, intensiv işləməsini təşkil etmək lazımdır. "Qurani-Kərim" buyurur ki, "Hər kəsin istedadı, qabiliyyəti öz-özünə artıb-əskilməz" (Ər-Rəd (göy gurultusu) surəsi, 8-ci ayə). Bunun üçün şagirdlərə işgüzarlıq, əməksevərlik, çalışqanlıq, inadkarlıq, mübarizlik, təvazökarlıq və digər yüksək insani keyfiyyətlər aşılanmalıdır. Tənbəllik, laqeydlik, biganəlik istedadın düşmənidir. «Bilik öyrənməkdə laqeydlik ən murdar və ən təhlükəli xasiyyətdir» (N.Tusi). Müdriklər deyiblər ki, «...zəhmət çəkmədən elmə yiyələnmək olmaz» («Kəlilə və Dimnə»). Qabiliyyətli, istedadlı uşaqların yüksək mədəniyyətə, mənəviyyata malik, təvazökar insan kimi tərbiyə olunmasında, məşhur italyan rəssamı Rafael Santi haqqında deyildiyi kimi «...gözəl sənətlə gözəl xasiyyəti özündə birləşdirən bir insan» (C.Boavari) yetişdirməkdə ailə, məktəb və cəmiyyət yekdil olmalı, onlara diqqət və qayğı göstərməli, müvafiq mühit və şərait yaradılmalıdır.

Qabiliyyətli, istedadlı uşaqlar təkəbbürdən, lovğalıqdan çəkindirilməli, həmişə öyrənməyə, axtarışda olmağa, elmin, sənətin sirlərinə səbrlə, təmkinlə yiyələnməyə sövq edilməlidirlər. Təfəkkur sahibləri deyiblər ki, «...öz istedadınla qürrələnmə, öyrənməkdən və yaxşı sözə qulaq asmaqdan ar etmə»

(«Qabusnamə»). 89 illik ömrünün 75 ilini gərgin yaradıcılıq əməyinə həsr edən dahi rəssam, heykəltəraş, memar və şair Mikelancelo həyatının son anlarına qədər öyrənmək həvəsində olmuşdur. O demişdir: «Öz sənətimin əlifbasına yenicə yiyələnməyə başlarkən həyatdan ayrılmalı oluram».

Müəllimlər, tərbiyəçilər, valideynlər bilməlidirlər ki, insanlar «...istedadına görə pis, yaxud yaxşı qabiliyyətdə xəlq edilirlər...» (Həzrət Əli), adamların «qabiliyyətləri yaxşı və pis» (K.Platonov), müsbət və mənfi olur. Yaxşı, müsbət qabiliyyətlilər səmimi, doğru-düzgün, yaradıcı, qurucu və s. insanlardır. Pis, mənfi qabiliyyətlilər isə yaltaq, riyakar, dağıdıcı, yırtıcı və s. adamlardır. Belə «qabiliyyətlilər» xalqın, ölkənin başına ancaq bəla gətirərlər. Tarix bunu çoxdan sübut edib, son illərin bir çox hadisələri bunu bir daha təsdiq etdi. Çox təəssüf ki, beləları haqqında da bəzən deyirlər ki, «çox qabiliyyətli, bacarıqlı adamdır». Əgər o qabiliyyət, bacarıq xalqımızın, ölkəmizin tərəqqisinə, dövlətimizin, dövlətçiliyimizin möhkəmləndirilməsinə yönəldilməyibsə, o, heç kəsə lazım deyil, çünki onlar «...haqsız yerə və təkəbbür üzündən həqiqəti inkar edirlər» («Qurani-Kərim», Nəml surəsi, 14-cü ayə).

XIII əsrin axırları – XIV əsrin əvvəllərində yaşayıb-yaratmış görkəmli Azərbaycan şairi və mütəfəkkiri Marağalı Əvhədi qabiliyyətli, lakin zatı naqis olan şəxsə təhsil verilməsini belə məsləhət görmürdü. Onun fikrincə, zatən ziyankarlığa meyilli şəxslər təhsil aldıqdan sonra ziyanlı işlərini daha təsirli, daha məharətlə yerinə yetirə bilərlər. V.Rozov belə deyir: «Tərbiyəsiz, mənəviyyatca məhdud adam nə qədər ağıllıdırsa, təhlükəli, məkrli məqsədlərini həyata keçirməkdə onun ağlı o qədər kəskin ola bilər». Belə «qabiliyyətlilər» psixoloq, müəllim və tərbiyəçilər tərəfindən erkən yaşlarından aşkar edilməli, çox ciddi tərbiyə edilməli və daim nəzarətdə saxlanılmalıdırlar.

Fədakar müəllimlər, tərbiyəçilər, alimlər inanırlar ki, onların ən yaxşı təhsil və tərbiyə almış, yüksək intellektə, yaradıcılıq qabiliyyətinə malik şagirdləri yeni dünya yaradacaqlar.

Qabiliyyətli uşaqların, gənclərin aşkar və inkişaf etdirilməsi mürəkkəb, çoxcəhətli işdir. Bu işi həvəslə, səbrlə ölkəmizin gələcək inkişafı üçün döyünən ürəyi, möhkəm iradəsi olan müəllimlər, tərbiyəçilər, alimlər, valideynlər, uşaq və gənclər təşkilatları aparmalıdırlar. Bu işə elmi istiqamət vermək, elmi-praktik əsaslara söykənən sistem yaratmaq məqsədilə ölkədə müvafiq qurumun – elmi-metodik mərkəzin yaradılması zəruridir, çünki istedad milli sərvətdir, ona qaygı gərəkdir.

**ədəbiyyat**

1.Xüsusi istedada malik uşaqların (gənclərin) uaradıcılıq potensialının inkişafı üzrə Dövlət Proqramı (2006–2010-cu illər). Bakı, 2006-cı il, aprelin 17-si
2.Azərbaycan Respublikasının Konstitusiyası.
3.Azərbaycan Sovet Ensiklopediyası ( 1976–1987-ci illər).
4. «Qabusnamə», Bakı, 2009
5. «Kəlilə və Dimnə»,Bakı: «Öndər», 2004
6. Bəylərov E. İstedadlı uşaqların yaradıcılıq potensialının inkişafına dair. «Məktəbəqədər və ibtidai təhsil», 2013, № 1

**Талант национальное богатство, необходимо позаботиться о нем**

**резюме**

В статье говорится о талантливых детей, об их открытие, обучении и воспитании. Эта проблема с древних времен была в центре внимания общества.

Отмечается отношение современного мира к талантливым детям, важность создание научно-методических центров, что они являются создателями нового мира,

**Talent is national wealth, it needs care**

**summary**

Talented children, their being revealed, training (instruction,doctrine) in the article and is talked from upbringing, it was in the centre of attention society this problem is marked from ancient times.

Attitude (relation) to talented children in the modern time in Azerbaijan, creative of the new world their was/were, is/are spoken them from (the) state care, necessity of the creation of the methodic and scientific centres is marked.

## PSİXOLOJİ FAKTOR TƏHSİLİN KEYFİYYƏTİNƏ TƏSİR EDƏN MÜHÜM AMİL KİMİ

**Emiliya Kərimova ,**

Azərbaycan Müəllimlər İnstitutunun müəllimi, dosent



**açar sözlər:** təhsil, keyfiyyət, psixoloji faktor, tərbiyə

**ключевые слова:** образование, качество, психологический фактор, воспитание

**key words:** education, quality, psychological factors, without

Müasir dövrdə elm, mədəniyyət, iqtisadiyyat, texnologiya və s. sahələrdə baş verən dəyişmə və inkişaf təhsildə insan amilinə də yeni yanaşma tələb edir. Bu, XXI əsr sivilizasiyasının, elmi-texniki tərəqqinin, qloballaşmanın nəticəsi olub, özünü aydın şəkildə göstərir. Cəmiyyətin inkişaf yolu təhsildən keçdiyinə görə, təhsilin fenomenal gücü də öz növbəsində cəmiyyətin bütün sahələrinin inkişafına təsir göstərir, onu düzgün istiqamətə yönəldir, nailiyyətlərə dogru aparır.

Ümummilli lider Heydər Əliyevin "Təhsil millətin gələcəyidir" fikri təhsilin özülünü təşkil etməklə bu sahədə fəaliyyət göstərən hər bir şəxs üçün devizə çevrilmişdir. Qloballaşan dünyanın informasiya bolluğu şəraitində təhsilin vəzifələri dəyişir. Təhsil müəssisələri təkcə bilik, bacarıq verməklə kifayətlənməməli, eyni zamanda agıllı, intellektli, psixoloji cəhətdən saglam şəxsiyyət yetişdirməyi bacarmalıdır. Bu, müasir təhsilin keyfiyyət göstəricisi kimi qəbul olunur.

XXI əsri keyfiyyət əsri adlandırırlar. Cəmiyyət həyatının müxtəlif sahələrində bilik, humanitar elmlərdə yeni keyfiyyət konsepsiyası formalaşmağa başlamışdır. O, fundamental sosial-iqtisadi və pedaqoji kateqoriya kimi qəbul edilmişdir. Təsadüfi deyil ki, cəmiyyətin gündəlik həyatında "xidmətin keyfiyyəti", "ictimai intellektin keyfiyyəti", "təhsil xidmətlərinin keyfiyyəti", hətta "həyatımızın keyfiyyəti" terminləri tez-tez işlənir və müasir cəmiyyətin həyatında, məişətimizdə bu ifadələrlə rastlaşırıq. Bunun üçün, hər şeydən əvvəl , ailədə və cəmiyyətdə insan şəxsiyyətinin yeni keyfiyyətlərlə formalaşdırılması zərurəti yaranır. Ona görə də hazırda böyüyən nəslin yeni maraqlar, bacarıqlar, qabiliyyətlər, dəyərlər əsasında inkişafı problemi aktualdır. Bu problemin həlli vəzifəsi dövlət və təhsil müəssisələri ilə yanaşı ailənin də üzərinə düşür.

Orta təhsil müəssisələrində uşaqlarımıza verilən təhsilin keyfiyyəti bu gün ən aktual problemdir. Bu sahədə Avropa ölkələrinin səviyyəsinə çatmaq mühüm məsələdir.Təsadüfi deyil ki, son 5–6 ildə ölkədə təhsil sahəsində bir neçə dövlət proqramı qəbul edilmişdir.

XXI əsrin təhsil sistemi qarşısında qoyduğu mühüm yeniliklərdən biri də təhsil prosesinin subyekt – obyekt münasibətlərinin subyekt – subyekt münasibətlərinə çevrilməsidir. Təsadüfi deyil ki, hələ 1999-cu ildə "Təhsil sahəsində islahat Proqramında" təhsilalanın şəxsiyyət kimi formalaşdırılmasını, onun təlim-tərbiyə prosesinin əsas subyektinə çevrilməsini başlıca vəzifə hesab edən yeni təhsil sisteminin yaradılması qeyd edilirdi.

Təhsildən söhbət açarkən biz ilk növbədə məktəbli şəxsiyyətinin formalaşması haqqında düşünürük . Şəxsiyyətin formalaşması pedaqoji psixologiyada ən zəruri məsələ kimi qoyulur. Məktəb yaşının ilk günlərindən tərbiyə işinin düzgün qurulmaması, pedaqoji baxımsızlığın hökm sürməsi şagird şəxsiyyətində arzuolunmaz keyfiyyətlərin formalaşmasına gətirib cıxarır.

Uşaqlarla işin təşkilində, ilk növbədə, idrak proseslərinin imkanları nəzərə alınmalıdır. Müxtəlif xəstəliklər, psixoloji problemlər, gərginliklər uşağın əqli fəaliyyətinə müxtəlif dərəcədə təsir göstərir. Nəticədə onlarda əqli proseslərin ləngiməsi halları yaranır. Bu isə təlim fəaliyyətində çətinliklər törədir. Nəticədə təhsilə, məktəbə marağın itməsi, tez yorulma, tənqid və tələblərə qarşı biganəlik, ünsiyyətdən qaçma, özünəqapanma meylləri yaranır. Xüsusilə oğlanlar arasında belə hallara daha çox təsadüf olunur. Təhsilə cəlb olunmazdan əvvəl belə uşaqlarla xüsusi korreksiya işlərinin aparılması problemi xeyli yüngülləşdirmiş olur.

Nəzərə almaq lazımdır ki, təhsil böyüməkdə olan nəslin nümayəndələrinin şəxsiyyətinin formalaşması prosesinin idarə olunmasından ibarətdir.

Təhsilin şəxsiyyətyönümlü olması insanın ümumbəşəri, ictimai əhəmiyyət kəsb edən, fərdi, bənzərsiz xüsusiyyət və keyfiyyətlərin əldə edilməsi prosesi olub, şəxsiyyətin sosial rolunu özünəməxsus şəkildə yerinə yetirməsinə, yaradıcı ünsiyyətdə olmasına, insanlar tərəfindən qəbul edilməsinə, fəaliyyətinin qiymətləndirilməsinə imkan verən proses kimi başa düşülməlidir. Bu prosesin öz psixoloji mexanizmi var. Onun mexanizmini nəzərə almadan tərbiyə işində müvəffəqiyyət qazanılacağı barədə düşünmək olmaz. Burada ilk növbədə təhsil

prosesinin mahiyyətini təşkil edən və psixoloji nöqteyi-nəzərdən bir-biri ilə bağlı olan aşağıdakı cəhətlərə diqqət yetirmək lazımdır: tərbiyə olunan və tərbiyə edənin xüsusiyyətləri, onların qarşılıqlı münasibətləri, təhsilin məqsədi, tərbiyə prosesində istifadə olunan yollar. Təhsil müəssisələrində tərbiyə prosesini düzgün idarə edə bilmək üçün həmin cəhətlərin hər birinin xüsusiyyətləri nəzərə alınmalıdır. Yalnız bu zaman təhsil prosesində şəxsiyyətin tələbatları, maraq və meyilləri, dünyagörüşü, əqidə və idealları, qabiliyyət və xarakteri lazımi şəkildə formalaşdırıla bilər.

Təhsil müəssisələrində biz daim inkişaf edən, keyfiyyətcə dəyişən uşaqlarla işləməli oluruq. Həmin uşaqlar psixoloji xüsusiyyətlərinə, tələbat və motivlərinə görə fərqlənirlər. Ayrı-ayrı yaş dövrlərində bu fərqlər dəyişir və özünəməxsus tərbiyəvi iş tələb edir. Ona görə də təhsil prosesində müvəffəqiyyət qazanmaq üçün ilk növbədə tərbiyə olunanların yaş və fərdi xüsusiyyətlərini öyrənmək, nəzərə almaq lazımdır. Məhz buna görə də K.D.Uşinski insanı tərbiyə etmək üçün onu hərtərəfli öyrənməyi tövsiyə edirdi.

Görkəmli psixoloq S.İ.Rubinşteyn göstərmişdir ki, uşaqları tərbiyə edə-edə və öyrədə-öyrədə öyrənmək lazımdır. Məhz buna görə müəllim və tərbiyəçi hər hansı bir tərbiyəvi tədbiri həyata keçirməzdən əvvəl şagirdin xüsusiyyətlərini aşkara çıxarmalı, ona müvafiq tərbiyəvi tədbiri tətbiq etməyə çalışmalıdır.

Pedaqoji psixologiya sahəsində tədqiqatlar aparan psixoloqlar belə bir qənaətə gəlmişlər ki, şagirdlərin şəxsiyyətinin təşəkkülündə həlledici yeri təkcə onların fəaliyyətinin düzgün təşkili, şagirdlərin əxlaqi davranış təcrübəsi toplamaları deyil, düzgün əxlaqi davranış motivlərinin tərbiyə edilməsi də mühüm rol oynayır. Bu baxımdan şagirdlərin tələbat sahəsinin öyrənilməsi mühüm əhəmiyyətə malikdir. Çox vaxt şagirdin davranışının bu və digər cəhəti onun tələbatı ilə bağlı olur. Tələbatlar şagirdin davranışını bir motiv kimi şərtləndirir. Buradan tərbiyə prosesində psixoloji cəhətdən diqqəti cəlb edən və nəzərə alınması zəruri olan bir tələb – şagirdin davranışına qiymət verərkən onun motivini müəyyənləşdirmək tələbi meydana çıxır. Psixoloqların tədqiqatları sübut etmişdir ki, motivdən asılı olaraq, eyni fəaliyyət nəticəsində şagirdlərdə müxtəlif əxlaqi keyfiyyətlər formalaşa bilər, məsələn, bir şagird yoldaşının düzgün olmayan hərəkəti haqqında sinif rəhbərinə xəbər verir. Onun bu hərəkətinin motivi müxtəlif ola bilər: ola bilsin ki, şagird yoldaşını bu vəziyyətdən çıxarmaq, ona kömək etmək məqsədilə sinif rəhbərindən kömək gözləyir; sinif rəhbərinin yanında özünü ucaltmaq, onun nüfuzunu qazanmaq üçün bu cür hərəkət edir; şagird yoldaşından qisas almaq üçün bu yolu tutur.

Təlim prosesində müvəffəqiyyət qazanmaq üçün təkcə şagirdlərin yaş və fərdi xüsusiyyətlərinin öyrənilməsi, nəzərə alınması kifayət deyil. Burada tərbiyəvi tədbirin tətbiq edildiyi konkret şəraitin nəzərə alınması da həlledici əhəmiyyətə malikdir. Adətən, konkret şərait nəzərə alınmadan tətbiq olunan, şablon tərbiyəvi tədbir istənilən nəticəni vermir, hətta mənfi təsir göstərir. Tərbiyəvi tədbir o zaman daha səmərəli rol oynayır ki, burada müəllimin

pedaqoji təxəyyülü iştirak etsin. Bu zaman müəllim konkret şəraitdən asılı olaraq tətbiq etdiyi tədbirin hansı nəticə verəcəyini qabaqcadan görə bilər.

Təhsildə yüksək nailiyyətlər əldə etmək üçün şagird kollektivində müsbət psixoloji mühitin yaradılması çox əhəmiyyətlidir, yəni kiçik məktəblilərin, yeniyetmələrin və böyük məktəbyaşlı şagirdlərin kollektivdəki münasibətləri, kollektivdə müsbət psixoloji mühitin yaradılması onların yaş xüsusiyyətlərindən asılı olaraq dəyişir.

Yeniyetmələrin fəaliyyətində əsas motiv təhsildir. Bu prosesin səmərəliliyi, yüksək nəticələrin əldə olunması bir sıra amillərdən asılıdır:

–müəllimin şagirdlə səmimi, emosional, davamlı münasibəti;

–şagirdlərin müraciətlərinə qarşılıqlı hörmət prinsipi əsasında yanaşılaraq, diqqət mərkəzində saxlanılması;

–dərsdə işgüzar mühit yaradaraq şagirdlərin onlar üçün əhəmiyyətli olan məqsədə dogru istiqamətləndirilmələri;

–onlara özünüreallaşdırmanın yol və vasitələrinin öyrədilməsi;

Belə münasibət psixoloji baxımdan məqsədyönlü hesab edilir. Deməli, təhsil prosesinin pedaqoji-psixoloji yanaşmalarla tənzimlənməsi hərtərəfli inkişaf etmiş şəxsiyyətin tərbiyəsinə, onun bütövlüyünün formalaşmasına geniş imkanlar açır və bu problemlərin elmi-nəzəri əsaslarının işlənilməsində pedaqoji, psixoloji tədqiqatların səmərəliliyinin yüksəldilməsi ön plana çəkilir. Bu problemlərin həlli müasir təhsil sisteminin qarşısında duran ən vacib məsələ oldugundan, yeni pedaqoji texnologiyaların, interaktiv təlim metodlarının təhsil sisteminə gətirilməsi, onların nəzəri əsaslarının işlənilməsi və pedaqoji, psixoloji, metodik araşdırmaların bu istiqamətə yönəldilməsi zamanın tələbidir.

**ədəbiyyat**


1. Əlizadə Ə.Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. Bakı, "Ozan", 1998

2. Əmrahlı L.Ş., Rzayeva N.T. Uşaq psixologiyası. Bakı, 2010

3. Həmzəyev M., Babayev Ş., Şükürov N. Təlim psixologiyasının bəzi məsələləri. Bakı: "Maarif", 1995

4. Məmmədzadə R. Təhsildə keyfiyyət aparıcı istiqamətlərdən biri kimi. Bakı: "Müəllim", 2010

5.Mehralov A.O. Müasir təhsilin konseptual problemləri. Bakı: "Mütərcim", 2010


**Психологические факторы, как важные факторы влияющие на качество образования**


**резюме**

Это статья посвящена разработанное с использованием современных достижений возрастной и педагогической психологии, проблеме формирования личности. В этой статье рассматривается роль психологических факторов в повышении качества образования, решение проблем, возникающих в процессе психологии обучения.

**Psychological factors affecting the quality of education as an important factor**
**summary**
This article examines the role of psychological factors in improving the quality of education, the problems that arise in the process of learning psychology edirYas, educational psychology, developed using the latest achievements of the article deals with the problem of identity formation.

# MƏDƏNİYYƏTİN "MƏN" SFERASINA TƏSİRİ

**Maryam Aminzadə,**
BDU-nun sosial və pedaqoji psixologiya kafedrasının doktorantı



**açar sözlər**: mədəniyyət, fərdlərarası əlaqələr, fərd, "Mən", kollektivçilik mədəniyyəti
**ключевые слова**: культура, взаимоотношения индивидов, личность, «Я», коллективистские культуры
**key words**: culture, relationships of individuals, personality, "I", collectivist culture

"Mən" anlayışı daim psixoloqların diqqət mərkəzində olan əhəmiyyətli anlayışlardan biridir. Bu anlayış bir çox nəzəriyyələrin (xüsusilə sosial psixologiyada) əsasını təşkil edir. "Mən"i belə izah etmək olar: "Mən" təşkilatlanmış, bütöv, şəxsi təcrübələrin komponenti olan fərdiləşmiş bir tamdır.

İstənilən insan fərd olaraq özünü fiziki baxımdan (zahirən) digərlərindən fərqləndirir. "Mən"in bu cəhətinə *ekoloji "Mən"* (*ecological self*) deyilir. Ekoloji "Mən" fiziki mühitlə əlaqə fonunda dərk edilir. Ekoloji, fiziki idrakla yanaşı hər bir insan öz daxili fəaliyyətləri (arzuları, düşüncələri, hissləri və s.) haqqında da məlumat və biliklərə malikdir. Bu daxili fəaliyyətlər daha çox fərdi, spesifik xarakter daşıyır.

**Qərbdə "Mən"və Şərqdə "Mən", fundamental fərqlər.** Şübhəsiz ki, "Mən"in bəzi cəhətləri (o cümlədən, ekoloji "Mən") ümumi fenomenlərdilər, lakin mədəniyyətlərarası psixologiyada (*cross-cultural psychology*) "Mən"in mədəniyyətlə əlaqədar olan, həm də fərqlənən cəhətləri öyrənilir. Mədəniyyət "Mən"i formalaşdırır və beləliklə, fərdin özü haqqında düşüncə və hisslərinə təsir etmiş olur.

"Mən" və identiklik sferasında Şərq və Qərb mədəniyyətləri arasında ziddiyyətli məqamlar mövcuddır. Qərbin individualist (fərdiliyə əsaslanan) mədəniyyətində insanların mahiyyət etibarilə bir-birindən fərqli, özünəməxsus olmasına ciddi inam vardır. Bu mədəniyyətdə normalar fərdi müstəqiliyyə istinad edir, fərddən özünəməxsus xüsusiyyətlərin nümayişi tələb olunur. Bu normativ zərurətin özünü doğrultması fərdin tərbiyəsi və inkişafı zəminində mümkündür.

Belə ki, onun davranışı öz hisslərinə, düşüncəsinə və yanaşma tərzinə müraciət fonunda təşkilatlanır və tənzimlənir. Digər tərəfdən, individualist mədəniyyətə malik olan insanı təhlil etmək üçün onun öz müraciət obyektlərini (fərdi düşüncə, hisslər və yanaşma tərzi) əsas götürmək lazımdır. Bu yanaşmaya əsasən hər bir insan özünəməxsus bir dünya olaraq mütəşəkkil bilik, qiymətləndirmə, təcrübə və emosiyalar sistemindən ibarət bir tamdır. Bu özünəməxsus tam digər tamlardan fərqlənir. Belə yanaşmanın əsas ideyalarından biri "Mən"in müstəqilliyidir. Məhz həmin səbəbdən də bu cür xüsusiyyətlərə malik olan "Mən" *"müstəqil "Mən"* adlanır.

Tədqiqatların nəticələrinə görə, Qərbdə "Mən"ə yanaşma daha çox yuxarıda qeyd edildiyi kimidir, lakin qeyri-Qərb mədəniyyətlərində bu yanaşmaya üstünlük verilmir. Əlbəttə, Qərb dünyasında "Mən" haqqında düşüncələr və yanaşmalarda bəzi fərqlər vardır, lakin bu fərqlər oxşar cəhətlərlə müqayisədə xeyli azdır. Ümumilikdə Qərb alimlərinin "Mən" və identiklik ilə əlaqədar düşüncələrini aşağıdakı kimi ifadə etmək olar: individual "Mən" çox güclü formada unikallığa, iradəyə, rəhbərlik hissinə və məqsədyönlülüyə istinad edir. Bu yanaşmada "Mən" idrakın mərkəzi nöqtəsi olub, insan psixologiyasının əsasını təşkil edir və ümumilikdə dünya "Mən"in əsasında təhlil olunur, dərk edilir.

Qərb dünyasının yanaşmalarında "Mən" və "qeyri-Mən" biri-birindən fərqlənir. "Mən" fərdin özünə aid olub, fərdin onun yeganə sahibi olduğunu düşünür. Fərdin nəzarət gücünə malik olması hissi Qərb "Mən" konsepsiyasının vacib elementidir. "Mən" zaman-zaman stabil qalmalı, parçalanmamalı, bütöv və davamlı olmalıdır. "Mən" hər şeyin ölçü vahididir.

Bütün bunların əksinə olaraq, kollektivçi qeyri-Qərb mədəniyyətlərində insanların bir-birindən asılılığına və qarşılıqlı əlaqədə olduqlarına güclü inam vardır. Bu mədəniyyətlərdə vacib normalardan biri məhz həmin asılılıq və onun qorunmasıdır. Bu normanın reallaşması üçün "Mən"in geniş və qarşılıqlı sosial əlaqə sisteminin bir hissəsi olduğunu qəbul etmək lazımdır. Eyni zamanda, insan davranışının geniş qarşılıqlı asılılıqlar sistemi ətrafında təşəkkül tapdığına inanmaq həmin normanın reallaşması üçün çox vacibdir. Buna görə də bir çinli insan özünü ətrafındakı geniş əlaqələr sisteminin hissəsi bilir və qarşılıqlı asılılıq hissi daim onunladır. Belə olduqda, "Mən" əlaqədən kənarda izah və təhlil edilə bilməz. Bu yanaşmada "Mən" başqalarından müstəqil deyil. Kollektivçi mədəniyyət isə fərdi başqaları ilə əlaqədə olaraq, onlarla birgə fəaliyyət göstərib, öz öhdəliklərini yerinə yetirmək üçün yollar axtarmağa stimullaşdırır. "Mən"in belə təhlilinə *"asılı "Mən""* konsepsiyası da deyilir.

**"Mən" və "qeyri-Mən" (digərləri) arasında fərq.** Qərb mədəniyyətində "Mən" ilə digərlərini fərqləndirmək və bunları konkret olaraq müstəqil varlıqlar kimi təhlil etmək ideyası heç bir zaman tənqidə məruz qalmayıb. Qərb mədəniyyətində "Mən" ilə "qeyri-Mən" arasında konkret sərhədin və aydın fərqin olması fərdi identikliyin formalaşması ilə nəticələnibdir. Qərb inkişaf nəzəriyyəçilərinin hamısı inanır ki, inkişaf prosesində digərlərindən fərqlənən "Mən" hissinin yaranması danılmaz realliqdır. Bu nəzəriyyəçilərin fikrincə, "Mən" ilə digərləri

arasında sərhəd və fərq hissinin zəifləməsi identikliyin itirilməsinə, psixi pozuntulara səbəb ola bilər. Qərb alimləri üçün "Mən"i əhatə etməyən nəzəriyyələr (*self-lessness theory)* qəribə və əhəmiyyətsizdir.

Deyilənlərin əksinə olaraq, Asiya mədəniyyətlərində və Şərq nəzəriyyəçilərinin konsepsiyalarında fərd (individ) başqaları ilə əlaqə fonunda təhlil edilir. Fərd müstəqil deyil, asılı bir varlıq hesab edilir. Şərqi Asiyada daha çox müşahidə edilən və əlaqəyə əhəmiyyət verən bu yanaşma Konfutsinin etik təlimatları və əxlaqi sisteminə əsaslanır. Bu yanaşmaya əsasən, "Mən" ilə digərləri arasında fərq konkret və güclü deyil, həmçinin "Mən" digərləri ilə ("qeyri-Mən"lə) birdir.

Əlbəttə, qeyd edilənlər bunu deməyə əsas verə bilməz ki, Qərbdə fərdlərarası əlaqəyə (*interaksiyaya*) əhəmiyyət verilmir və belə bir əlaqənin mövcudluğuna yalnız Şərq dünyasında təkid edilir. Qərb sosial elmində öz hegemonluğu ilə seçilən ideyalardan biri bundan ibarətdir ki, fərdin şəxsiyyəti sosial kontekstdə formalaşır, lakin Şərq dünyasında məsələyə daha fərqli yanaşılır və hesab edilir ki, fərdlərarası əlaqə şəxsiyyətin formalaşmasına səbəb olmaqla yanaşı, həm də fərdin insan olmasının əlaməti və izahıdır. Digərlərindən kənarda və təcrid olunmuş halda yaşayan bir insanın həyatı mükəmməl ola bilməz. İnsan həyatı onun başqaları ilə birlikdə və əlaqədə yaşaması ilə təkamül edir və məna kəsb edir. Digərləri olmadan, fərdi identikliyin anlamı qalmaz. Digər Şərq fəlsəfələri, o cümlədən, induizmdə "Mən" ilə "qeyri-Mən" (digərləri) arasında fərqin və fasilənin olmadığına daha çox təkid edirlər. İnduizmdə "Mən" və individliyə inam doğru hesab edilmir.

Müasir praktik tədqiqatların nəticələri yuxarıda qeyd edilən fərqlərin olduğunu sübut edir. İndividualist cəmiyyətlərin üzvlərindən özlərini xarakterizə etməyi istəyəndə, onlar daha çox cəsarət, çalışqanlıq, tənbəllik, sədaqətlilik, məntiqilik və s. kimi fərdi xüsusiyyətləri dilə gətirirlər, lakin Şərqi Asiya əhalisi özlərini daha çox emosional, mehriban, şəfqətli və s. bu kimi insanlararası əlaqələri ehtiva edən xüsusiyyətlərlə xarakterizə edirlər .

Müxtəlif tədqiqatların nəticələri göstərmişdir ki, Çinin sürətlə inkişaf edən regionlarında belə insanlar fərdi istəklərindən daha çox sosial normalara uyğun və başqalarının onlardan gözlədiklərinə müvafiq formada davranırlar. Həmçinin belə bir nəticə də əldə edilmişdir ki, Hindistan əhalisi amerikalılardan daha çox başqaları ilə normal münasibət qurmağa əhəmiyyət verirlər, başqalarının tələb və istəklərinə diqqətli olmağı əxlaqi öhdəlik hesab edirlər. Eyni zamanda, hindistanlılar amerikalılara nisbətən daha çox davranışlarını insanlararası əlaqələrə uyğun formada dəyişməyə səy göstərirlər .

Hindistan və Amerikada keçirilən bir mədəniyyətlərarası tədqiqatın nəticələri göstərmişdir ki, amerikalılardan fərqli olaraq, hindistanlılar üçün cəmiyyətdə "müstəqil yaşayan fərd" anlayışı əhəmiyyət kəsb etmir. Yaponiyalılar inanırlar ki, sosial əlaqələrdən təcrid olunmuş fərd natamamdır. Yapon dilində "*jibun*" sözü ingilis dilində "*self*" sözü ilə eyni mənalı hesab edilir, lakin nəzərə almaq lazımdır ki, həmin termin (*jibun*) yapon dilində "*Mən-hissə*" mənasını verir. Yəni,

"Mən" müxtəlif qruplar və əlaqələr məcmusu olan tamın bir hissəsidir. Yaponiyada "fərd" bir "hissə"dir və bu hissə cəmiyyətlə uyğunlaşaraq öz yerini tapdıqdan sonra təkamül tapa bilər.

**Özünü yüksək tutmaq (self-enhacement) və təvazökarlıq (self-effacing).** Müxtəlif tədqiqatlar zamanı belə bir fakt aşkar edilmişdir ki, individualist mədəniyyətlərin üzvləri "Mən"i qorumaq və özünü yüksək tutmağa daha meyillidirlər. Bu tip mədəniyyətlərin üzvləri öz uğurlarını daxili və sabit xüsusiyyətləri (o cümlədən, istedad və bacarıq) ilə, uğursuzluqlarını isə xarici amillər (o cümlədən, ətrafdakılar, şəraitin əlverişsizliyi) və yaxud qeyri-sabit daxili amillərlə (o cümlədən, kifayət qədər çalışmamaq) əlaqələndirməyə meyilli olurlar .

Özünü yüksək tutmaq meyli bəzən insanların həddindən artıq optimist olmaları ilə nəticələnir. Onlar özlərinin şans və uğurluluq ehtimalını daha yüksək, uğursuzluq ehtimalını isə daha aşağı hesab edirlər. Praktik tədqiqatların nəticələrinə görə, cəmiyyətlərin individualist üzvləri, hətta kiçik yaşlarında belə, özlərini daha yüksək tutmağa meyilli olurlar, məsələn, dörd yaşlı amerikalı uşaqlar başqaları ilə əlaqə yaratmaq məharəti, intellekt və digər bacarıqlar baxımından özlərini daha yüksək qiymətləndirirlər. Asiyanın kollektivçi mədəniyyətlərində isə özünü yüksək tutmaq meyli, demək olar ki, müşahidə edilmir və onun əksi – təvazökarlıq meyli daha çox müşahidə edilir, məsələn, çinli tələbələr uğurlarını, əsasən, "daha çox çalışmaq", uğursuzluqlarını isə "az çalışmaq" amili ilə əlaqələndirirlər. Hətta yaponiyalı tələbələr də uğursuzluqlarını uğurlarından daha tez və daha asan qəbul edə bilirlər. İndividualistliyin üstün olduğu cəmiyyətlərin yüksək dərəcədə optimistliyindən fərqli olaraq, Şərqi Asiya insanları daha çox pessimist olurlar .

Bu tip mədəni fərqlərin mövcudluğunu belə izah etmək olar ki, individualist mədəniyytlərdə fərdin başqalarından fərqli olması və qrup üzvlərindən daha irəlidə ğetməsi tələb edilir. Nəticə etibarilə, valideyn övladı böyüdərkən onun müsbət cəhətlərinə daha çox əhəmiyyət verib, pozitiv xüsusiyyətlərini kəşf etməyə çalışır. Uşaqlar da inkişaf prosesində öz müsbət cəhətlərinə daha çox əhəmiyyət verməyi öyrənirlər, lakin kollektivçi mədəniyyətlərdə insanlardan qrup üzvləri, cəmiyyətlə eyniləşmək və harmoniya yaratmaq tələb edilir. Nəticədə valideyn övladının mənfi cəhətlərini aşkara çıxarmağa və onun qrupla uyğunlaşa bilməsi üçün həmin cəhətləri islah etməyə çalışır. Uşaqlar da ailədə, inkişaf prosesində özlərində eyniləşməyə və qrupla uyğunlaşmağa mane olan cəhətləri kəşf etməyi və onlara qarşı həssas olmağı öyrənirlər.

**Birüzlülük və ikiüzlülük.** Ardıcıllıq və birüzlülük nəzəriyyələrinə əsasən insanlar öz davranışları ilə etiqadları (mənəvi inamları) arasında uyğunluq yaratmağa çalışırlar. Bu nəzəriyyələrə görə, insanın etiqadları ilə davranışı arasında uyğunsuzluq olduqda, insan özünü pis hiss edib, bu hissdən yaxa qurtarmaq üçün

davranışları ilə etiqadları arasında uyğunluq və ardıcıllıq yaratmağa çalışır. Son dövrlərə qədər bu ideyanın universallığına heç bir şübhə yox idi, lakin Amerika və Avropa mədəniyyətlərindən olmayan bəzi mədəniyyətlər üzərində aparılan tədqiqatlar göstərmişdir ki, uyğunluq və ardıcıllıq yaratmaq istəyini bütün mədəniyyətlərə aid etmək olmaz.Tədqiq olunan mədəniyyətlərin bəzilərində insanlar özləri haqda danışarkən ziddiyyətli xüsusiyyətləri belə özlərinə aid edirlər .

Ümumilikdə kollektivçi mədəniyyətlərə aid insanlar mühiti (normalar, öhdəliklər və vəzifələr), demək olar ki, stabil, özlərini isə dəyişkən (elastik) hesab edirlər. Məhz buna görə də onlar həmişə özlərini dəyişərək mühitlə uyğunlaşmağa hazırdırlar. Bu tip insanların davranışı həmişə mühitin tələblərinə uyğun olub, təcrid edilməmək üçün qrup üzvlərinin istəyinə müvafiq dəyişə bilər, amma individualist mədəniyyətlərin üzvlərində bunların əksi müşahidə edilir. Bu mədəniyyətlərə aid insanlar özlərini (yanaşma tərzini, fərdi xüsusiyyətlərini, bacarıq və hüquqlarını) stabil, mühiti isə dəyişkən (qeyri-stabil) hesab edirlər. Bu səbəbdən də, həmişə mühitdə dəyişiklik etməyə hazır olurlar. İndividualist insanların davranış və etiqadları arasında uyğunluq (birüzlülük) daha çox olur.

Birüzlülük anlayışının əksi olan anlayış ikiüzlülükdür. Bu elə bir vəziyyətdir ki, həmin vəziyyətdə fərd düşündüyü kimi davranmır, yəni öz hisslərini və etiqadını gizlədir. Belə bir sual yaranır: ikiüzlülük probleminə hansı mədəniyyətlərdə (individualist, yoxsa kollektivçi) daha çox rast gəlmək olar? Bu sualın cavabı kollektivçi mədəniyyətlərdir, çünki bu tip mədəniyyətlərdə kollektiv və sosial qruplar (ailə, qohumlar, dostlar, məhəllə və s.) daha üstün tutulur, yəni hər bir fərd öz şəxsi istək və arzularını kollektivin mənfəəti naminə qurban verməlidir.

Kollektivçiliyi üstün hesab edən mədəniyyətlərdə istənilən individualist əməl dərhal eqoistlik adlandırılıb pislənir, çünki individualistlik qrup həmrəyliyi və insanlararası əlaqələrin möhkəmlənməsinə heç bir töhfə verməyib, əksinə, həmrəyliyin, əlaqələrin zəiflənməsinə zəmin yaradır.

Belə bir nəticəyə gəlirik ki, kollektivçi mədəniyyətdə qrupa əhəmiyyət verməmək, başqalarını incitmək, sadəcə şəxsi hisslərə və etiqada əsasən hərəkət etmək, iyerarxik sistemin hörmətini saxlamamaq (böyüklərin sözündən çıxmaq), başqaları ilə aşkar müxalifətdə olmaq və digər bu kimi davranışlar mənfi və kollektivin dağılmasına səbəb olan davranışlar hesab edilir. Bu səbəbdən də, insanlar öz daxili hiss və etiqadlarına həssas olmaq əvəzinə, daha çox qrup üzvlərinə münasibətdə həssas olurlar. Bu mədəniyyətlərdə insanların davranışına daxili hiss və düşüncə ilə deyil, daha çox sosial mövqe (status) və fərdlərarası əlaqələr vasitəsilə nəzarət edilir. İndividualist mədəniyyətlərdə isə insanların davranışına daha çox onların öz düşüncəsi, daxili hissləri və şəxsiyyəti vasitəsi ilə nəzarət edilir.

## ədəbiyyat

1. Bond M. H. and Forgas J. Linking person perception to behavior intention across cultures: the role of cultural collectivism. Jurnal of " Across-cultural psychology", 15, 1984

2.Ho D. Y. F. & Chan S. F. & Peng S. Q. & Ng A. K. The dialogic self: converging East West constructions. "Culture and psychology", 7(3), 2001

3. Markus R & Kitayama S. The cultural construction of self and emotion: Implications for social behavior. In S. Kitayama & H. R. Markus (Eds), motion and culture: Empirical studies of mutual infuence (pp.89-130), Washington DC: "American Psychological Association Press", 1994

4. Mohsen Coşəni və Riza Rostəmi. Mədəniyyətlərarası psixologiya. Tehran: "Ərcümənd " 2009. 5. Mehrnaz Şəhraray. Yeniyetmələrin inkişaf psixologiyası. Tehran: "Elm" , 2005



## Действие культуры на сферу «Я»
## резюме

В коллективистских группах культура никогда не бывает проигнорирована, здесь нет стремления обидеть других, просто проявлять личностные чувства и действовать в соответствии с Ветхим Заветом, есть стремление сохранить уважение к иерархической системе (подчиняться взрослым, каждому их слову), нет явной оппозиции с другими, и прочие подобные виды поведения, которые являются отрицательными и могут привести к разрушению группы. По этой причине, люди более чувствительны к своим чувствам и убеждениям, а не группам (членам группы).

В индивидуалистических культурах же человеческое поведение управляется с помощью внутренних чувств и качеств личности.



## İnfluence of the culture to "I" sphere
## summary

In collectivist culture groups are never ignored, there is no desire to hurt others, just to show personal feelings and act in accordance with the Old Testament, there is a desire to maintain respect for the hierarchy (to obey adults, every word), there is clear opposition to others, and other similar forms of behavior that are negative and can lead to destruction of the group. For this reason, people are more sensitive to their feelings and beliefs, rather than groups (group membership).

In individualistic cultures as human behavior is controlled by the inner feelings and personality traits.

# UŞAQLARIN VƏTƏNDAŞLIQ RUHUNDA TƏRBİYƏ OLUNMASI ŞƏXSİYYƏTİN FORMALAŞMASINDA ƏSAS İSTİQAMƏTLƏRDƏN BİRİ KİMİ

**Samirə Paşayeva,**
Tovuz Dövlət Sosial-İqtisad Kollecinin müəllimi



**açar sözlər:** kiçikyaşlı məktəblilər, vətəndaşlıq, tərbiyə, əxlaqi keyfiyyətlər

**ключевые слова:** младшие школьники, гражданство, воспитание, моральные качества

**key words:** young schoolchildren, civic, bringing up, moral qualities

Müasir cəmiyyətdə insanların tərbiyə edilib, yetişdirilməsi məsələsi qarşıda duran ən vacib məsələlərdən biridir. Gənc nəsildə cəmiyyət qarşısında öz vətəndaşlıq borcunu başa düşmək, onun həyata keçirilməsi üçün məsuliyyət daşımaq kimi əxlaqi keyfiyyətləri tərbiyə etmək tərbiyəçi və müəllimlərin müqəddəs vəzifəsidir. Gənc nəsildə bu əxlaqi keyfiyyətlər tərbiyə olunmasa, nə düşmən tapdağı altında qalan 20%-dən artıq torpaqlarımızı geri almaq, nə də bir milyondan artıq məcburi köçkün və qaçqınlarımızı öz yurd-yuvalarına qaytarmaq mümkün olacaqdır. Deməli, müstəqillik, suverenlik yolunda inamla irəliləyən respublikamızın uğurlu inkişafı ilk növbədə böyüyən nəslin təlim-tərbiyəsinin məqsədyönlü təşkilindən, onların əsl vətəndaş kimi hazırlanmalarından çox asılıdır. Bu iş ilkin olaraq ailədən başlanmalı, müəllimlərin təlim prosesində apardıqları işlərlə davam etdirilməlidir.

Böyüməkdə olan gənc nəslin vətəndaşlıq ruhunda tərbiyəsi bütün dövrlərdə aktual olmuş və bu gün də aktualdır. Müstəqil Azərbaycan dövləti yeni fikirli, azad, demokratik düşüncəli, yüksək sivilizasiya mövqeyində dayanıb, öz dəst-xəttini tanıda bilən vətəndaşlar yetişdirmək qüdrətinə malikdir.

Hər bir vətəndaş ailə, kollektiv, cəmiyyət qarşısında, bütövlükdə vətən qarşısında mühüm vəzifələr daşıyır. Əgər o, bu vəzifələri layiqincə yerinə yetirirsə, ailə, kollektiv və bütövlükdə yaşadığı dövlət tərəfindən təqdir edilir, qiymətləndirilir. Deməli, əxlaqi borc insan üçün ən qiymətli sərvətdir. N.A.Dobrolyubov yazırdı ki, həqiqi əxlaqlı o adamı hesab etmək olmaz ki, borca nə isə ağır bir yük kimi, əxlaqi buxov kimi dözə

bilir. Əksinə ,o adamı yüksək əxlaqlı hesab etmək olar ki, o, borcun tələbləri ilə öz daxili mahiyyətinin tələbatını uyğunlaşdırmağa çalışır. Məhz belə olduqda əxlaqi borcun yerinə yetirilməsi şəxsiyyət üçün ağır yük olmayıb, ona mənəvi zövq verir. Yadda saxlamaq lazımdır ki, borcla tələbat bir-birinə uyğun gəlmədikdə, əsla tərəddüd etmədən borcun tələbini könüllü yerinə yetirmək lazımdır. Əls halda, belə adamları xalq daim lənətləyir. Əxlaqi keyfiyyətlərin tərbiyə odunması ailə ilə məktəbin sarsılmaz borcu hesab edilməlidir. Əvvəlcə ailə övlad tərbiyəsi sahəsindəki məsuliyyət hissini dərk etməlidir. A.S.Makarenko yazırdı: «Biz öz vətəndaşımızdan tələb edirik ki, o, həyatının hər bir dəqiqəsində sərəncam və əmr gözləmədən borcunu yerinə yetirməyə hazır olsun, onda təşəbbüskarlıq və yaradıcı iradə olsun». Çox təəssüflər olsun ki, bəzi ailələr öz uşaqlarını cəmiyyətimizin tələbləri ruhunda tərbiyə etmir, övlad tərbiyəsində ciddi qüsurlara yol verirlər. Bu, onun nəticəsidir ki, bir çox valideynlərin təlim-tərbiyə işinin düzgün təşkilinə dair nə pedaqoji bilikləri, nə də təcrübələri vardır. Valideynin övlad tərbiyəsində tutduğu bu yol şagirdlərdə vətəndaşlıq borcu və məsuliyyət tərbiyəsini çətinləşdirir. Bunun nəticəsində də tərbiyə sahəsində ciddi nöqsanlar meydana çıxır. Bu nöqsanlar bir daha yəqinlik hasil edir ki, problemin tədqiqinə böyük ehtiyac var.

Vətəndaşlıq borcu dedikdə, mənsub olduğun dövlətlə birliyi, bağlılığı hiss etmək, onun təhlükəsizliyi və çiçəklənməsi üçün məsuliyyət daşıdığını unutmamaq və vətənin inkişafı naminə tərəqqiyə xidmət nəzərdə tutulur.

Vətəndaş tərbiyəsi – ölkənin, dövlətin cari və perspektiv vəzifələrinin həllində iştiraka, zəhmətkeşlik və sahibkarlıq funksiyalarını yerinə yetirməyə, vətənin müdafiəsinə , nəhayət şüurlu və fəal təbii-ictimai fəaliyyətdə iştiraka hazır olan insan yetişdirmək deməkdir.

Ailədə yaşlı nəsil tərəfindən vətəndaşlıq tərbiyəsi, demək olar ki, hər gün bu və ya digər şəkildə həyata keçirilir. Bu prosesin elmi-pedaqoji əsaslarla qurulması vacibdir Müvafiq elmi-tədqiqat işlərinin aparılması vətəndaşlıq tərbiyəsinin səmərəli qurulmasına xeyli təsir göstərə bilər. Ənənəvi tədqiqatlarda irəli sürülən bir sıra ideyalar bu gün də öz əhəmiyyətini saxlamaqdadır.

Müəyyən fərq və ziddiyyətlərinə baxmayaraq, tədqiq etdiyimiz problemlə əlaqədar baxışları belə ümumiləşdirmək olar: vətəndaşlıq tərbiyəsi şəxsiyyətin inkişafı və formalaşdırılması problemi ilə sıx bağlı olub, hüquqi, fəlsəfi, pedaqoji və psixoloji məzmun çalarlarına malikdir. Vətəndaşlıq insanın mənsub olduğu cəmiyyətin və dövlətin ideyalarına xidmət edir. Vətəndaşlıq tərbiyəsi üzrə iş məqsədyönlü, sistemli təşkil olunmalıdır. Bu tərbiyənin məzmununa insanın yüksək intellektə, əxlaqi-mənəvi keyfiyyətlərə malik olması, cəmiyyətdə vəzifə daşıması, hüquq

normalarını gözləməsi, Vətən və dövlət təəssübkeşliyi, peşə hazırlığı, üzərinə düşən ictimai, iqtisadi, ailə-məişət, sosial vəzifələri yerinə yetirə bilməsi və s. daxildir.

Vətəndaşlıq borcunun tərbiyə olunmasında əsas məqsəd kiçik məktəbyaşlı uşaqların şəxsiyyətinin hərtərəfli formalaşdırılması prosesində ona vətəndaşlıq duyğuları aşılamaqdır. O, özünü vətəndaş kimi dərk etməlidir. Vətəndaşlıq tərbiyəsi uşağın kiçik yaşlarından başlayaraq cəmiyyətdə, həyatda, fəaliyyətdə yararlı və faydalı insan kimi, daha doğrusu, özünü cəmiyyət üzvü kimi göstərə bilməsindən başlayır.

Vətəndaşlıq borcu insanın əxlaqi tərbiyəliliyini və şüurlu intizamını müəyyən edən mühüm mənəvi amildir. Bu, insanların sosial, siyasi, hüquqi və əxlaqi şüurunun fəallığını üzə çıxarmaq, şüur və davranışın vəhdətini təmin etmək formalarından biridir. Vətəndaşlıq borcu əmrlə yox, ürəyin istəyi ilə yerinə yetirilməlidir.Vətəndaşlıq tərbiyəsinin vəzifələri qarşıya qoyulan tələblərin vəhdətində üzə çıxır, hüquq və əxlaq normalarında, insanın özünü dərketməsində ifadə edilir.Vətəndaşlıq tərbiyəsinin komponentləri olan davranış, münasibət, hərəkət və fəaliyyət vətəndaşlıq vəzifələrinin yerinə yetirilməsində insanın şəxsi keyfiyyətlərini təzahür etdirir.

Kiçik məktəb yaşlı uşaqların vətəndaşlıq tərbiyəsində müxtəlif iş formalarından istifadə edilir: ictimai işlər, məhsuldar əmək, ideya-mənəvi tədbirlər, oyunlar, təlim materialları, ailə ənənələri və s.

Müşahidə və iş təcrübəsi göstərir ki, vətəndaşlıq tərbiyəsi böyüyən nəsildə bir sıra mühüm keyfiyyətləri üzə çıxarmağa kömək edir: ictimai və şəxsi maraqların uyğunluğu, söz və əməl birliyi, şüur və davranışın vəhdəti, fəal vətəndaşlıq mövqeyi, məqsədyönlü fəaliyyət, hüquqi və ictimai normalara əməl edilməsi, ideyaca səbatlılıq, məsuliyyətlilik, vicdanlılıq, mübarizlik, düşmən niyyətə, əyriliklərə qarşı barışmazlıq və s.

Vətəndaşlıq tərbiyəliliyi bu komponentləri özündə birləşdirir: vətəndaşlıq şüuru, vətəndaşlıq borcu, vətəndaşlıq davranışı, vətəndaşlıq qüruru, vətəndaşlıq ləyaqəti, vətəndaşlıq yetkinliyi, vətəndaşlıq dəyanəti. Bu komponentlər vətəndaşlıq tərbiyəsi üzrə aparılan sistemli işin verdiyi nəticələrdir. Bu tərbiyə prosesi kiçik yaşlardan başlayır, yeniyetməlik və ilk gənclik dövründə formalaşır, lakin özülü uşaqların kiçik məktəb yaşı dövründə qoyulur. Buna görə də valideyndərdən uşaqların kiçik məktəb yaşı dövründə tərbiyə işinin xüsusiyyətlərini bilmək tələb olunur.

Ailədə vətəndaşlıq borcu tərbiyəsi uşaqlara kiçik yaşlarından aşılanmAlıdır. Uşaq bilməlidir ki, onun ailəsində vətənə, xalqa, doğma yurdun hər qarışına xüsusi hörmət və ehtiram vardır. Bunu valideyn öz sözlərində, hərəkətlərində, insanlara münasibətində öz şəxsi nümunəsi ilə göstərməlidir. Onlar bu atalar sözünü unutmamalıdırlar: «Nə əkərsən,

onu da biçərsən». Uşaqların ailədə vətəndaşlıq borcu ruhunda tərbiyə edilməsində valideynlərin istirahət günlərində övladlarını kino-teatra, istirahət parklarına və muzeylərə aparmaları, vətənimizin görməli yerləri ilə tanış etmələri ən gözəl tərbiyə metodlarından biridir. Bu zaman uşaqlar ictimai yerlərdə davranış, qarşılıqlı münasibət, muzeydəki əşyalara, istirahət parkındakı gül-çiçəklərə, yaşıllıqlara qayğı vərdişlərinə yiyələnirlər.

Ailə üzvlərinin davranışı uşağın tərbiyəsinə güclü təsir göstərir. Buna görə də valideynlər ailə üzvləri arasında hörmət və ehtiram hissinin yaranmasına diqqət yetirməlidirlər. Onlar nə qədər çətinliklərlə üzləşsələr də, övladlarının yanında bunları büruzə verməməlidirlər.

**ədəbiyyat**


1. Dobrolyubov N.A. Seçilmiş pedaqoji əsərləri. Bakı, 1968
2. Əliyeva T.S. İbtidai sinif şagirdlərinin hərbi vətənpərvərlik tərbiyəsi.( Pedaqoji elmlər namizədinin dissertasiyası). Bakı, 1997
3. Quliyev S.M. Şagirdlərin tərbiyəsində məktəblə ailənin birgə işi. Bakı, 1973
4. Makarenko A.S. Seçilmiş pedaqoji əsərləri. Bakı, 1950


**Воспитание у детей патриотического долга как важное качество формирования личности**

**резюме**


В статье отмечается, что основа чувство патриотизма вкладывается в семье, затем в дошкольных образовательных учреждениях, в школах, а в дальнейшем в целом осуществляется в жизнь. Родители, воспитатели и учителя являются главными исполнителями привития этих священных чувств в поприще молодых поколений.


**Educating the children of patriotic duty as an important quality of identity formation**

**summary**


The basis of patriotism is embedded in the family, then in preschool institutions, schools, and in the future as a whole is in life. Parents, carers and teachers are top performers in the inculcation of these sacred feelings for a field of young generation.

## I SİNİFDƏ MUSİQİ DƏRSLƏRİNİN PLANLAŞDIRILMASINA DAİR FAYDALI KİTAB

Oktay Rəcəbov və Firəngiz Hidayətovanın ümumtəhsil məktəblərinin I siniflərində musiqi fənninə ənənəvi və müasir dərslərin planlaşdırılmasına həsr olunmuş kitabı çapdan çıxmışdır. Kitab giriş və üç fəsildən ibarətdir.

I fəsildə musiqi dərslərinin vəzifələri və məzmunundan söhbət açılır, "musiqi ifaçılığı", "musiqili–ritmik hərəkət" anlayışları izah olunur, altıyaşlılar proqramına dair metodik göstərişlər verilir.

II fəsildə musiqi dərslərinin təxmini planlaşdırılması təqdim olunur. Bu fəsildə musiqi məşğələlərinin ənənəvi və müasir planlaşdırılmasından söhbət gedir. Hər bir mövzuya dair dərs nümunəsi verilir.

III fəsildə dərsdənkənar vaxtlarda musiqi məşğələlərinin aparılması formaları izah olunur. Altıyaşlılarla keçiriləcək bayram tədbirlərinin ("Yeni il" şənliyi, "8 Mart – Beynəlxalq qadınlar bayramı", "9 May – Qələbə bayramı"), səhərciklərin ("Qırmızıpapaq və s.") ssenariləri verilir.

Sonda milli musiqi alətlərimizin şəkilləri, Dövlət himninin və bir çox uşaq mahnılarının ("Gözəl Vətən", "Əlifba, salam!", "Sərhədçilər marşı ", "Şaxta baba", "Dələ" və s.) not yazıları verilir.

Kitab ümümtəhsil məktəblərinin musiqi müəllimləri, ali və orta ixtisas məktəblərinin müvafiq fakültələrinin tələbələri üçün nəzərdə tutulmuşdur.

**MƏMMƏDOVA K.C.,**
*jurnalın əməkdaşı*

## MƏZHƏKƏLƏR

Ata yeganə oğlundan soruşur:
- Oğul, məktəbdə işlər necədir?

Oğlan cavab verir:
- Mən dərslərindən "2" alan uşağın atası ilə danışmaq istəmirəm.

* * *

Atası oğluna:
- Oğul yadda saxla, biz ona görə gözəl torpaq sahəsində yaşayırıq ki, çalışaq, əməklə məşqul olaq.

Oğul:
- Elə isə mən dənizçi olacağam.

# DAHİNİN AD GÜNÜDÜR

**Nə gözəldir bu həyat,**
**Bəzənibdir obamız.**
**Azadlıq verib bizə**
**Heydər, əziz babamız!**

**Belə məsləhət bilib,**
**Gör oğluna nə deyib:**
**«Vətənin oğlu, canı,**
**Qoru Azərbaycanı!»**

**Ucalıbdır heykəli,**
**Gül-çiçəkdir hər yeri.**
**On May – «Gül bayramı»dır,**
**Gözəlliyin canıdır.**

**Dənizkənarı parkda**
**Xoş bayram şənliyidir.**
**Dahinin ad günüdür,**
**Xalqın əziz günüdür!**

**N.Məmmədbəyov**

# DAHİNİN AD GÜNÜDÜR

Nə gözəldir bu həyat,
Bəzənibdir obamız.
Azadlıq verib bizə
Heydər, əziz babamız!

Belə məsləhət bilib,
Gör oğluna nə deyib:
«Vətənin oğlu, canı,
Qoru Azərbaycanı!»

Ucalıbdır heykəli,
Gül-çiçəkdir hər yeri.
On May – «Gül bayramı»dır,
Gözəlliyin canıdır.

Dənizkənarı parkda
Xoş bayram şənliyidir.
Dahinin ad günüdür,
Xalqın əziz günüdür!

N.Məmmədbəyov